Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 294 (8021) CÜMƏ, 28 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## İnamlı, davamlı, təhlükəsiz inkişaf

### İlham Əliyev 15 illik uğur salnaməsini Azərbaycana ziyan vurmaq istəyənlərə ən yaxşı cavab kimi qiymətləndirdi

"...Mətbuata yalançı təbliğat tullantıları atılır. Bu, qarayaxma, şantaj və təzyiq göstərmək cəhdlərinin sevimli üsuludur. Amma bizdə buna qarşı immunitet yaranıb. Azərbaycan vətəndaşları çox yaxşı başa düşürlər ki, bu informasiya tullantıları cəhdlərinin arxasında nə durur. Azərbaycanın inamlı, davamlı, təhlükəsiz və sabit inkişafı bizə ziyan vurmaq istəyənlərə ən yaxşı cavabdır... Həm də qəribədir ki, bizim əleyhimizə olan qətnamələri üzvü olmadığımız və üzv olmağa hazırlaşmadığımız strukturlar qəbul edirlər. Bax, bu, necə deyərlər, daha çox təbəssüm doğurur".

Bu fikirləri "Rossiya-24" telekanalına müsahibəsində səsləndirən Prezident İlham Əliyev tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın daxili və xarici uğurlarını həzm edə bilməyən qüvvələrin əsl xislətini göstərmiş oldu. Bir daha bəyan etdi ki, antiazərbaycançı qüvvələr hətta ölkəmizin xırda bir uğuruna belə kölgə salmaq, qara yaxmaq üçün istənilən çirkinliklərə əl atırlar.

#### Azərbaycanda heç bir sosial, siyasi təhdid yoxdur

Cənab İlham Əliyevin dediyi kimi, Azərbaycanda heç bir potensial risk, fiziki, ideoloji, sosial, siyasi təhdid yoxdur. Dövlət suverenlik və vətəndaşın təhlükəsizliyi məsələlərinə hər zaman çox həssaslıqla yanaşır. Bu səbəbdən də Azərbaycanı hansısa beynəlxalq avantüralara cəlb etmək cəhdləri həmişə fiaskoya uğrayıb.

Yəqin ki, bu proses kimlərinsə xoşuna gəlmir və onlar ölkə vətəndaşlarının rahatlığını yalnız kənardan pozmağa çalışırlar. Daxildəki "beşinci kolon"un üzvləri də onlara "dəstək" verməklə çirkin niyyətlərini ortaya qoyurlar. Yalan, iftira dolu "donoslar" hazırlayıb beynəlxalq təşkilatlara yollayırlar. Ancaq bir qayda olaraq bunlar Azərbaycanın iştirak etmədiyi beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrdə ifadə olunur.

Bu gün dünya miqyasında ən sabit və uğurla inkişaf edən ölkələrdən biri sayılan Azərbaycana qarşı aparılan məkrli kampaniyalar heç vaxt ölkəmizin yüksələn nüfuzuna xələl gətirmir, əksinə, Azərbaycanın etibarlı tərəfdaşlarının sayı artır. Çünki həm böyük güclər, həm də inkişaf etməkdə olan ölkələr Azərbaycan reallıqlarından xəbərdardırlar. Respublikamızın Cənubi Qafqaz regionunda həyata keçirdiyi və birbaşa iştirakçısı olduğu beynəlxalq layihələr ölkəmizə həm siyasi, həm də iqtisadi dividendlər qazandırır.

#### Geosiyasi planda əhəmiyyəti artan ölkə

Dövlət başçısı son 15 ildə həyata keçirilən beynəlxalq layihələrdən - "Bakı-Tbilisi-Ceyhan", "Bakı-Tbilisi-Ərzurum", "Bakı-Tbilisi-Qars", "Cənub qaz dəhlizi" layihəsindən, Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərindən söz açaraq vurğulayıb ki, Azərbaycanın əhəmiyyəti və rolu təkcə enerji bazarında deyil, həm də bütövlükdə geosiyasi planda artır. Ölkəmiz daha da inkişaf edir və regionda özünü təsdiqləmək üçün daha çox planları var.

Buna görə də həmin kontekstdə enerji layihələrinin icrası baxımından Azərbaycan heç bir maneə hiss etmir. Əksinə, Azərbaycan qazı Avropa ölkələrinin enerji təhlükəsizliyini müəyyən dərəcədə təmin edəcəyinə görə ölkəmiz Avropa İttifaqı tərəfindən dəstək hiss edib.

Qeyd edək ki, hər il Bakıda "Cənub qaz dəhlizi" layihəsinin reallaşdırılması üzrə Məşvərət Şurası keçirilir. Bu layihədə Avropa İttifaqının üzvü olan bir neçə ölkə iştirak etdiyinə görə Avropa İttifaqı bu Məşvərət Şurası çərçivəsində hər zaman yüksək səviyyədə təmsil olunur.

"Cənub qaz dəhlizi" layihəsinə gəlincə, dörd mühüm müstəqil seqmenti ("Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, TANAP, TAP) olan bu layihənin üçü artıq reallaşıb və mayda "Cənub qaz dəhlizi"nin rəsmi açılışından sonra iyunda TANAP layihəsinin də açılış mərasimi keçirilib. Beləliklə, Azərbaycan Türkiyəyə, daha sonra isə Avropa bazarlarına daha böyük həcmdə qaz nəql etməyə başlayır.

Bu, əlbəttə ki, İlham Əliyevin qətiyyətli, tam müstəqil siyasətinin davamıdır. Ona görə ki, hələ 2007-ci ildə "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərinin fəaliyyətə başlaması ilə Azərbaycan Türkiyə bazarına qaz ixracat etməyə başlayıb. "Cənub qaz dəhlizi" isə Türkiyə bazarına qazın ixracını iki dəfə artırmağa, eləcə də qardaş ölkənin ətrafındakı dövlətlərin bazarlarına, sonra isə Qərbi Avropaya çıxmağa imkan verəcək. Bu da Azərbaycana milyardlarla dollar gəlir gətirəcək. Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycan artıq Avrasiyanın tamamilə yeni enerji xəritəsini yaradır.

Ardı 6-cı səh.

## Fövqəladə Hallar Nazirliyinin sosial infrastruktur sistemi təkmilləşdirilir





Dekabrın 27-də Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dövlət başçısına raport verdi.

Prezident İlham Əliyev İdman-Sağlamlıq Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov görülən işlər və burada yaradılan şəraitlə bağlı dövlət başçısına ətraflı məlumat verdi.

Qeyd edək ki, müasirliyi ilə diqqəti cəlb edən mərkəzdə tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Ümumi ərazisi 14 min kvadratmetr olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb.

Prezident İlham Əliyev İdman-Sağlamlıq Mərkəzinin universal zalında yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, 1950 tamaşaçı yerlik universal zalda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Burada, əsasən, Fövqəladə Hallar Nazirliyinin idman-sağlamlıq klubu fəaliyyət göstərəcək.

Ardı 2-ci səh.





## Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox yüksək qiymətləndirilir

Dekabrın 27-də Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilən yaşayış binaları kompleksinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və "Archico" MMC-nin rəhbəri, layihənin icraçısı Məhəmməd Musayev görülən işlərlə bağlı dövlət başçısına və birinci xanıma məlumat verdilər.

Şəhərin mərkəzində, Koroğlu prospektində yerləşən kompleksin inşasına 2017-ci ilin martında başlanılıb. Xüsusi memarlıq üslubunda və müasir səviyyədə inşa olunan bu kompleks 1005 qaçqın və məcburi köçkün ailəsi üçün nəzərdə tutulub. Ərazisi 4 hektar olan kompleksdə ümumilikdə 12 bina, o cümlədən səkkizmərtəbəli səkkiz, 15 mərtəbəli dörd bina var. Kompleksdə məktəb, uşaq bağçası, mərasim evi, polis məntəqəsi və digər zəruri infrastruktur obyektləri inşa edilib.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Ardı 2-ci səh.

## Prezidentdən idmançılara Yeni il hədiyyəsi

### Daha bir idman obyekti qapısını idmansevərlərin üzünə açdı

Ölkə rəhbərliyinin bədən tərbiyəsi və idmanın inkişafı naminə yürütdüyü məqsədyönlü siyasət və bu istiqamətdə atılan ardıcıl addımlar gənc nəslin sağlam böyüməsinə əsaslı zəmin yaradır. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir. Elə bir il olmur ki, paytaxtda və bölgələrdə yeni-yeni idman obyektləri tikilib istifadəyə verilməsin.

Dünən ölkənin idman ictimaiyyəti daha bir fərəhli hadisənin şahidi oldu. Bakıda Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzi fəaliyyətə başladı. Ən müasir standartlar səviyyəsində inşa olunmuş mərkəzin açılışı mərasimində iştirak edən Prezident İlham Əliyev burada idmansevərlər üçün yaradılmış şəraitlə tanış oldu.

Dövlət başçısına məlumat verildi ki, yeni idman obyektində əsasən nazirliyin idman-sağlamlıq klubu fəaliyyət göstərəcək. İdman-sağlamlıq klubu əsas diqqəti nazirliyin hərbi qulluqçularının və dövlət qulluqçularının fiziki hazırlığının yüksəldilməsinə yönəldəcək. Bununla yanaşı, mərkəzdə idmanın müxtəlif növləri üzrə yarışlar keçirmək mümkün olacaq.

Diqqətəlayiq haldır ki, nazirliyin nəzdində fəaliyyət göstərən idman-sağlamlıq klubu son illər bir çox uğurlara imza atmışdır. Klubu təmsil edən idmançılar ölkədaxili yarışlarla bərabər, mötəbər beynəlxalq turnirlərdə, o cümlədən dünya və Avropa çempionatlarında müvəffəqiyyətlə çıxış etmişlər.

Yeni idman mərkəzinin açılması idman-sağlamlıq klubunun gələcəkdə uğurlarını artırmasına imkan verəcək.

Ardı 6-cı səh.

## Yerevan Xankəndidə qiyam hazırlayır

### Paşinyan-separatçı rejim qarşıdurması dərinləşir

Ermənistanda, eləcə də Azərbaycanın işğal edilmiş ərazilərində baş verən son proseslər erməni cəmiyyətində artıq yeni qarşıdurma mərhələsinin başlandığını göstərir.

Belə görünür ki, növbədənkənar parlament seçkilərində qalib gələn Nikol Paşinyan Sarkisyan-Koçaryan koalisiyasını tam şəkildə çökdürməkdə israrlıdır. Hərbi xuntanı əvvəlcə Ermənistanda hökumətdən, daha sonra parlamentdən uzaqlaşdıran Paşinyan artıq əsas diqqəti Azərbaycanın zəbt edilmiş ərazilərində yaradılan separatçı rejimə yönəldir. Burada da keçmiş qruplaşmanı tam çökdürmək niyyətində olan Paşinyan separatçıların rəhbəri vəzifəsinə özünə yaxın saydığı şəxsi gətirməyi düşünür. Elə bu səbəbdən onun separatçı rejimin rəhbəri Bako Saakyanla münasibətləri olduqca kəskindir.



Ardı 7-ci səh.





# Fövqəladə Hallar Nazirliyinin sosial infrastruktur sistemi təkmilləşdirilir













*Əvvəli 1-ci səh.*

İdman-sağlamlıq klubu tərəfindən əsas diqqət nazirliyin hərbi qulluqçularının və dövlət qulluqçularının fiziki hazırlığının yüksəldilməsinin həyata keçirilməsinə yönəldilib. Bundan başqa, klub nazirliyin qurumlarında idmanın müxtəlif növləri üzrə yarışların keçirilməsində iştirak edərək yığma komandaların, ayrı-ayrı idmançıların, məşqçilərin respublika və beynəlxalq əhəmiyyətli yarışlara qatılmasını təmin edir. Klub, həmçinin xilasetmə qurumlarının fəaliyyət istiqamətlərinə uyğun olaraq idman yarışları da təşkil edir. Son illər idman-sağlamlıq klubunun üzvləri müxtəlif yerli və beynəlxalq yarışlarda mühüm uğurlar qazanırlar. İdman-sağlamlıq klubunun təşkilatçılığı ilə hər il "Mübarizlər" yarışı keçirilir. Bu il keçirilən yarışda klubun təmsilçiləri 8-i əcnəbi iştirakçıdan ibarət olmaqla, 45 komanda arasında birinci yeri tutub. Bundan başqa, klubun üzvləri 20-dək çempionatda, o cümlədən dünya və Avropa birinciliklərində, həmçinin digər turnirlərdə uğurla çıxış ediblər. Klubun kişilərdən ibarət voleybol komandası Azərbaycan çempionatında müvəffəqiyyətlə çıxış edərək ikinci yeri tutub. Klubda inkişaf etdirilən əsas idman növləri arasında nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq səmti müəyyənetmə, dağadırmanma, beşnövçülük və çoxnövçülüyə də xüsusi diqqət yetirilir.

İdman-Sağlamlıq Mərkəzinin trenajor, cüdo, boks, güləş, karate və taekvondo zallarında da idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir. Zallarda məşqlərin keçirilməsi və yarışların təşkili üçün mükəmməl şərait var. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunub.

Qeyd edildi ki, İdman-Sağlamlıq Mərkəzinə daxil olan restoran və mətbəxdə də xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıb. Buradakı üzgüçülük hovuzu da ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25 metr, eni isə 12 metrdir. Ölkəmizdə yeniyetmə və gənclərin idmanın üzgüçülük növünə də marağı ildən-ilə artır. Bu zalda üzgüçülük yarışlarını 120 nəfər izləyə biləcək.

Ölkəmizdə həyata keçirilən quruculuq işləri çərçivəsində gənclərlə iş və idman sahəsinə də xüsusi diqqət yetirilir. Kütləvi bədən tərbiyəsi və idman artıq cəmiyyət həyatının ayrılmaz tərkib hissəsinə çevrilib. Azərbaycanın müxtəlif bölgələrində bir-birinin ardınca çoxsaylı idman obyektləri, o cümlədən Olimpiya kompleksləri inşa edilib, bir çox müvafiq infrastruktur yenidən qurulub.

İndi Azərbaycanda güclü idman potensialı formalaşıb. Böyüməkdə olan nəsil adlısanlı idmançılardan nümunə götürür və onların şərəfli yolunu davam etdirməyə çalışır. Onu da qeyd edək ki, idman-sağlamlıq klubunun üzvləri yalnız nazirliyin əməkdaşlarından ibarətdir. Hazırda klubun 300-dək üzvü var. Klubun üzvləri bu idman qurğusunda cüdo, güləş, karate, üzgüçülük, gimnastika, taekvondo və digər idman növləri üzrə ustalıqlarını artırırlar. Gələcəkdə idman növlərinin sayının artırılması nəzərdə tutulur. İdman-Sağlamlıq Mərkəzinin həyətində geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb.

# Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox yüksək qiymətləndirilir

*Əvvəli 1-ci səh.*

Mənzillərin hamısı tam təmirlidir və mətbəx mebeli, qaz sobası ilə təchiz olunub. Bundan başqa, mənzillərdə mərkəzləşdirilmiş internet və televiziya şəbəkəsi quraşdırılıb.

Kompleksdəki 1005 mənzilin 167-si birotaqlı, 536-sı ikiotaqlı, 302-si isə üçotaqlı və dördotaqlıdır. Ərazidə sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün iki istirahət guşəsi yaradılıb, uşaq meydançası quraşdırılıb. Kompleksin ümumi ərazisinin 67 faizində yaşıllıq və abadlıq işləri görülüb. Bu kompleks Sumqayıtın mərkəzində yerləşdiyindən şəhərin memarlıq üslubuna uyğun inşa olunub, binaların fasadlarına xüsusi diqqət yetirilib, fərqli üslubda pəncərələr quraşdırılıb.

Layihənin icrası zamanı Sumqayıtdakı 12-ci mikrorayonda yerləşən 21 saylı məktəbə əlavə olaraq, dördmərtəbəli yeni korpus inşa edilib, məktəbin mövcud binasının fasadı, dam örtüyü tamamilə yenilənib. Məktəbin 540 şagird yerlik yeni korpusunda 21 sinif otağı var. Burada təlim-tədrisi yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait var.

Bu layihənin icrası Azərbaycan dövlətinin qaçqın və məcburi köçkün uşaqlarının təhsilli, bilikli və intellektual səviyyədə yetişməsinə nə dərəcədə həssaslıqla yanaşmasının əyani təzahürüdür. Eyni zamanda, bu işlər ümumilikdə ölkəmizdə təhsil sahəsinin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində icra olunan layihələrin ardıcıl və keyfiyyətlə davam etməsini göstərir.

Kompleksin ərazisində 50 yerlik uşaq bağçası da inşa edilib. Uşaq bağçasında balacaların təlim-tərbiyəsinin təşkili, onların istirahəti və əyləncəsi üçün hər cür şərait yaradılıb.

Bütün bunlar sübut edir ki, Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlət başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Son illərdə qaçqınlar və məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur.









## Qafqaz Müsəlmanları İdarəsinə maliyyə yardımı göstərilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Qafqaz Müsəlmanları İdarəsinə 4,0 (dörd) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2018-ci il*

## Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

"ASAN xidmət" işçilərinin peşə bayramı günü münasibətilə və dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsində səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Mehdiyev Ülvi Ramiz oğlu
Batıyeva Labidə Həsən qızı
Cəfərli Azad Məhyəddin oğlu
Cəfərov Elxan Müsafir oğlu
Hüseynova Nazənin Şahin qızı
İsayev Elman Rəhman oğlu
Orucov Novruz Elman oğlu
Sabirli Ramal Seyidbaba oğlu
Salmanov Ceyhun Akif oğlu
Zeynalova Zərnigar Vasif qızı

**"Tərəqqi" medalı ilə**

Cəfərov Elvin Rasim oğlu
Cəfərov Fariz Tahar oğlu
Elçiyev Rüfət Vaqif oğlu
Əliyev Əbdül Nəcəf oğlu
Fətullayev Murad Həsən oğlu
Hacıyev Cahangir Qəhrəman oğlu
Hətəmov Xətai Sevindik oğlu
Hüseynli Lalə Məhərrəm qızı
Xəlilova Ulduzə Tofiq qızı
Xudaverdiyev Məhəmmədəli Bayram oğlu
Qarayev Fuad Firdovsi oğlu
Qasımov Adil Nazim oğlu
Mehtiyeva Nərmin Tərlan qızı
Muxtarov Vidadi Babaxan oğlu
Musavi Emin Qabil oğlu
Mustafazadə Turqud Ramiz oğlu
Tağı-zadə Tağı Xalid oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2018-ci il*

# “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, № 11, maddə 923, № 12, maddə 1018; 2007, № 1, maddə 4, № 12, maddə 1193; 2008, № 2, maddə 49, № 4, maddə 254, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279; 2018, № 3, maddələr 369, 396, № 5, maddələr 870, 894) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 4-cü maddə üzrə:

**1.1.1.** ikinci hissəsinin üçüncü abzasında “məhdudluğunun” sözü “məhdud olan şəxs” sözləri ilə əvəz edilsin;

**1.1.2.** üçüncü hissədə “aparılır” sözü “tətbiq edilir” sözləri ilə əvəz edilsin;

**1.2.** 8-ci maddə üzrə:

**1.2.1.** ikinci hissəyə “fəaliyyəti” sözündən sonra “(məcburi dövlət sosial sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət üzrə fəaliyyət istisna olmaqla)” sözləri və “idarə edən” sözlərindən sonra “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və” sözləri əlavə edilsin;

**1.2.2.** üçüncü hissəyə “seçkili orqanlar” sözlərindən sonra “, dövlət orqanları” sözləri əlavə edilsin;

**1.3.** 9-cu maddə üzrə:

**1.3.1.** birinci hissənin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

“müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) məcburi dövlət sosial sığorta haqları üzrə məlumat və hesabatlar almaq;”;

**1.3.2.** birinci hissənin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

“sığortaedənlər tərəfindən bu qanunun tələblərinə əməl edilməsinin elektron monitorinqini aparmaq, monitorinqin nəticələri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat vermək;”;

**1.3.3.** ikinci hissəyə aşağıdakı məzmunda beşinci və altıncı abzaslar əlavə edilsin:

“məcburi dövlət sosial sığortanın məqsədləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdim etdiyi məlumatlar əsasında sığortaedənlərin və sığortaolunanların uçotunu aparmaq;

məcburi dövlət sosial sığortası üzrə daxilolmaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə aylıq, rüblük və illik üzləşdirilməsini aparmaq;”;

**1.4.** aşağıdakı məzmunda 9-1-ci maddə əlavə edilsin:

**“Maddə 9-1. Məcburi dövlət sosial sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət**

9-1.1. Məcburi dövlət sosial sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət, məcburi dövlət sosial sığorta haqları üzrə hesabatın vaxtında təqdim edilməməsinə, hesablanmış məcburi dövlət sosial sığorta haqlarının azaldılmasına və ya yayındırılmasına görə maliyyə sanksiyalarının tətbiqi, məcburi dövlət sosial sığorta haqqı üzrə yaranmış borcların alınması, məcburi dövlət sosial sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanması və artıq ödənilmiş məcburi dövlət sosial sığorta haqqının qaytarılması Azərbaycan Respublikasının Vergi Məcəlləsində vergilər üzrə müəyyən olunmuş qaydada həyata keçirilir.

9-1.2. Artıq ödənilmiş və ya düzgün tutulmamış məcburi dövlət sosial sığorta haqlarının geri qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.”;

**1.5.** 10-cu maddənin ikinci hissəsi üzrə:

**1.5.1.** ikinci abzas ləğv edilsin;

**1.5.2.** dördüncü və beşinci abzaslar aşağıdakı redaksiyada verilsin:

“sosial sığorta haqlarının uçotunu aparmaq və hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hesabat vermək;

hesabat dövründə fəaliyyət göstərmədiyi halda Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hesabat əvəzinə hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş müddətdən gec olmayaraq fəaliyyətin olmaması barədə arayış təqdim etmək;”;

**1.6.** 11-ci maddənin ikinci hissəsinin ikinci abzası ləğv edilsin;

**1.7.** 12-ci maddədə “Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə AMOKO KASPİAN Sİ PETROLEUM LİMİTED, Bİ-Pİ EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED, DELTA NİMİR XƏZƏR LİMİTED, DEN NORSKE STATS OLYESELSKAP a. s., LUKoyl SƏHMDAR CƏMİYYƏTİ, MakDERMOTT AZƏRBAYCAN İNK., PENNZOYL KASPİAN KORPOREYŞN, REMKO XƏZƏR ENERCİ LİMİTED, TÜRKİYE PETROLLERİ A.O., YUNOKAL XƏZƏR, LTD arasında Sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi barədə” Azərbaycan Respublikasının 1994-cü il 2 dekabr tarixli 933 nömrəli Qanunu və “Xəzər dənizinin Azərbaycan sektorunda “Şahdəniz” perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə ARDNŞ Kommersiya Ortaq Şirkəti, Bi-Pi Eksploreyşn (Azərbaycan) Limited, Elf Petroleum Azərbaycan B.V., LUKoyl İnternəşnl LTD, Oyl İndastriz İncinirinq ənd Konstrakşn, Statoyl Azərbaycan A.S., Törkiş Petroleum Oversiz Kompani Limited şirkətləri arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə” Azərbaycan Respublikasının 1996-cı il 4 oktyabr tarixli 160-IQ nömrəli Qanunu ilə təsdiq olunmuş” sözləri “qanunla təsdiq olunmuş neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında” sözləri ilə əvəz edilsin;

**1.8.** 13-cü və 14-cü maddələr aşağıdakı redaksiyada verilsin:

**“Maddə 13. Məcburi dövlət sosial sığortası üzrə sığorta iştirakçılarının uçotu**

13.1. Sığortaedənlərin və sığortaolunanların məcburi dövlət sosial sığorta məqsədləri üçün sığortaçıda uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdim etdiyi uçot məlumatları əsasında aparılır.

13.2. Ailə kəndli təsərrüfatları qanunvericiliklə müəyyən olunmuş qaydada uçota alındıqdan, mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən şəxslər isə torpağa mülkiyyət hüququnu təsdiq edən sənəd aldıqdan sonra bir ay müddətində məcburi dövlət sosial sığortasının məqsədləri üçün uçota alınmaq barədə ərizə ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir. Ərizənin forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

13.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu qanunun 13.2-ci maddəsinə uyğun olaraq uçota almanı həyata keçirdikdən sonra bu barədə 1 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına elektron formada məlumat verir.

13.4. Məcburi dövlət sosial sığortası məqsədilə sığortaedənlərin və sığortaolunanların uçotu qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 14. Məcburi dövlət sosial sığorta haqqı**

14.1. Məcburi dövlət sosial sığorta haqqı sığortalamaya görə sığortaçıya verilən pul vəsaitidir.

14.2. Məcburi dövlət sosial sığortasında sığorta haqqı əmək ödənişinə (gəlirə) nisbətdə faizlə müəyyən edilir, sığortaedənin və sığortaolunanın vəsaiti hesabına ödənilir.

14.3. Bu qanunun 14.4-cü maddəsinin müddəaları nəzərə alınmaqla, muzdlu işdən əldə edilən gəlirlər üzrə məcburi dövlət sosial sığorta haqqı aşağıdakı dərəcələrlə ödənilir:

14.3.1. sığortaedən tərəfindən ödənilən sığorta haqqı - hesablanmış əməyin ödənişi fondunun və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərin 22 faizi;

14.3.2. sığortaolunan tərəfindən ödənilən sığorta haqqı - işçinin əməkhaqqının və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərinin 3 faizi.

14.4. Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortaedənlərdə işləyən sığortaolunanların muzdlu işdən aylıq gəlirlərindən məcburi dövlət sosial sığorta haqqı 2019-cu il yanvarın 1-dən 7 il müddətində aşağıdakı dərəcələrlə ödənilir:

| Sığorta haqqına cəlb edilən aylıq gəlir | sosial sığorta haqqı dərəcəsi | | |
|---|---|---|---|
| | cəmi | sığortaolunanın gəlirlərindən tutulan | sığortaedənin vəsaiti hesabına ödənilən |
| 200 manatadək | 25 faiz | 3 faiz | 22 faiz |
| 200 manatdan çox olduqda | 25 faiz | 6 manat + 200 manatdan çox olan hissənin 10 faizi | 44 manat + 200 manatdan çox olan hissənin 15 faizi |

14.5. Muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunanlar üzrə məcburi dövlət sosial sığorta haqqı aşağıdakı dərəcələrlə ödənilir:

14.5.1. sahibkarlıq fəaliyyəti üzrə - minimum aylıq əməkhaqqının tikinti və ticarət sahələrində 50 faizi, digər sahələrdə 25 faizi miqdarında;

14.5.2. mülki hüquqi xarakterli müqavilələrlə işləyənlər (fərdi sahibkarlar istisna olmaqla) üzrə ödəmə mənbəyindən tutulmaqla - gəlirlərinin 25 faizi miqdarında;

14.5.3. xüsusi notariuslar üzrə - minimum aylıq əməkhaqqının on mislinin 25 faizi miqdarında;

14.5.4. müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslər üçün ödəmə mənbəyindən tutulmaqla - hesablanmış qonorar məbləğinin 15 faizi miqdarında;

14.5.5. vəkillər kollegiyasının üzvləri, sərbəst auditorlar, sərbəst mühasiblər - gəlirlərinin 20 faizi miqdarında;

14.5.6. mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqı ödəyənlər istisna olmaqla) və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli (I və II qrup əlillər, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar istisna olmaqla, 15 yaşından “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər) ailə üzvlərinin hər biri üçün (alınan əmlak və torpaq payı hesabına şəxsi yardımçı və digər təsərrüfatlar daxil olmaqla) minimum aylıq əməkhaqqının 6 faizi miqdarında.

14.6. Məcburi dövlət sosial sığorta haqqı hər ay üçün hesablanır, əməkhaqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə yalnız nağdsız hesablaşma qaydasında ödənilir.

14.7. Bu qanunun məqsədləri üçün neft-qaz sahəsində fəaliyyətin və qeyri-dövlət sektorunun meyarları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.”;

**1.9.** 15-ci maddənin birinci hissəsi üzrə:

**1.9.1.** dördüncü abzasa “işçilərin” sözündən əvvəl “müəssisənin ləğvi,” sözləri əlavə edilsin;

**1.9.2.** on birinci abzasa “üzrə sığortaedənin Azərbaycan Respublikasının sığortaçılarına ödədikləri sığorta haqları, həyatın yığım sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra sığortalıya” sözləri “və pensiya sığortası üzrə sığortaedənin sığortaolunanın gəlirlərinin 50 faizindən çox olmayan hissəsindən Azərbaycan Respublikasının sığortaçılarına ödənilən sığorta haqları, həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra sığorta olunana və faydalanan şəxsə” sözləri ilə əvəz edilsin;

**1.9.3.** on ikinci abzasa “məbləği” sözündən sonra “, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində əldə edilən uduşlar” sözləri əlavə edilsin;

**1.9.4.** on səkkizinci abzasa “vəsait hesabına” sözlərindən sonra “əcnəbilər üzrə” sözləri əlavə edilsin;

**1.9.5.** iyirmi birinci abzas ləğv edilsin;

**1.9.6.** iyirmi ikinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda iyirmi üçüncü və iyirmi dördündü abzas əlavə edilsin:

“müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ödənilən maddi yardım (dəstək);

sığortaedənin işçilərinin yeməklə təmin edilməsi ilə bağlı üçüncü tərəfə ödədiyi vəsait.”;

**1.10.** 18-ci maddə üzrə:

**1.10.1.** birinci hissəyə “idarəetməni” sözündən sonra “(məcburi dövlət sosial sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət üzrə fəaliyyət istisna olmaqla)” sözləri əlavə edilsin;

**1.10.2.** birinci hissənin dördüncü, beşinci, yeddinci - onuncu abzasları ləğv edilsin.

**1.10.3.** birinci hissənin altıncı abzasında “qəbul edir” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) əldə edir” sözləri ilə əvəz edilsin;

**1.10.4.** aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Məcburi dövlət sosial sığorta haqlarının hesablanmasına və ödənilməsinə münasibətdə məcburi dövlət sosial sığortası sahəsində idarəetməni müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.”.

**1.11.** 19-cu maddəyə “ödəmələrinin” sözündən sonra “, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanma xərclərinin” sözləri əlavə edilsin, həmin maddənin mətni 19.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 19.2-ci maddə əlavə edilsin:

“19.2. İlin sonuna məcburi dövlət sosial sığortasının vəsaitlərinin vahid fondda istifadə olunmamış qalığı növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.”;

**1.12.** 20-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

“Bu qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi orqanları tərəfindən tətbiq edilən maliyyə sanksiyası məbləğinin 50 faizi və sığortaedənlərin məcburi dövlət sosial sığorta haqqının ödənilməsinin gecikdirilməsinə görə hesablanan faiz məbləğinin 30 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.”;

**1.13.** 21-ci maddə ləğv edilsin;

**1.14.** 28-ci maddənin birinci hissəsində “Məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı sosial sığorta haqlarının daxil olması və” sözləri “Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

**1.15.** 29-cu maddəyə “sığortaçı” sözündən sonra “və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri əlavə edilsin.

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu qanunun 1.8-ci maddəsi (“Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 14.5.1-ci maddəsinə münasibətdə) 2020-ci il yanvarın 1-dən qüvvəyə minir və həmin tarixədək “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 14.5.1-ci maddəsində göstərilən fəaliyyət üzrə sosial sığorta haqları həmin qanunun 2019-cu il yanvarın 1-dək qüvvədə olan 14-cü maddəsinə uyğun olaraq ödənilir.

**2.2.** Bu qanun (1.8-ci maddə (“Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 14.5.1-ci maddəsinə münasibətdə) istisna olmaqla) 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1360-VQD nömrəli Qanununun tətbiqi və “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə”Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1360-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 9-1.2-ci maddəsinə uyğun olaraq, artıq ödənilmiş və ya düzgün tutulmamış məcburi dövlət sosial sığorta haqlarının geri qaytarılması qaydasını üç ay müddətində təsdiq etsin;

1.4. həmin qanunun 14.7-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Vergilər Nazirliyinin və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təklifləri əsasında, neft-qaz sahəsində fəaliyyətin və qeyri-dövlət sektorunun meyarlarını, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində müəyyən etsin;

1.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Vergilər Nazirliyi:

2.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla bir ay müddətində:

2.1.1. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin ikinci hissəsinin dördüncü abzasına uyğun olaraq, hesabatın formasını müəyyən etsin;

2.1.2. həmin qanunun 13.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, ərizənin formasını müəyyən etsin;

2.2. həmin qanunun 13.4-cü maddəsinə uyğun olaraq, məcburi dövlət sosial sığortası məqsədilə sığortaedənlərin və sığortaolunanların uçotu qaydasını müəyyən etsin;

2.3. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsin.

4. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 349; 2006, № 7, maddə 587; 2007, № 12, maddə 1226; 2009, № 8, maddə 630; 2016, № 6, maddə 1021, № 9, maddə 1464) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.1. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci maddəsində, 23-cü maddəsinin birinci hissəsində və 24-cü maddəsində nəzərdə tutulmuş “məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;”;

4.2. aşağıdakı məzmunda 2.1-1-ci və 2.1-2-ci bəndlər əlavə edilsin:

“2.1-1. həmin qanunun 8-ci maddəsinin ikinci hissəsində, 13.3-cü maddəsində (ikinci halda) və 28-ci maddəsinin birinci hissəsində “orqan” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

2.1-2. həmin qanunun 19.1-ci maddəsində “orqan” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;”;

4.3. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. həmin qanunun 9-1.2-ci və 14.7-ci maddələrində “orqan” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

4.4. 2.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“2.3. həmin qanunun 9-cu maddəsinin birinci hissəsinin ikinci və dördüncü abzaslarında, ikinci hissəsinin beşinci və altıncı abzaslarında, 10-cu maddəsinin dördüncü (hər iki halda) və beşinci abzaslarında, 13.1-ci maddəsində, 13.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 13.3-cü (birinci halda) və 13.4-cü maddələrində, 18-ci maddəsinin birinci hissəsinin altıncı abzasında və ikinci hissəsində, 29-cu maddəsində “orqan” dedikdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi nəzərdə tutulur;”;

4.5. 2.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“2.4. həmin qanunun 8-ci maddəsinin ikinci hissəsində, 9-cu maddəsinin birinci hissəsinin ikinci və dördüncü, ikinci hissəsinin beşinci və altıncı abzaslarında, 9-1.2-ci maddəsində, 10-cu maddəsinin dördüncü (hər iki halda) və beşinci abzaslarında, 12-ci (hər iki halda) və 13.1-ci maddələrində, 13.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 13.3-cü (hər iki halda), 13.4-cü, 14.7-ci maddələrində, 15-ci maddəsinin iyirmi üçüncü abzasında, 18-ci maddəsinin birinci hissəsinin altıncı abzasında və ikinci hissəsində, 19.1-ci maddəsində, 20-ci maddəsinin ikinci hissəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 28-ci maddəsinin birinci hissəsində və 29-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;”;

4.6. aşağıdakı məzmunda 2.4-1- 2.4-4-cü bəndlər əlavə edilsin:

“2.4-1. həmin qanunun 20-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində “orqan” dedikdə vəsaitin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçilərinə və vergi orqanlarının işçilərinə münasibətdə) nəzərdə tutulur;

2.4-2. həmin qanunun 20-ci maddəsinin birinci cümləsində (ikinci halda) “orqan” dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

2.4-3. həmin qanunun 20-ci maddəsinin birinci cümləsində “orqanın maddi-texniki bazası” dedikdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin maddi-texniki bazaları nəzərdə tutulur;

2.4-4. həmin qanunun 20-ci maddəsinin birinci cümləsində “orqanın işçiləri” dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçiləri və vergi orqanlarının işçiləri nəzərdə tutulur;”;

4.7. 2.5-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

“2.6. həmin qanunun 15-ci maddəsinin iyirmi üçüncü abzasında “qurum” dedikdə Mənəvi Dəyərlərin Təbliği Fondu nəzərdə tutulur.”;

4.8. 3-cü hissə ləğv edilsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

6. Bu fərman 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 dekabr 2018-ci il*

## "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084; 2006, № 12, maddə 1031; 2008, № 6, maddə 462; 2011, № 7, maddə 592; 2014, № 12, maddə 1516; 2016, № 4, maddə 643) 4.3-cü maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu mübahisələr dövlət və bələdiyyə əmlakının istifadəyə, icarəyə və mülkiyyətə verilməsi ilə əlaqədar olduqda, qəbul edilmiş inzibati aktlar həmçinin birbaşa məhkəmələrdə mübahisələndirilə bilər.".

**Maddə 2.** Bu qanunun 1-ci maddəsi həmin qanun qüvvəyə mindikdən sonra qəbul edilmiş inzibati aktlarla bağlı yaranan münasibətlərə şamil edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1302-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1302-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli qanunu ilə təsdiq edilmişdir*

## "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə 2019-cu il avqust ayının 18-dək müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmət keçən, xidməti vəzifələrinin icrasında uğur qazanmış zabitlər, gizirlər, miçmanlar və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, habelə sərhəd mühafizə orqanlarının qurulmasında və möhkəmləndirilməsində fəal iştirak etmiş, ehtiyata (istefaya) buraxılmış zabitlər və sərhəd mühafizə orqanlarının inkişafında xüsusi xidmətləri olan digər şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq icra hakimiyyəti orqanı təltif edir.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi (1919-2014)" Azərbaycan Respublikasının yubiley medalından sonra taxılır.

## "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1218-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 88; 2001, № 11, maddələr 669, 676; 2002, № 1, maddə 2, № 5, maddələr 237, 243; 2006, № 6, maddə 478; 2007, № 8, maddə 756, № 12, maddə 1197; 2008, № 7, maddə 602, № 8, maddə 701; 2009, № 7, maddə 519; 2010, № 3, maddə 171; 2013, № 3, maddə 229, № 5, maddə 470; 2014, № 11, maddə 1336; 2015, № 5, maddə 497; 2016, № 1, maddə 37; 2017, № 1, maddə 29) 11-ci maddəsində "10" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 14; 2001, № 11, maddə 669; 2002, № 5, maddə 237; 2006, № 6, maddə 478; 2007, № 8, maddə 756, № 11, maddə 1075; 2008, № 8, maddə 701, № 10, maddə 886; 2009, № 4, maddə 211, № 7, maddə 519; 2010, № 3, maddə 171; 2013, № 3, maddə 230, № 5, maddə 471, № 11, maddələr 1297, 1310; 2014, № 11, maddə 1342; 2015, № 5, maddə 498; 2017, № 1, maddə 31) ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 18-ci maddəsinin birinci hissəsində "10" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

## "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1370-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1370-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 dekabr 2018-ci il*

## "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12, I kitab, maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1289-VQD nömrəli və 30 oktyabr tarixli 1290-VQD nömrəli qanunları) 2-ci maddəsində "Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi (1919-2014)" yubiley medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" yubiley medalı;".

**Maddə 2.** "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

## "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1392-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1392-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1392-VQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin əsasnamənin 1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti nəzərdə tutulur.

4. "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisinə verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli qanunu ilə təsdiq edilmişdir*

## "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının TƏSVİRİ

**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 38 mm olan, hər tərəfə şüalar saçan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

2.2. Xarici və daxili çevrələr arasındakı yaşıl minalı fonda qövs boyunca yuxarı hissədə "AZƏRBAYCAN" sözü, aşağı hissədə "SƏRHƏD MÜHAFİZƏSİ" sözləri yazılmışdır.

2.3. Yazıların arasında hər birinin diametri 2 mm olan iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

2.4. Daxili çevrənin içərisində doğan günəş fonunda yuxarı hissədə Azərbaycan Respublikasının Dövlət Gerbi, aşağı hissədə palıd yarpaqlarından ibarət çələng, Dövlət Gerbi ilə çələngin arasında "100" rəqəmləri həkk olunmuşdur.

2.5. Bütün yazılar, elementlər və rəqəmlər qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

3.2. Xarici və daxili çevrələr arasında qövs boyunca yuxarı hissədə "AZƏRBAYCAN RESPUBLİKASI", aşağı hissədə "DÖVLƏT SƏRHƏD XİDMƏTİ" sözləri yazılmışdır.

3.3. Yazıların arasında hər birinin diametri 1,8 mm olan iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.4. Daxili çevrənin içərisində yuxarı hissədə səkkizguşəli ulduz, aşağı hissədə sünbül çələngi, çələngin üzərindən səkkizguşəli ulduza doğru üstü Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərində mina ilə örtülmüş sərhəd nişanı həkk olunmuşdur.

3.5. Sərhəd nişanından sol tərəfdə "1919", sağ tərəfdə "2019" rəqəmləri yazılmışdır.

3.6. Bütün yazılar, elementlər və rəqəmlər qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 55 mm x 37 mm ölçülü xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin yuxarı hissəsinə üzərində üfüqi naxışlı iki kontur xətti və onların arasında, mərkəz hissədə sünbül çələngi ilə əhatələnmiş səkkizguşəli ulduz təsvir olunmuş 40 mm x 10 mm ölçülü lövhə, aşağı hissəsinə üzərində üfüqi naxışlı iki kontur xətti təsvir olunmuş 40 mm x 5 mm ölçülü lövhə bərkidilmişdir.

4.3. Naxışlar, səkkizguşəli ulduz və çələng qabarıqdır.

4.4. Xara lentin mərkəzində Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərini əks etdirən və hər birinin eni 3 mm olan 3 şaquli zolaq, mərkəzdən sol və sağ kənarlara doğru, ardıcıl olaraq, 1 mm enində ağ, 7 mm enində qızılı, 1,5 mm enində ağ və 4,5 mm enində yaşıl rəngli şaquli zolaqlar təsvir edilmişdir.

4.5. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

**"Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı**



# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əziz İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz böyük bir nəslin nümayəndəsi və böyük taleli insansınız. Siz Azərbaycan Respublikasının xalqına xidmət etdiyiniz illər ərzində öz ata-babanızın işini davam etdirməyə və Azərbaycan dövlətinin müasir rəhbərinə çevrilməyə qadir olduğunuzu sübut etmiş, zəngin quruculuq təcrübəsi və həmvətənlərimizin etimadını qazanmısınız. Siz dünya səviyyəsində nüfuz sahibisiniz.

Dövlətlərimiz arasında strateji tərəfdaşlıq çərçivəsində Sizin Vladimir Vladimiroviç ilə birlikdə gördüyünüz işlər və Rusiya Federasiyası ilə Azərbaycan Respublikasını bir-birinə bağlayan mehriban qonşuluq, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə Zati-alinizin sanballı şəxsi töhfəsi yüksək qiymətə layiqdir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, mənəvi rahatlıq, firavanlıq, doğmalarınızın və dostlarınızın daimi dəstəyini arzu edirəm. Qoy Heydər Əliyevin böyük xatirəsi və böyük irsi Sizin üçün və bütün Azərbaycan xalqı üçün yolgöstərən ulduz və müqəddəs dəyər olsun.

Sizə və məsləkdaşlarınıza həyat eşqi, məqsədyönlülük, gümrahlıq və müsbət enerji diləyirəm.

*Hörmətlə,*

***Ramazan ABDULATİPOV,***
***Rusiya Federasiyası Prezidentinin Xəzər regionu dövlətləri ilə humanitar və iqtisadi əməkdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin respublikaya rəhbərliyiniz dövründə Azərbaycan özünün çoxəsrlik ənənələrini qoruyub saxlayan və zəngin mədəniyyətini daha da zənginləşdirən dinamik və yüksək inkişaf etmiş ölkə statusunda bərqərar olub. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi işində Sizin xidmətləriniz təqdirəlayiqdir. Ölkələrimizin xalqları Azərbaycan ilə Rusiya arasında hərtərəfli əlaqələrin inkişafına Sizin töhfənizi yüksək qiymətləndirir.

Bu əlamətdar gündə Sizin valideynlərinizi - ananız Zərifə xanımı və Azərbaycan xalqının ümummilli lideri, ölkəni tarixi fəlakətdən xilas etmiş atanız Heydər Əlirza oğlu Əliyevi ehtiramla xatırlayırıq.

Möhtərəm İlham Heydər oğlu, icazə verin, Sizə və Sizin şəxsinizdə bütün qardaş Azərbaycan xalqına sülh və firavanlıq diləyim.

Bütün ailənizə və ilk növbədə Mehriban xanıma ehtiramımı bildirirəm.

*Səmimiyyətlə,*

***Mixail ŞVIDKOY,***
***Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizin zəngin siyasi təcrübəniz müasir dünya məsələlərini effektiv həll etməyə, habelə Rusiya ilə Azərbaycan arasında tarixi dostluğu dəstəkləməyə imkan verir.

Ölkələrimiz arasında bərqərar olmuş mehriban qonşuluq münasibətlərinə Sizin şəxsi töhfənizi xüsusi qeyd etmək istəyirəm. Şübhəsiz ki, bu münasibətlər bundan sonra da Azərbaycan və Rusiya xalqlarının rifahına xidmət edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və məramlarınızı həyata keçirməkdə uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

***Maksim OREŞKİN,***
***Rusiya Federasiyasının iqtisadi inkişaf naziri***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz, dahi atanız - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin layiqli varisi və onun müdrik siyasətinin davamçısı kimi haqlı olaraq öz həmvətənlərinizin səmimi hörmətini, yetərincə təcrübəli və uzaqgörən dövlət xadimi kimi yüksək beynəlxalq nüfuz qazanmısınız.

Siz Azərbaycanın sosial-iqtisadi inkişafı, ölkələrimiz arasında ənənəvi dostluğun, mehriban qonşuluğun və qarşılıqlı faydalı əməkdaşlığın təməlinin möhkəmləndirilməsi üçün misilsiz işlər görürsünüz. Bütün bunlara görə hər cür təşəkkürə və ehtirama layiqsiniz.

Əminəm ki, Sizin zəngin təcrübənizə, nəcib keyfiyyətlərinizə və qeyri-adi qabiliyyətlərinizə vətəninizdə bundan sonra da böyük ehtiyac olacaq. Çünki bu, azərbaycanlıların yaşayış səviyyəsinin və həyat keyfiyyətinin yüksəlməsinə, dünyada Azərbaycanın müsbət obrazının və nüfuzunun daha da möhkəmlənməsinə kömək edir.

Bizim aramızda yaranmış dostluq münasibətlərini, qarşılıqlı anlaşmanı və etimadı yüksək qiymətləndirirəm. Moskvada və Bakıda görüşlərimizi xüsusi səmimiyyətlə xatırlayıram. Bu səmərəli əlaqələri və sıx birgə fəaliyyəti gələcəkdə də davam etdirməyə şad olaram.

Hörmətli İlham Heydər oğlu, Sizə və səmimi ailənizə möhkəm cansağlığı, səadət, əmin-amanlıq və uğurlar, qardaş Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Leonid SLUTSKİ,***
***Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədri***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm Prezident!

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz uzun illərdir ki, rəhbərlik etdiyiniz ölkənin firavanlığının və dinamik inkişafının qayğısına qalan müdrik və istedadlı rəhbər kimi Azərbaycan sakinlərinin rifahı naminə çalışırsınız.

Bakı Pravoslav Kilsəsinin və Bakı-Azərbaycan Yeparxiyasının fəaliyyətini dəstəklədiyinizə və onlara göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı bildirmək istərdim. Ümidvaram ki, bizim əməkdaşlığımız bundan sonra da öz bəhrələrini verəcək, cəmiyyətdə ənənəvi mənəvi-əxlaqi dəyərlərin bərqərar olmasına, Cənubi Qafqaz regionunda, dinlərarası və millətlərarası sülhün möhkəmlənməsinə şərait yaradacaq.

Sizə möhkəm cansağlığı, Tanrıdan kömək və Azərbaycan xalqına xidmət kimi məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***KİRİLL,***
***Moskvanın və bütün Rusiyanın Patriarxı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz öz işgüzar və şəxsi keyfiyyətləriniz, siyasi intuisiyanız, nəzərdə tutulan planlara yaradıcı yanaşmağınız sayəsində haqlı olaraq Azərbaycan Respublikasının bütün vətəndaşlarının dərin hörmətini qazanmısınız.

Qoy, gümrahlıq, enerji və nikbinlik Sizə ən mürəkkəb dövləti məsələlərin həllində kömək etsin, bilikləriniz, qətiyyətiniz və məqsədyönlülüyünüz doğma xalqınızın rifahı naminə səmərəli fəaliyyətiniz üçün etibarlı təməl olsun, respublikanı yeni uğurlara və nailiyyətlərə doğru aparsın.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, tükənməz həyati qüvvə, ailə firavanlığı və gözəl əhvali-ruhiyyə arzu edirəm. Həmməsləklərinizin dəstəyi, dostlarınızın sədaqəti və yaxınlarınızın Sizi düzgün anlaması Sizə kömək etsin və gələcək uğurlarınızın rəhni olsun.

*Dərin hörmətlə,*

***Əlişir USMANOV,***
***Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi, Rusiya Müftilər Şurası adından və şəxsən öz adımdan ürəkdən təbrik edir, Qadir Allaha dua edərək Sizə uzun ömür, möhkəm cansağlığı və xeyirxah təşəbbüslərinizdə Tanrının yardımını diləyirəm.

Sizin ölçülüb-biçilmiş siyasətiniz, Azərbaycan Respublikasının konstitusion əsaslarının qorunub saxlanmasında və bərqərar olmasında prinsipial mövqeyiniz sayəsində ölkəniz mənəvi, intellektual və iqtisadi inkişaf yolunda inamla irəliləyir.

Hörmətli İlham Heydər oğlu, mən Qadir Allahdan Sizə və Azərbaycandan olan bütün qardaşlarımıza əmin-amanlıq və rifah diləyirəm.

*Amin.*

*Hörmətlə və xoş dualarla,*

***Müfti şeyx Ravil QAYNUTDİN,***
***Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin və Rusiya Müftilər Şurasının sədri, Rusiya Federasiyası Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə "Mir" Dövlətlərarası Teleradio Şirkəti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul edin.

İcazə verin, Sizə tükənməz enerji, möhkəm cansağlığı, firavanlıq və Azərbaycan Respublikasının inkişafı naminə bundan sonra da səmərəli fəaliyyət arzulayım.

Sizi əmin edirik ki, "Mir" Teleradio Şirkəti Azərbaycan Respublikasında baş verən yenilikləri və gündəlik həyatı bundan sonra da obyektiv və geniş işıqlandıracaq.

*Ən xoş arzularla,*

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu!

Doğum gününüz mübarək!

Bu əlamətdar gündə Sizə dostluğa və xeyirxah ənənələrə sədaqətinizə görə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Belə ənənələrdən biri də günə "Komsomolskaya Pravda" ilə birlikdə başlamaqdır.

Sizə ən səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, hər bir işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***Vladimir SUNQORKİN,***
***"Komsomolskaya Pravda" qəzetinin baş redaktoru***

# Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

Dekabrın 27-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"na uyğun olaraq Nazirlər Kabinetinin növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə iki məsələ - "Azərbaycan Respublikasının 2019-2024-cü illər üzrə kibertəhlükəsizlik strategiyası"nın layihəsinin müzakirəsi" və "İctimai əhəmiyyətli qurumlarda Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiqi vəziyyəti barədə hesabat" daxil edilib.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir Azərbaycan dövlətinin təməl dayaqlarının son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan praqmatik siyasət sayəsində daha da möhkəmləndirildiyini vurğulayan Baş nazir Novruz Məmmədov ötən müddətdə ölkəmizin böyük inkişaf yolu keçdiyini qeyd edib. Baş nazir ölkə rəhbərinin müəyyən etdiyi strateji xəttə əsaslanaraq dayanıqlı inkişafın təmin olunması məqsədilə adekvat addımların atıldığını, kompleks islahatların həyata keçirilməsi ilə makroiqtisadi sabitliyə nail olunduğunu, biznes və investisiya mühitinin xeyli yaxşılaşdırıldığını, sahibkarlığın inkişaf etdiyini, qeyri-neft ixracının artdığını xatırladıb. Bütün bu uğurların əhalinin sosial rifahının yaxşılaşmasına təsir göstərdiyini diqqətə çatdıran Baş nazir Novruz Məmmədov regionun ən inkişaf etmiş ölkəsi olan Azərbaycanda yeni iqtisadi şəraitə uyğun həyata keçirilən rasional siyasətin, sistemli tədbirlərin qlobal risklərin neytrallaşdırılmasına imkan yaratdığını bildirib.

Qarşıdan gələn yeni ildə də ölkəmizdə sosial proqramların icrasının uğurla davam etdiriləcəyinə əminliyini bildirən Baş nazir müasir çağırışlara cavab verən layihələr üzərində işlərin daha da intensivləşdirilməsinin, xüsusən müzakirəyə çıxarılan kibertəhlükəsizlik strategiyasının beynəlxalq standartlara uyğun hazırlanmasının vacibliyini vurğulayıb. Novruz Məmmədov deyib ki, müasir dünya üçün ciddi təhdid olan kibercinayətkarlığın artması, BMT-nin hesabatına əsasən hər il 1.5 milyondan çox insanın internet vasitəsilə edilən cinayətlərin qurbanı olması faktı dövlət idarəçiliyi, bank, nəqliyyat, milli təhlükəsizlik və digər sistemlərin təkmilləşdirilməsini, kibermüdafiə tədbirlərinin genişləndirilməsini zəruri edir.

Sonra gündəlikdə duran məsələlərə dair nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadənin və maliyyə naziri Samir Şərifovun məruzələri dinlənilib.

Hər iki məsələ ətrafında müzakirələrdə müdafiə naziri Zakir Həsənov, Mərkəzi Bankın sədri Elman Rüstəmov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev, Maliyyə Bazarlarına Nəzarət Palatası İdarə Heyətinin sədri vəzifəsini icra edən İbrahim Alışov və başqaları çıxış ediblər.

Geniş fikir mübadiləsindən sonra qərara alınıb ki, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadənin mövzu ilə bağlı məruzəsi nəzərə alınmaqla, "Azərbaycan Respublikasının 2019-2024-cü illər üzrə kibertəhlükəsizlik Strategiyası"nın razılaşdırılmış layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilməsi üçün təqdim olunsun.

İkinci məsələ üzrə isə qərara alınıb ki, maliyyə naziri Samir Şərifovun hesabat məruzəsi nəzərə alınmaqla, Maliyyə Nazirliyi və Maliyyə Bazarlarına Nəzarət Palatası aidiyyəti təşkilatlarla birgə hesabatdan irəli gələn məsələlərlə bağlı zəruri tapşırıqları özündə əks etdirən Azərbaycan Respublikası Nazirlər Kabineti sərəncamının layihəsi hazırlansın.

İclasa yekun vuran Baş nazir Novruz Məmmədov tapşırıqların icrası ilə bağlı aidiyyəti qurumların rəhbərlərinə müvafiq göstərişlər verib, qarşıdan gələn əlamətdar bayramlar - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə səmimi təbriklərini və xoş arzularını çatdırıb.

# Müdafiə Nazirliyinin tabeliyində olan təşkilatlarda 2018-ci ilin yekunlarına dair toplantılar keçirilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən qoşun növləri və qisimlərində, nazirliyin baş idarə, idarə və xidmətlərində, birlik və birləşmələrdə, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində 2018-ci ilin yekunlarına dair toplantılar keçirilib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlərdə məruzə edənlər il ərzində görülən işlərdən, qazanılan uğurlardan və 2019-cu ildə qarşıda duran vəzifələrdən danışıblar.

Sonda müdafiə nazirinin müvafiq əmrləri ilə 2018-ci ildə döyüş hazırlığının yekunlarına görə xidmətdə fərqlənən hərbi qulluqçulara fəxri fərmanlar, qiymətli hədiyyələr və digər mükafatlar təqdim olunub.





# Bakı Dövlət Universitetində Dünya Azərbaycanlılarının Həmrəylik Günü qeyd olunub






Bakı Dövlət Universitetində (BDU) 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin universitetin foyesində qoyulmuş büstü önünə gül dəstələri düzüblər.



AZƏRTAC xəbər verir ki, BDU-nun rektoru vəzifəsini icra edən Firudin Qurbanov tədbir iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıb. F.Qurbanov bu əlamətdar tarixin qeyd olunmasında ümummilli lider Heydər Əliyevin xidmətlərindən danışaraq bildirib ki, ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycan Respublikası dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçısı olduğunu bəyan edib, xaricdə yaşayan azərbaycanlılarla məqsədyönlü iş aparılmağa başlanılıb. "Tariximizin müasir mərhələsində azərbaycanlıların həmrəyliyini müstəqil dövlətin quruculuğu ilə əlaqələndirmək tələb olunurdu. SSRİ dağıldıqdan sonra müstəqillik qazanan ölkələr müxtəlif yollarla sosial birliyi, həmrəyliyi təmin etdilər. Təcrübə göstərdi ki, Azərbaycan ən uğurlu yolu seçib. Ulu öndər Heydər Əliyevin səyləri nəticəsində azərbaycanlıların həmrəyliyi təmin olundu", - deyə F.Qurbanov bildirib.

F.Qurbanov BDU-nun 100 illik yubileyi ilə bağlı bir sıra tədbirlərin keçiriləcəyini də qeyd edib. O, birlik və həmrəylik sayəsində xalqımızın daha böyük qələbələrə nail olacağına əminliyini bildirib.

Daha sonra Milli Məclis Sədrinin birinci müavini, professor Ziyafət Əsgərov Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixi əhəmiyyətindən, xarici ölkələrdə yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşmələrindən və bununla bağlı uğurlu dövlət siyasətindən danışıb. Ölkəmizdə son 15 ildə böyük inkişaf və tərəqqinin baş verdiyini, Azərbaycanın dünyada nüfuzunun getdikcə yüksəldiyini bildirən Z.Əsgərov bütün bu nailiyyətlərin Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi nəticəsində əldə olunduğunu bildirib.

Tarix fakültəsinin dekanı, dosent Azad Rzayev isə bu əlamətdar bayramın dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsində xüsusi roluna diqqət çəkib.

Sonda Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar hazırlanmış filmin nümayişi olub və tədbir BDU-nun özfəaliyyət kollektivinin təqdimatında bədii hissə ilə yekunlaşıb.

# Azərbaycan Prezidentinin 15 illik fəaliyyətinə işıq salan dəyərli nəşr

Bu günlərdə çapdan çıxmış "İlham Əliyev - On beş illik prezidentlik dövrünün uğur salnaməsi (2003-2018)" kitabı elmi ictimaiyyətin böyük marağına səbəb olub. AZƏRTAC filologiya elmləri doktoru, professor Cahangir Məmmədlinin kitabla bağlı qeydlərini təqdim edir.




Qarşımızda təzəcə nəşr olunan bir kitab var: "İlham Əliyev - On beş illik prezidentlik dövrünün uğur salnaməsi (2003-2018)". Tipoloji xarakterinə görə fotoalbom formatında buraxılan kitabın məzmunu barədə qısa, lakonik informasiyanı onun bir neçə sətirlik anonsundan almaq olur: "Kitabda zəngin faktlar əsasında İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi on beş illik fəaliyyəti dövründə ölkənin dinamik inkişafının dolğun mənzərəsi yaradılır. Azərbaycanda aparılan köklü islahatlar sayəsində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, nəhəng transmilli enerji və nəqliyyat layihələrinin uğurla reallaşdırılması, sosial-mədəni, ordu quruculuğu və xarici siyasət sahəsində əldə edilən nailiyyətlər tutarlı dəlillərlə əsaslandırılır. Ölkədə ictimai-siyasi sabitliyin və demokratik təsisatların daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin olunması ilə bağlı görülən işlər şərh olunur.

Kitab Azərbaycanın müasir tarixi ilə maraqlanan mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur".

Əslində, anonsun son cümləsindəki "geniş oxucu kütləsi" ifadəsini "Azərbaycanı sevən hər kəs" sözləri ilə də əvəz etmək olar. Çünki bu kitab İlham Əliyevin on beş illik prezidentlik dövrünün uğur salnaməsi kimi həm də Azərbaycanın keçdiyi inkişaf mərhələsinin elmi-publisistik ifadəsidir. Həm Azərbaycanın, həm də onun Prezidentinin uğur salnaməsi, kitabda qeyd olunduğu kimi, öz başlanğıcını ümummilli liderimiz Heydər Əliyevin 2003-cü ildə prezidentliyə namizədliyi irəli sürülmüş İlham Əliyev haqqındakı bu sözlərindən başlayır: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Heydər Əliyevin uzaqgörənlik təfəkkürü ilə xalqa müraciətlə dediyi bu fikirlər fonunda İlham Əliyev bir müddət sonra onun rəhbərliyi altında sürətlə inkişaf edən Azərbaycanın uğurlarını nəzərdə tutaraq deyirdi: "O, (Heydər Əliyev - C.M.) inanırdı və bilirdi ki, davamçıları onun sona çatdıra bilmədiyi işləri tamamlayacaqlar. Belə də oldu... Biz fəxr edirik ki, onun ideyalarını yaşadırıq, müstəqilliyimizi möhkəmləndiririk, Heydər Əliyev yolu ilə gedirik və gedəcəyik".

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu, tərtibçi müəllifləri Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri Aslan Aslanov olan bu dəyərli nəşrin ümumi ruhu Heydər Əliyev inamının gerçəkləşməsi üzərində qurulub. Burada hər kəsin anlayacağı, hər kəsin son on beş ildə şahidlik etdiyi, hər kəsin Azərbaycan və onun inkişafından qürur duyduğu mükəmməl bir süjet xətti var. Azərbaycan vətəndaşının öz ölkəsinin uğurlarına və bu uğurlara başçılıq edən Prezidentinə inamını professor Əli Həsənovun qısa "Ön söz"ü aydın ifadə edir. Müəllif Prezident İlham Əliyevin dövlətçilik tariximizin iftixar nöqtəsi olan Azərbaycan Xalq Cümhuriyyətinə verdiyi qiyməti onun özündən gətirdiyi sitatla diqqətə çatdırır: "Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində ilk demokratik respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha göstərir ki, azərbaycanlılar azadlıqsevər və mütərəqqi xalqdır".

Kitabın əsas süjet xətti Prezident İlham Əliyevin dövlətçilik siyasətinin iki mühüm amilinə - milli dövlətçilik, müstəqillik uğrunda mübarizə tarixinə və dövlətçiliyimizin inkişafında misilsiz rol oynamış Heydər Əliyev məktəbinə əsaslanır. Bu da öz növbəsində, Prezident və xalqın birliyi konsepsiyasına söykənməkdədir. Bütün bunları nəzərdə tutan professor Əli Həsənov "Ön söz"də kitabın qayəsini belə səciyyələndirir: "Ümummilli liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən Azərbaycan xalqı 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə Prezident seçdi. İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti, seçkiqabağı təşviqat dövründə səsləndirdiyi "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" vədinə sadiq qalması qısa müddətdə ona xalq arasında geniş populyarlıq, sonsuz inam və güclü etibar qazandırdı. Elə bu səbəbdən 2008, 2013 və 2018-ci illərdə keçirilən növbəti prezident seçkilərində İlham Əliyev yenidən inamlı qələbə qazandı. Oktyabrın 15-də Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 15 ili tamam oldu. Bu kitabda Azərbaycan Respublikasının Prezidenti vəzifəsində onun 15 illik fəaliyyətinin əsas yekunlarını oxuculara çatdırırıq".

Yuxarıda kitabın qarşıya qoyduğu mövzunun maraqlı bir süjet xətti üzərində qurulduğunu xüsusi qeyd etdik. Bu süjet xətti ayrı-ayrı mövzular üzrə təqdim olunur. Ümumi süjet xətti o qədər axıcıdır ki, mövzuları xüsusi fərqləndirməyə və işarələməyə ehtiyac qalmır. Oxucu kitabın hər səhifəsində özünün şəxsən şahidi olduğu milli inkişafın, Azərbaycanın uğurlarının həm mətnlə, həm də illüstrasiyalarla - fotoşəkillərlə aydın görməkdədir. Bununla belə, oxucunun ayrı-ayrı bölmələr kimi qəbul etdiyi mövzuları bir daha diqqətə çatdırmaq istərdik: "Uğurlu strateji kursun və səmərəli dövlət idarəçiliyinin əsas nəticələri", "Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilib", "Yeni Azərbaycan Partiyasının VI qurultayı. 08 fevral 2018-ci il", "Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə MDB məkanında birinci yerə yüksəlib", "Azərbaycanda həyata keçirilən nəhəng transmilli layihələr ölkəni mühüm tranzit və logistika mərkəzinə çevirib", "Yenilənmiş sosial-mədəni, təsərrüfat və turizm infrastrukturu, Azərbaycan brendi "ASAN xidmət", "Şəhid ailələrinə, müharibə veteranları və əlillərinə, məcburi köçkünlərə diqqət və qayğı", "Ordu quruculuğunun və milli maraqlara söykənən xarici siyasətin uğurlu nəticələri", "Azərbaycanda elmin inkişafı, milli-mənəvi dəyərlərin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanılması təmin edilib", "Gəncliyin inkişafına dövlət qayğısı, idman sahəsində əldə olunan nailiyyətlər", "Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayıb", "Prezident İlham Əliyevin təltif olunduğu ordenlər". Kitabda fundamental idarəçilik və onun ölkəyə bəxş etdiyi uğurlar iki formatda ifadə edilir: mətnlə və bu mətni müşayiət edən fotolarla.

Kitabın mətni öz aydınlığı, məntiqi ardıcıllığı, faktlara elmi-fəlsəfi və publisistik baxışı ilə diqqəti xüsusi cəlb edir. Məsələn, "Uğurlu strateji kursun və səmərəli dövlət idarəçiliyinin əsas nəticələri" kimi fundamental bir mövzu yüksək ümumiləşdirmə keyfiyyətinə malikdir və oxucu bir neçə səhifədə 15 illik dövrün hərtərəfli mənzərəsini görə bilir. Bu mətnin ilk abzası, sanki sonrakı mövzulara prelüdiya rolunu oynayır və oxucunu inkişafın ümumiləşdirilmiş parametrləri ilə tanış edir: "Ümumi formada qiymətləndirilərsə, qeyd edilməlidir ki, İlham Əliyev 15 illik prezidentliyi dövründə, ilk növbədə, ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlətmiş, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin etmiş, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olmuşdur. Hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli birlik və vətəndaş həmrəyliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır".

Sonrakı ayrı-ayrı mövzuları əhatə edən mətnlərin hamısında milli inkişafımızda Prezident İlham Əliyevin xidmətləri xalqın yaddaşında iz salmış faktlarla təqdim olunur. Azərbaycanda demokratiyanın tam formalaşması prosesində medianın rolunu yüksək qiymətləndirən ölkə başçısının bu sahənin inkişafına göstərdiyi şəxsi qayğısı, iqtisadiyyatın dinamik inkişafına, qeyri-neft sektorunun, kənd təsərrüfatının dirçəldilməsinə istiqamətlənmiş fəaliyyəti, bu gün dünyanın təqdir etdiyi və bəzən hətta heyran qaldığı transmilli layihələrin reallaşma sürəti, ölkə əhalisinin sosial-mədəni həyatının yüksək göstəricilərlə təmin edilməsi, ordu quruculuğundakı misilsiz uğurlar, torpaqlarımızın işğaldan azad edilməsinə yönələn tədbirlər planı, şəhid ailələrinə, müharibə veteranlarına dövlət qayğısı və digər bu kimi mühüm sahələri əks etdirən hər bir istiqamətlə bağlı mətnlər İlham Əliyevin 15 illik prezidentlik dövrünün ən böyük uğurları kimi oxucuya çatdırılır.

Əlbəttə, müasir KİV sisteminin, informasiya texnologiyasının görünməmiş inqilabi inkişafı nəticəsində Azərbaycan Prezidenti İlham Əliyevin xidmətləri hər gün cəmiyyətə çatdırılır. Televiziyanın müasir vizuallıq imkanları bu xidməti maraqlı görüntülərlə tamaşaçıya təqdim edir. Milli mətbuatımız bu xidmətin bütün parametrlərini analitik publisistika ilə qələmə alır. Lakin səmimiyyətlə etiraf edək ki, kitabın bu sahədəki rolunu heç nə ilə əvəz etmək olmur. Bir tərəfdən, əgər kitab ilk dəfə səmadan gəlibsə, səmavi kitablar Allahın yer üzünə, xilqətə bəxş etdiyi bir nemət kimi müqəddəsdirsə, onda elə "kitab" sözünün özü də müqəddəslik semantikasını ehtiva edir. Digər tərəfdən, min illərdən bəri qorunub saxlanan və bu gün müqəddəsliyi ilə hər kəsin karına gələn kitab bütün informasiya vasitələrindən uzunömürlüdür. Məsələyə bu baxımdan yanaşsaq, "İlham Əliyev - On beş illik prezidentlik dövrünün uğur salnaməsi (2003-2018)" kitabı nəinki bugünkü nəsil üçün, bəlkə daha çox gələcək nəsillərə bir hədiyyədir. Müəlliflər kitabın adındakı "salnamə" sözünü nahaqdan işlətməyiblər. Salnamə bir kitab formatı, reallıqları qeydə alıb gələcəyə aparan qədim əlyazma formatı kimi özü də tarixi yaddaş anlamına gəlir. Haqqında söz açdığımız kitab, yuxarıda da qeyd etdiyimiz kimi, həm də reallığı dəqiq əks etdirən fotoşəkillərlə zəngindir. Bu fotolar İlham Əliyevin Prezident kimi fəaliyyətinin vizual görüntüləridir. Tərtibçi müəlliflər onları mətnə uyğun o qədər dəqiq seçiblər ki, mətn və foto sinxronu müasirliyin heyrətamiz faktı kimi diqqəti cəlb edir. Bu fotoşəkillər İlham Əliyevin ölkə daxilində və ölkə xaricindəki görüşlərinin dolğun ifadəsi kimi 15 illik prezidentlik dövrünün "uğur salnaməsi"ni tamamlayır. Bu fotoşəkillər Azərbaycanımızın, Bakımızın, regionlarımızın inkişafını poliqrafik yolla əbədiləşdirən vizual faktlar kimi qiymətlidir.

Kitab bütün parametrləri, o cümlədən poliqrafik icrası ilə diqqət çəkir. "Zərdabi LTD" MMC nəşriyyatının məhsulu olan bu kitab özü-özlüyündə həm də ölkəmizdə poliqrafiyanın nə dərəcədə inkişaf etdiyinə əyani sübutdur. Nəşrin poliqrafik icrasının özündə də Azərbaycana və onun Prezidentinə böyük sevgi və ehtiram duyulur.

Sonda kitabın daha bir keyfiyyətini qeyd etmək istərdik: "İlham Əliyev - On beş illik prezidentlik dövrünün uğur salnaməsi (2003-2018)" kitabı hələlik iki dildə - Azərbaycan və rus dillərində nəşr olunub. Kitabın ingilis və ərəb dillərində də nəşri hazırlanır. Bu, çox vacib bir faktdır. Çünki İlham Əliyevin Prezident kimi fəaliyyət göstərdiyi on beş ildə Azərbaycan dünya arenasında öz yerini daha da möhkəmləndirib və tanınıb. Bu kitab dünyanın bizim Prezidentimizin xalq üçün, Vətən üçün göstərdiyi xidmətlərlə daha yaxından tanış olması üçün çox dəyərli mənbədir.

## *Teleaparıcı Evelina Zakamskaya:*
# "İlham Əliyev gələcəyə inamla baxır"

"Rossiya 24" kanalında "Mneniye" proqramının müəllifi və aparıcısı Evelina Zakamskaya "Moskva-Bakı" portalının müxbirinə Azərbaycan Prezidenti İlham Əliyevlə söhbətindən, onun ailəsi ilə çoxillik dostluğundan və Yeni il ərəfəsində Bakının gözəlliyindən bəhs edib. Xatırladaq ki, Bakıda dünyaya gələn Evelina Azərbaycan paytaxtını həmişə səmimi sözlərlə xatırlayır.




**- Siz Azərbaycan Prezidentindən beşinci dəfə müsahibə aldınız. Söhbətiniz necə keçdi? İlham Əliyev sizin ilk görüşünüzdən sonra dəyişibmi?**

- Budəfəki görüşümüzün əvvəlində Prezident qeyd etdi ki, biz artıq on ildir tanışıq. Mən ondan ilk müsahibəni məhz 2009-cu ildə götürmüşdüm. Mənə çox xoş idi ki, İlham Heydər oğlu buna diqqət yetirdi (gülümsəyir). Həm zahirən, həm də ünsiyyət baxımından o, heç dəyişməyib. O, həmişə müsahibəyə ciddi və işgüzar tərzdə yanaşır. Axı, bu müsahibə bütöv bir ölkənin taleyüklü məsələləri və onun dünya arenasında mövqeyi ilə bağlıdır.

**- Kadr arxasında nədən söhbət etdiniz?**

- Deməliyəm ki, çəkilişin başa çatmasından sonra İlham Heydər oğlu yerindən qalxmağa tələsmir və biz sadəcə şəxsi və mücərrəd mövzular ətrafında söhbət edirik. Ailə, əhvali-ruhiyyə, Bakının havası haqqında...

**- İlham Heydər oğlu sizə öz ailəsindən bəhs etdi?**

- Bir az. Onun ümumi əhvali-ruhiyyəsindən söz düşdükdə, mənə aydın oldu ki, dövlət başçısı kimi şəxsi və ictimai məsələlər onun üçün bir vəhdət təşkil edir. Ölkədə baş verənlər onun şəxsi həyatında da təzahürünü tapır. Bu dəfə mənə elə gəldi ki, Prezident çox sakit və özünəinamlıdır. Onda gələcəyə inam var və əmindir ki, bu gün Azərbaycanda bütün işlər düzgün istiqamətdə davam edir. Dövlət başçısı bir an belə tərəddüd etmirsə, bu, həmin ölkənin bütün vətəndaşları üçün çox mühüm əlamətdir.

**- Siz Prezidentin ailəsi ilə tanışsınız?**

- Mən birinci xanım Mehriban Əliyeva ilə tanışam. Mənə, həmçinin ondan iki dəfə müsahibə almaq nəsib olub. Tədbirlərin birində Prezidentin qızı Leyla xanımla da tanış olmuşam. Əliyevlər ailəsinin bütün üzvləri ictimai fəaliyyətlə məşğul olmaq istedadına malikdirlər və onlar bu işin öhdəsindən layiqincə gəlirlər.

**- Rusiya-Azərbaycan münasibətlərində hansı yeniliklərdən danışdınız?**

- Bilirsiniz, belə məqamlarda deyirlər ki, radikal xəbərlərin olmaması yaxşı əlamət sayılır (gülümsəyir). Dünyanın dəyişən informasiya və siyasi mənzərəsinə rəğmən ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişafından danışdıq. Prezidentlərimiz arasında etimad qorunub saxlanılır. Axı, dünyanın taleyi real şəxsiyyətlərin əlindədir! İnsanların bir-birinə inamının güclənərək siyasi etimada çevrilməsi çox vacibdir. Biz Rusiya ilə Azərbaycan arasında inteqrasiyadan və iqtisadi proseslərdən, turizm istiqamətində əməkdaşlıqdan danışdıq. Axı, Bakıya turist axınının böyük bir hissəsini məhz Rusiyadan gələnlər təşkil edirlər...

**- Bunun kökündə ölkələrimiz arasında tarixi əlaqələr dayanır....**

- Bəli, lakin təkcə onlar deyil... Ən başlıca aspekt, Prezidentin də söylədiyi kimi, ölkələrimiz arasında dil əngəlinin olmamasıdır. Bu gün Azərbaycanda rus dilinin mövqelərinin qorunub saxlanılmasına çox böyük diqqət yetirilir. Bu, bir bakılı kimi məni sevindirməyə bilməz! Əlbəttə, bu amil əlaqələrimizi də möhkəmləndirir. Dünyanın ən geniş yayılmış dillərindən biri və beynəlxalq ünsiyyət vasitəsi olan rus dilini bilmək təhsil, mədəniyyət və elm məkanını genişləndirməyə imkan verir.

**- Prezident Azərbaycanda ilin yekunlarından ətraflı bəhs edib...**

- Yəqin ki, bu il əldə olunan ən əsas nəticələrdən biri Azərbaycan iqtisadiyyatının neft amilindən asılılığının ardıcıl şəkildə azaldılması və onun şaxələndirilməsidir. O, müəyyən nəticələrin əldə olunduğu və real addımların atıldığı bir sıra inkişaf edən sahələri ayrıca qeyd etdi. Azərbaycan bir neçə il əvvəl seçdiyi yolla irəliləməkdə davam edir və seçilmiş bu xəttə sadiqdir. Bu gün dünya neft bazarında baş verən hadisələr göstərir ki, bu, doğru seçimdir. Qeyri-neft sektorunun inkişafı sahəsində, xüsusən kiçik və orta sahibkarlığın dəstəklənməsində ölkənin diqqəti yenidən Rusiya və Avrasiya İqtisadi Birliyi ilə əməkdaşlıq məkanına yönəlib.

**- Prezidentlə müsahibələrinizin birində şaftalı rəngində don seçmişdiniz. Bu dəfə isə daha açıq rəngli geyimdə idiniz. Siz daha ciddi görünmək istəyirdiniz?**

- Yox, hər şey çox sadədir. Bu mənim saçdüzümüm ilə bağlıdır, o vaxtlar saçlarım uzun idi və həmin rəng onlara yumşaq və romantik çalar qatırdı. Həmin müsahibə 9 may ərəfəsində, bahar fəslində və ona uyğun əhvali-ruhiyyədə götürülmüşdü. İndi saçlarım qısadır - ənənəvi kare saçdüzümü. Yeri gəlmişkən, Prezident də buna diqqət yetirdi və dedi ki, məni ilk dəfə gördüyündə də saçdüzümüm belə idi. Geyim tərzim qış mövsümü və buna uyğun əhvali-ruhiyyə ilə əlaqədardır. Hər halda, komplimentlər keçən dəfəkindən az olmadı. Çox xoşdur ki, Azərbaycanda qadınların xoşuna gələcək komplimentlər söyləyən nəzakətli kişilərə həmişə rast gəlmək olur.

**- Siz Bakıdan bu günlərdə qayıtmısınız. Orada bayramqabağı ab-hava necədir? Paytaxtda gəzintiyə çıxdınızmı?**

- Bu səfər bizim çəkiliş qrupu üçün xüsusi səmimi şəraitdə keçdi. Azərbaycanda həmişə bizi çox səmimi qarşılayırlar. Bu, artıq ənənə halını alıb. Bu dəfə Prezident Administrasiyası ilə kadr arxasında ünsiyyət vaxtı biz artıq bir ailə olduğumuzu söyləyirdik. Bu, mənim üçün çox əzizdir, çünki Bakı mənim doğma şəhərimdir və oraya getməyi çox sevirəm. Hər dəfə gəldiyimdə, sürücüdən xahiş edirəm ki, Çapayev - indiki Təbriz küçəsində mənim yaşadığım evin yaxınlığından keçsin. İndi həmin ev yoxdur, onun yerində böyük çoxmərtəbəli yeni bina tikiblər, lakin ətrafında köhnə evlər qalır. Ona görə də doğma yerləri asanlıqla tanıyıram.

Moskvadan isti olmağına və bəzən yağış yağmasına baxmayaraq, Bakıda Yeni il əhvali-ruhiyyəsi çox yüksəkdir. Bakının işıqlı səması qarın yoxluğunu hiss etdirmir. Küçələr gözəl bəzədilib, şəhər bayramı qarşılamağa hazırlaşır. Azərbaycanın Şaxta babasının olması məni çox sevindirir. Bu, Santa-Klaus deyil, məhz Şaxta babadır. O, eynilə mənim uşaqlıq illərimdə olduğu kimidir! Mən bütün bakılılara, Azərbaycanın hər bir vətəndaşına xoşbəxt Yeni il arzulayıram!

***AZƏRTAC***

# İnamlı, davamlı, təhlükəsiz inkişaf

*Əvvəli 1-ci səh.*

Digər tərəfdən Azərbaycan yeganə ölkədir ki, həm Şimal-Cənub, həm də Şərq-Qərb nəqliyyat dəhlizlərinin layihələrinin hər ikisində iştirak edir. Bu layihələrə qoşulan ölkələrin sayı ildən-ilə artır. Son illərdə bu layihələr istiqamətində Azərbaycanda ən müasir nəqliyyat infrastrukturu - dəmir yolu, dəniz daşımaları, aviadaşımalar, 6 beynəlxalq aeroport, avtomobil yolları yaradılıb.

## Bu il iqtisadiyyata 10 milyard dollar investisiya cəlb edilib

Azərbaycan dövlətinin möhkəm əsaslar üzərində qurulduğunu, 15 il ərzində milli dəyərlərimizlə bağlı çox ciddi siyasət aparıldığını vurğulayan İlham Əliyev 2018-ci ilin düşərli il olduğunu da diqqətə çatdırıb.

Çünki bu il iqtisadiyyata 10 milyard dollar investisiya cəlb edilib. On bir ayın yekunlarına görə, Azərbaycanın qeyri-neft sənayesində 9 faizdən çox artım var. İnflyasiya 2 faizdən bir qədər çox olub, əhalinin gəlirləri 9 faizdən çox artıb, valyuta ehtiyatları xarici borcdan demək olar ki, 5 dəfə artıqdır. Yəni, lazım gələrsə, Azərbaycan bir il ərzində xarici borcunu ödəyə bilər.

Sosial sahəyə gəlincə, bu il 6 minə qədər məcburi köçkün ailəsi yeni evlər və mənzillərlə təmin olunub. Təxminən 30 minə yaxın insan, yəni, cəmiyyətin daha çox ehtiyacı olan hissəsinin nümayəndələri üçün il ərzində kiçik şəhər tikilib.

İlin əvvəlində 2018-ci ilin sürətli inkişaf ili olacağını söyləyən İlham Əliyevin həyata keçirdiyi siyasi-iqtisadi islahatların bəhrəsi göz önündədir. Son 11 ayın yekunları onu deməyə əsas verir ki, 2018-ci il ən uğurlu inkişaf ili kimi Azərbaycan tarixinə yazılacaq.

## Azərbaycan iqtisadiyyatının transformasiyası prosesi bitir

Cənab İlham Əliyev qarşıdan gələn 2019-cu ili də dəyərləndirib. Azərbaycanın sosial-iqtisadi, mədəni və digər sahələrdə uğur qazanacağını vurğulayan dövlət başçısı bildirib ki, həyata keçirilən islahatların xeyli hissəsi özünü gələn il göstərəcək. Çünki artıq Azərbaycan iqtisadiyyatının transformasiyası prosesi bitir və iqtisadi inkişaf cəhətdən bütün planlar reallaşdırılacaq. 2019-cu ildə də Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirmək üçün mühüm addımlar atılacaq. Həmişə olduğu kimi, bütün sosial proqramlar həyata keçiriləcək.

Bir sözlə, strateji hövsələ, dözüm, səbir və öz inkişafına diqqət Azərbaycanın 2019-cu ildəki seçimidir. Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan İlham Əliyevin yeni inkişaf konsepsiyası ilə daha böyük zəfərlərə doğru inamla addımlamaqdadır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Prezidentdən idmançılara Yeni il hədiyyəsi

*Əvvəli 1-ci səh.*

Eyni zamanda nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq səmti müəyyənetmə, dağadırmanma, beşnövçülük və çoxnövçülük kimi idman növlərinin inkişafına şərait yaranacaq.

Ümumiyyətlə, ölkədə idmanın inkişafı istiqamətində görülən işlər hər cür təqdirə layiqdir. Dövlət rəhbərliyinin daim diqqət mərkəzində saxladığı bu sahədə əldə olunmuş uğurlar ürəkaçandır. İdmançılarımız hər il beynəlxalq turnirlərdən zəfərlə qayıdırlar. Onların başa çatmaqda olan 2018-ci ildəki çıxışları da bu baxımdan istisna olmamışdır. İlin əvvəlindən bəri ölkədə 225 yerli, 58 beynəlxalq turnir keçirilmişdir. Eləcə də idmanın müxtəlif növləri üzrə milli komandalarımız 236 beynəlxalq turnirə qatılmışdır. Azərbaycan atletləri dünya və Avropa çempionatlarında, kubok yarışlarında və digər beynəlxalq turnirlərdə 753 medal əldə etmişlər. Medallardan 263-ü qızıl, 230-u gümüş, 260-ı bürüncdür.

İl ərzində ən böyük uğura imzanı yeniyetmə idmançılarımız atmışlar. Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilmiş Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında 17 idmançıdan ibarət Azərbaycan milli komandası 6 medal (2 qızıl, 1 gümüş, 3 bürünc) qazanmışdır. Cüdoçu Vüqar Talıbov (66 kq) və sərbəst güləşçi Turan Bayramov (65 kq) oyunların çempionu olmuşlar. Ağır atlet Tərmenxan Babayev (85 kq) ölkəmizin aktivinə Olimpiadanın gümüş medalını yazdırmışdır. Milli komandamızın bürünc medallarını isə taekvondoçu Cavad Ağayev (63 kq), güləşçi Şahanə Nəzərova (43 kq) və boksçu Nurlan Səfərov (60 kq) qazanmışlar. Başqa bir təmsilçimiz - bədii gimnast Yelizaveta Luzan Olimpiadada qarışıq komandanın tərkibində çıxış etmiş və qızıl medalın sahibi olmuşdur. Lakin BOK-un qərarına uyğun olaraq, bu medal milli komandamızın hesabına yazılmamış və qarışıq komandaların aktivinə əlavə edilmişdir.

Təbii ki, idmançılarımız qazanılmış uğurlarla kifayətlənə bilməzlər. Onları gələn il mötəbər yarışlar gözləyir. Təmsilçilərimiz qarşıdan gələn mübarizəyə indidən hazırlaşırlar.

Eyni zamanda ölkəmiz beynəlxalq idman tədbirlərini təşkil etmək ənənəsini davam etdirir. Gələn il Bakıda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcək. Bu, gənclər arasında Avropa Oyunlarının bir növüdür. Səlahiyyətli orqanlar bu tədbirə də ciddi hazırlaşır. Qazanılmış təcrübə deməyə əsas verir ki, bu mühüm idman tədbiri də yüksək səviyyədə təşkil olunacaq. Gələn il paytaxtımız ilk dəfə olaraq UEFA Avropa Liqasının final görüşünə ev sahibliyi edəcək. Belə bir matçın Bakıda keçirilməsinə nail olmaq o qədər də asan məsələ deyil. Bir çox şəhərlər bu istiqamətdə mübarizə aparır. Məhz ölkəmizin ümumi inkişafı, yaradılmış infrastruktur, idman obyektləri, Olimpiya stadionunun istifadəyə verilməsi, müasir hotellərin inşası, təhlükəsizliyin təmin olunması, xalqımızın qonaqpərvərliyi və digər amillər bu qərarın verilməsində həlledici rol oynamışdır.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyi: "Azərbaycan Ordusunun mövqelərində heç bir hadisə baş verməyib"

Ermənistan mətbuatının guya Azərbaycan Ordusunun ön xətt mövqelərində atışma baş verməsi barədə yaydığı xəbərə Azərbaycan Müdafiə Nazirliyindən aydınlıq gətiriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu, Ermənistan tərəfinin öz ordusundakı baş verən xaos, intizamsızlıq və özbaşınalıq hallarını gizlətmək, o cümlədən dekabrın 26-da cəbhənin Ağdam rayonu istiqamətində mülki vətəndaşlarımızı atəşə tutmasından beynəlxalq ictimaiyyətin diqqətini yayındırmağa hesablanmış ucuz təbliğatıdır.

Bildiririk ki, Azərbaycan Ordusunun mövqelərində heç bir hadisə baş verməyib və bölmələrimiz əməliyyat şəraitinə nəzarət edir.

# Ədliyyə fəaliyyəti dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşir





Ümummilli lider Heydər Əliyevin dövlət inkişafı kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin inkişafı üzrə mütərəqqi islahatlar aparılır. Son illər ədliyyə sisteminin müasirləşdirilməsinə xidmət edən mühüm qərarlar qəbul olunub, bir çox nailiyyətlər əldə edilib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ədliyyə sahəsində islahatların davamlılığının təmin olunması məqsədilə dövlət başçısının 2018-ci il 18 dekabr tarixli sərəncamı ilə "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" təsdiq olunub.

Dekabrın 27-də ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş nazirliyin kollegiya iclasında dövlət proqramının icrası ilə bağlı qarşıda duran vəzifələr müzakirə olunub.

Kollegiyada çıxış edən nazir müstəsna əhəmiyyətə malik olan dövlət proqramının Prezidentimizin ədliyyə sisteminə böyük diqqət və qayğısının növbəti təzahürü olduğunu vurğulayıb. Proqramın bu il 100 illiyini qeyd etdiyimiz Azərbaycan ədliyyəsinin gələcək inkişafında "Yol xəritəsi" olmaqla ədliyyə orqanlarının və məhkəmələrin işinin müasir tələblərə uyğun təşkilinə, əhaliyə yüksəkkeyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə, bu orqanlara müraciət imkanlarının asanlaşmasına və vətəndaşların hüquqlarının daha etibarlı müdafiəsinə xidmət edəcəyi qeyd olunub.

İclasda dövlət proqramı ilə Ədliyyə Nazirliyinin üzərinə qoyulan vəzifələrin, o cümlədən işin müasirləşdirilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi, innovativ texnologiyaların və elektron sistemlərin geniş tətbiqi, şəffaflığın artırılması ilə bağlı və digər tədbirlərin vaxtında və mütəşəkkil icrasının təşkilinə dair konkret tapşırıqlar verilib.

Kollegiyada nazirliyin əsas fəaliyyət istiqamətləri üzrə cari ildə görülmüş işlər müzakirə olunub.

Bildirilib ki, dövlət başçısının "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etdiyi 2018-ci il cümhuriyyətimizin, həmçinin Azərbaycan ədliyyəsinin 100 illiyi ilə əlamətdar olub. Bu münasibətlə nazirlik tərəfindən silsilə tədbirlər təşkil olunub, o cümlədən "Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu" mövzusunda beynəlxalq konfrans keçirilib, ədliyyənin tarixi və müasir fəaliyyətindən bəhs edən "Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda" adlı xüsusi kitab və film, digər nəşrlər və maarifləndirici vasitələr hazırlanıb.

İclasda ədliyyə fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi ilə bağlı görülən tədbirlər qeyd olunaraq dövlət başçısının qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş "Notariat haqqında" qanuna edilən əsaslı dəyişikliklərin daha müasir texnologiyaların və innovasiyaların tətbiqinə geniş imkan yaratdığı vurğulanıb. Bu məqsədlə səyyar notariat çantası, elektron ədliyyə köşkü və mobil notariat qovluğu hazırlanıb və dekabrın 21-də Binəqədi Rayon Məhkəməsinin açılışı zamanı Azərbaycan Prezidentinə nümayiş etdirilib.

Kollegiyada dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli sərəncamının icrası üzrə görülmüş işlərə toxunularaq azadlıqdan məhrumetməyə alternativ, o cümlədən azadlığın məhdudlaşdırılması cəzasının icrasında elektron qolbaqların tətbiqi daim genişləndirilərək artıq 500-dən çox məhkuma tətbiq edildiyi, ictimai işlər növündə cəzanın icrasında müsbət dönüşə nail olunduğu və təsirli nəzarətin həyata keçirildiyi vurğulanıb. Həmçinin mübahisələrin məhkəmədənkənar alternativ həlli üsulu olan mediasiya institutunun yaradılması üzrə görülən tədbirlər, o cümlədən bu sahədə Avropa İttifaqı ilə əməkdaşlıq, qanunvericiliyə bununla bağlı dəyişikliklərin edilməsinə dair layihələrin hazırlanması barədə məlumat verilib, habelə məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, o cümlədən normativ bazanın təkmilləşdirilməsi məqsədilə bu sahəni tənzimləyən İcra Məcəlləsinin layihəsinin hazırlanması diqqətə çatdırılıb.

Eyni zamanda, Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planının icrası çərçivəsində ədliyyə fəaliyyətində şəffaflığın təmin edilməsi, ictimai iştirakçılığın tətbiqi, elektron xidmətlərin dairəsinin artırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi üzrə görülən işlərdən danışılıb, nazirliyin beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsinə toxunularaq cari ildə bir sıra xarici dövlətlərin ədliyyə nazirlərinin ölkəmizə səfərlərinin və imzalanmış sənədlərin qarşılıqlı fəaliyyətin inkişafına töhfə verdiyi vurğulanıb.

Bununla yanaşı, kollegiyada qarşıda duran vəzifələr müzakirə olunaraq növbəti ildə prioritet istiqamətlər üzrə görüləsi tədbirlər müəyyənləşdirilib, o cümlədən "elektron məhkəmə" informasiya sisteminin tətbiqinin sürətləndirilməsi, əhalinin elektron normativ bazalara əlçatanlığının yaxşılaşdırılması, elektron sənəd dövriyyəsinin genişləndirilməsi, cəzaların icrası, tibb və ekspertiza sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlərə dair və digər konkret tapşırıqlar verilib.

Sonda ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ hüquqi akt layihələrinə baxılıb, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# "İlin peşəkar gənci" fəxri adına layiq görülənlər təltif ediliblər





Dekabrın 27-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 2018-ci ilin nəticələrinə görə "İlin peşəkar gənci" fəxri adına layiq görülən gənclərin təltif edilməsi mərasimi keçirilib. Yüksək peşə hazırlığı, ictimai həyatda fəal iştirakı, əmək intizamı, eyni zamanda, yüksək bilik səviyyəsi və sənət təcrübəsinə malik olan əlli istedadlı gənc AHİK-in fəxri diplomu, döş nişanı və vəsiqəsi ilə təltif olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycanın gənclərlə bağlı dövlət siyasətinin müəyyənləşdirilməsinin ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan gənclərinin ölkənin gələcək inkişafında fəallığını və məsuliyyətini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclər arasında fikir mübadiləsinə şərait yaratmaq, onların dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyətlərini asanlaşdırmaq məqsədilə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin ilk forumu keçirilib. Eyni zamanda, 2007-ci ilin ölkədə "Gənclər ili" elan edilməsi, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nın qəbul olunması, Bakıda gənclər siyasəti ilə bağlı birinci qlobal forumun və digər mühüm tədbirlərin keçirilməsi Prezident İlham Əliyevin gənclər siyasətinə nə qədər böyük önəm verdiyini ortaya qoydu. Bu gün Azərbaycan gəncləri yeni, müasir və müstəqil ölkənin qurulmasında fəal iştirak edirlər.

AHİK sədri vurğulayıb ki, gələcəyimizin etibarlı təminatı peşəkar kadrların yetişdirilməsindən, gənclərin aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Məhz bu reallığı nəzərə alaraq AHİK bütün üzv təşkilatları ilə birgə dövlətin gənclər siyasətinə uyğun olaraq müvafiq tədbirlər həyata keçirir. AHİK-in "Kadr siyasəti Konsepsiyası"nda gənc mütəxəssislərə ehtiyacı ödəmək üçün sahə həmkarlar ittifaqı komitələri qarşısında vəzifələr qoyulub. Artıq bir neçə ildir ki, həmkarlar ittifaqlarının Gənclər Şuraları fəaliyyət göstərir, gənc liderlər beynəlxalq təşkilatların toplantılarına dəvət olunurlar. Onlar Yaponiya, İtaliya, Rusiya, Litva, Türkiyə və digər ölkələrdə gənclərin problemlərinə həsr olunmuş tədbirlərdə yaxından iştirak edirlər.

Səttar Möhbalıyev bildirib ki, hazırda respublikamızda həmkarlar ittifaqı üzvlərinin üçdə birini 35 yaşınadək gənclər təşkil edir. Belə böyük bir qüvvənin təşkilatın işində yaxından iştirakı vacib məsələlərdəndir. Həmkarlar İttifaqları mövcud struktur çərçivəsində gənclərin fəallığını təmin etməyə, rəhbər orqanlarda təmsil olunmalarına şərait yaratmağa, işləyən və təhsil alan gənclərin hüquq və mənafelərinin qorunmasına çalışırlar. Bu məqsədlə bağlanan bütün saziş və kollektiv müqavilələrə gənclərlə əlaqədar müvafiq bölmə və öhdəliklər daxil edilib. Gənclərin məşğulluğu, asudə vaxtlarının səmərəli təşkili və digər bu kimi məsələlər ön plana çəkilir. Müntəzəm olaraq elmi-praktik konfranslar, seminarlar təşkil edilir. Şübhəsiz ki, hər bir dövlətin gənclərə yanaşması gələcəyə olan münasibətdir. Bütün bunları nəzərə alaraq gənc nəslin müxtəlif sənət növlərinə, peşələrə və əmək fəaliyyətinə marağının artırılması, bacarıqlarının respublikamızın sosial-iqtisadi inkişafına səfərbər edilməsi və həmkarlar ittifaqı üzvlüyünə motivasiyasının gücləndirilməsi məqsədilə AHİK İcraiyyə Komitəsi 2015-ci ildə əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclər üçün "İlin peşəkar gənci" fəxri adının təsis edilməsi haqqında qərar qəbul edib.

Sonra fəxri adlara layiq görülən gənclər təltif ediliblər.

## Milli Televiziya və Radio Şurasının növbəti iclası keçirilib

Dekabrın 27-də Milli Televiziya və Radio Şurasının növbəti iclası keçirilib.

Şuradan AZƏRTAC-a bildiriblər ki, iclasda "Türkel TV" MMC-yə regional televiziya yayımı üçün (Tovuz rayonu) verilmiş lisenziyanın qüvvəsinə cəmiyyətin rəsmi müraciəti əsasında xitam verilməsi barədə qərar qəbul edilib.

Eyni zamanda, iclasda hüquqi şəxsin yenidən təşkil edilməsi ilə əlaqədar olaraq "REGİON TV" MMC-yə ümumrespublika televiziya yayımı üçün verilmiş 2014-cü il 14 mart tarixli və "Türkel TV" MMC-yə ümumrespublika televiziya yayımı (Xəbər) üçün verilmiş 2017-ci il 27 dekabr tarixli lisenziyaların "ARB 24" MMC-nin adına rəsmiləşdirilməsi barədə qərar qəbul olunub.

## On bir ayda hər bir şəhər sakini ayda 177,1 manatlıq müxtəlif ödənişli xidmətlərdən istifadə edib

Bu ilin yanvar-noyabr aylarında Bakı əhalisinə göstərilən ödənişli xidmətlərin dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz artaraq 4806,8 milyon manat olub.

Bakı Şəhər Statistika İdarəsindən AZƏRTAC-a bildiriblər ki, hüquqi şəxslər tərəfindən əhaliyə 2942,2 milyon manatlıq xidmət göstərilib ki, bu da xidmətin ümumi dəyərinin 61,2 faizini təşkil edib.

Qeyri-dövlət sektorunda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,0 faiz artaraq 3875,3 milyon manat olub. 2018-ci ilin yanvar-noyabr ayları ərzində hər bir şəhər sakini orta hesabla ayda 177,1 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 6,9 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə edib.

## Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin yanvar ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanı | Qəbul günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Fikrət Məmmədov ədliyyə naziri** | 07 | Ağdaş | Ağdaş, Yevlax, Ucar |
| **Hicran Hüseynova Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** | 16 | Ağdam | Ağdam, Tərtər, Bərdə, Ağcabədi, Beyləqan, Xocavənd, Laçın |
| **Arzu Rəhimov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** | 17 | Hacıqabul | Hacıqabul, Şirvan, Salyan, Neftçala, Sabirabad, Saatlı, Kürdəmir |
| **Zakir Qaralov baş prokuror** | 18 | Şamaxı | Şamaxı, Qobustan, İsmayıllı, Ağsu, Kürdəmir, Göyçay |
| **Azad Rəhimov gənclər və idman naziri** | 18 | Abşeron | Abşeron, Sumqayıt, Xızı, Qobustan, Şamaxı |
| **Şahin Mustafayev iqtisadiyyat naziri** | 18 | Qazax | Qazax, Ağstafa, Tovuz |
| **Ramin Quluzadə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri** | 18 | Xızı | Xızı, Sumqayıt, Abşeron, Qubadlı, Zəngilan, Şuşa |
| **Ceyhun Bayramov təhsil naziri** | 18 | Neftçala | Neftçala, Şirvan, Salyan, Hacıqabul, Biləsuvar, Cəbrayıl |
| **Rövşən Rzayev Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** | 18 | İmişli | İmişli, Biləsuvar, Saatlı, Sabirabad |
| **Mikayıl Cabbarov vergilər naziri** | 22 | Beyləqan | Beyləqan, Füzuli, İmişli, Ağcabədi, Laçın, Xocavənd |
| **Mübariz Qurbanlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** | 22 | Siyəzən | Siyəzən, Şabran, Quba, Qusar, Xaçmaz |
| **Muxtar Babayev ekologiya və təbii sərvətlər naziri** | 25 | Biləsuvar | Biləsuvar, Cəlilabad, Salyan, Neftçala, Cəbrayıl |
| **Sahil Babayev əmək və əhalinin sosial müdafiəsi naziri** | 25 | Neftçala | Neftçala, Salyan, Biləsuvar, Cəlilabad, Cəbrayıl |
| **Kəmaləddin Heydərov fövqəladə hallar naziri** | 25 | Gəncə | Gəncə, Göygöl, Daşkəsən, Samux, Gədəbəy |
| **İnam Kərimov kənd təsərrüfatı naziri** | 25 | Xaçmaz | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən |
| **Əbülfəs Qarayev mədəniyyət naziri** | 25 | Xızı | Xızı, Sumqayıt, Abşeron, Qubadlı, Zəngilan, Şuşa |
| **Oqtay Şirəliyev səhiyyə naziri** | 25 | İmişli | İmişli, Beyləqan, Saatlı, Sabirabad |
| **Kərəm Həsənov Əmlak Məsələləri Dövlət Komitəsinin sədri** | 25 | Qobustan | Qobustan, Şamaxı, Ağsu, Hacıqabul |
| **Məleykə Abbaszadə Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri** | 25 | Şirvan | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Sabirabad, Saatlı |
| **Səfər Mehdiyev Dövlət Gömrük Komitəsinin sədri** | 26 | Şirvan | Şirvan, Sabirabad, Saatlı, İmişli, Beyləqan |

**Qeyd:** *Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid olmalıdır.*

# Yerevan Xankəndidə qiyam hazırlayır

## Paşinyan-separatçı rejim qarşıdurması dərinləşir

*Əvvəli 1-ci səh.*

### Ziddiyyət daha da kəskinləşir

Paşinyan hesab edir ki, Bako Saakyan onun hakimiyyəti üçün təhdid mənbələrindən biridir. Çünki separatçıların lideri birbaşa sabiq prezident Serj Sarkisyana yaxın kimi tanınır. Məhz bu vəziyyətdə Qarabağ erməniləri ilə Ermənistan erməniləri arasında ziddiyyət dərinləşir. Görünən budur ki, Paşinyan Qarabağ separatçılarını diz çökdürmək üçün güc amilindən belə istifadəyə hazırdır. Artıq Ermənistanda sosial şəbəkələrdə yer alan xəbərlərdə Xankəndini etiraz dalğasının bürüdüyü bildirilir. Qeyd olunur ki, artıq bir neçə gündür şəhərin mərkəzi küçələrində müxtəlif təbəqələrdən olan əhalinin iştirakı ilə mitinqlər, etiraz aksiyaları və yürüşlər keçirilir.

Rəsmi Yerevan müxtəlif bəhanələrlə xüsusi təyinatlı dəstələri Xankəndiyə göndərsə də, görülən tədbirlər Ermənistan ictimaiyyətindən gizlədilir. Xəbərlərdə qeyd edilir ki, görünür, Nikol Paşinyan Yerevanda nail olduğu məqsədinə burada da çatmaq və Sarkisyan-Koçaryan koalisiyasını hakimiyyətdən birdəfəlik uzaqlaşdırmaq fikrindədir.

### Separatçılar Koçaryanın azad edilməsini tələb edirlər

Xankəndi şəhərində etiraz edənlər sabiq prezident Robert Koçaryanın həbsinə də qarşıdır. Etirazçılar Koçaryanın azad edilməsini tələb edirlər. Separatçılar Koçaryanı qəhrəman elan edərək Yerevana yürüş də planlaşdırıblar.

Separatçılardan aldığı dəstəyə arxalanan və konstitusiya quruluşunu devirməkdə təqsirləndirilən Koçaryan isə yenidən həbs edilməsi ilə bağlı Kassasiya Məhkəməsinə şikayət verərək sərbəst buraxılmasını tələb edib.

Qeyd edək ki, 2008-ci ilin martın 1-də ölkədə keçirilən etiraz aksiyalarının dağıdılması zamanı 10 nəfərin ölümü və Ermənistanın konstitusiya quruluşunu devirmək cəhdi ilə əlaqədar açılan cinayət işi çərçivəsində ittiham olunan Robert Koçaryan iyulda saxlanılsa da, apelyasiya şikayətindən sonra azad edilib. 15 noyabrda isə Ermənistanın Kassasiya Məhkəməsi onun işi üzrə apelyasiya qərarının ləğvi və sabiq prezidentin təkrar həbsi ilə bağlı prokurorluğun şikayətini qismən təmin edərək işi yenidən apelyasiya məhkəməsinə göndərib. 27 noyabrdan etibarən baş prokuror Artur Davtyan da daxil olmaqla, 6 prokurorun iştirakı ilə işə baxılıb.

Davtyan bildirib ki, Koçaryan 2008-ci ildə Yerevanda baş verən dövlət terrorunun ideya müəllifidir və təcili şəkildə azadlıqdan məhrum olunmalıdır. Nəhayət, apelyasiya məhkəməsi 7 dekabrda çıxardığı son qərarla prokurorluğun şikayətini təmin edib və o, yenidən həbs olunub.

Amma indiki proseslər göstərir ki, Koçaryan separatçılardan aldığı dəstəklə Nikol Paşinyana qarşı yeni müqavimətə başlamağı düşünür. Xankəndidən ona gələn dəstək fonunda isə Koçaryanın daha radikal mövqedən çıxış etməsi gözlənilir.

### Sarkisyan-Koçaryan koalisiyasına qarşı ittihamlar artır

Bu fonda Paşinyana yaxın şəxslərin Koçaryana qarşı ittihamlarının artması da müşahidə olunur. 1999-cu ildə Ermənistanın baş naziri olmuş Aram Sarkisyan bu xüsusda maraqlı fikirlər səsləndirib. Koçaryanı ittiham edən bu şəxs bildirib: "Hər kəsin nə qədər biliyə sahib olması, onun nə qədər qabiliyyətli olmasını müəyyən edir. Oxumağı sevməyən, iqtisadiyyatda heç bir təcrübəsi olmayan Koçaryan ölkənin əmlakını vəhşicəsinə talan etdi".

O, Koçaryanın 1999-cu il Ermənistan parlamentinin güllələbaran edilməsi ilə bağlı yazdığı "Həyat və azadlıq" kitabını da tənqid edib. Sarkisyan Koçaryanın parlament sədri Karen Dəmirçiyanın öldürülməsi ilə yadda qalan hadisəni təhrif etdiyini bildirib və onu bu cinayətə görə ittiham edib: "Həmin dönəmdə siz hökumətin bütün üzvlərinə nifrət edirdiniz. Ən yaxın dostlarınıza belə... Təkcə Serj Sarkisyana güvənirdiniz. Çünki siz qorxurdunuz".

Aram Sarkisyan Ermənistan-Azərbaycan münaqişəsində Karen Dəmirçiyanın rolundan da danışıb və Koçaryana bununla bağlı suallar ünvanlayıb: "Niyə Dəmirçiyanla Qarabağ münaqişəsinin həll edilməsi məsələsi o vaxt müzakirə edildi? Niyə bundan sonra parlamentin güllələbaran edilməsi ilə bağlı başlamış məhkəmə prosesini sürətləndirib başa çatdırdınız?"

Xatırladaq ki, 1999-cu ildə Ermənistan parlamentində terror aktı törədilib. Oktyabrın 27-də baş verən silahlı basqın zamanı Ermənistan baş nazirinin müavini Vazgen Sarkisyan, parlamentin sədri Karen Dəmirçiyan, eləcə də bir neçə deputat öldürülüb. Bütün bunlar fonunda isə Paşinyanın hərbi xuntanı tam sıradan çıxarmaq üçün həm də güc yoluna əl atması da təbii sayılır.

### "...biz Qarabağı itirəcəyik"

Serj Sarkisyanın sədri olduğu və Koçaryana yaxınlığı ilə tanınan "Respublika" partiyasının mətbuat katibi Eduard Şarmazanov isə bu durumda ölkədə yarana biləcək vətəndaş qarşıdurmasına görə Paşinyanın məsuliyyət daşıyacağını bildirib. Deyib ki, Paşinyan uğursuzluqlarını ört-basdır etmək üçün belə qarşıdurmalara diqqət ayırır: "Paşinyan artıq böyük problemlərlə üzləşib və bundan diqqəti yayındırmaq üçün hər cür vasitəyə əl atır. Paşinyanın uğursuzluqları çoxdur. Məhz onun dönəmində ilk dəfə Diaspor Nazirliyi qapadıldı. Bizim artıq Mədəniyyət Nazirliyimiz olmayacaq. Eləcə də ilk dəfə Ermənistan KTMT baş katibi vəzifəsindən məhrum edildi və ilk dəfə minlərlə vətəndaş Yeni ili işsiz kimi qarşılayacaq. Yenə də Paşinyan sayəsində ilk dəfə "Qarabağ qəhrəmanı" və "Qarabağın prezidentləri" həbs edildi. - İlk dəfə "Qarabağ azadlıq müharibəsi" hakimiyyətin "dampdump" ilə ələ keçirilməsindən daha az vacib oldu. İlk dəfə real müxalifəti olmayan parlamentə sahib olacağıq. Amma bunlar hamısı deyil. İlk dəfə Müqəddəs Eçmiədzinin dəftərxanası işğal edildi, ilk dəfə bütün ermənilərin katolikosuna hücum oldu, ilk dəfə homoseksuallar polisə hücum etdi, ilk dəfə ölkə rəhbəri xalqını qaralar və ağlara böldü. Bütün bunların hamısı cəmisi 8 ayda baş verib. Amma bunlar fonunda mümkün vətəndaş qarşıdurması ölkəmizə daha böyük zərbə olacaq və bundan fayda götürən tərəflərdən biri Azərbaycan olacaq, biz Qarabağı itirəcəyik".

Hər halda proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli və Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Seyidli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Xarici İşlər Nazirliyi 2018-ci ilin yekunlarına dair məlumat yayıb

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi 2018-ci ilin yekunlarına dair məlumat yayıb. AZƏRTAC məlumatı təqdim edir.

2018-ci ildə qlobal və regional güclər arasında artan ixtilaflar beynəlxalq münasibətlər sistemində davam edən gərginliyi, o cümlədən dövlətlərin suverenliyi və daxili işlərinə müdaxilələri, beynəlxalq hüququn norma və prinsiplərinə ikili yanaşmanı, həmçinin silahlı münaqişələr, etnik qarşıdurmalar, birtərəfli iqtisadi sanksiyalar, dözümsüzlük və humanitar böhran vəziyyətini daha da kəskinləşdirib.

Yerləşdiyi region ətrafında cərəyan edən ziddiyyətli proseslər şəraitində ölkəmiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində daxili sabitlik və inkişafını təmin etmək, iqtisadiyyatını müsbət artım dinamikasına kökləmək və irimiqyaslı layihələr həyata keçirməklə beynəlxalq səviyyədəki nüfuz və rəğbətini daha da möhkəmləndirməyə müvəffəq olub.

Cari ildə Azərbaycan Respublikasının xarici siyasəti qarşılıqlı hörmət və bərabərhüquqluluq əsasında iki və çoxtərəfli münasibətlərin inkişafı, təhlükəsizliyin, iqtisadi və sosial rifahın dayanıqlığının təmin edilməsi və mədəni təşəbbüslərin artırılması istiqamətlərinə yönəlib. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 may tarixli “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” sərəncamına uyğun olaraq xarici siyasətimizdə Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümünün qeyd edildiyi cari ildə milli istiqlaliyyət və dövlətçilik dəyərlərimizin beynəlxalq müstəvidə geniş təşviq olunmasına xüsusi diqqət ayrılıb.

Xalqın iradəsinə əsaslanan ölkədəki sabit ictimai-siyasi vəziyyət, sosial-iqtisadi sahələrdə aparılan səmərəli islahatlar və quruculuq işləri, habelə uğurla davam etdirilən müstəqil və çoxşaxəli xarici siyasət kursu Azərbaycanın Cənubi Qafqaz regionunun aparıcı və ən inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib.

Dövlət başçısı tərəfindən 2018-ci ildə çoxsaylı rəsmi və işgüzar səfərlər həyata keçirilib, o cümlədən Azərbaycan Respublikası Prezidentinin Türkiyə, Rusiya, Böyük Britaniya, Fransa, Belçika, Xorvatiya, İsveçrə, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistana səfərləri reallaşdırılıb. Eyni zamanda, Türkiyə, Rusiya, İran, İtaliya, Serbiya, Monqolustan, Benin, Tacikistan, Əfqanıstan, Moldova, Makedoniya və Albaniyanın prezidentləri, həmçinin Almaniyanın federal kansleri ölkəmizə rəsmi və işgüzar səfərlər ediblər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin İtaliya və Fransaya rəsmi və işgüzar səfərləri baş tutub.

Cari il ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədləri çərçivəsində həll olunması istiqamətində diplomatik səylərimiz davam etdirilib.

Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistan baş naziri arasında MDB-nin Düşənbə və Sankt-Peterburq zirvə görüşləri çərçivəsində söhbətlər baş tutub və Azərbaycan Respublikasının xarici işlər naziri ilə ermənistanlı həmkarı arasında son altı ay ərzində 3 görüş keçirilib. Cari il dekabrın 6-da ATƏT-in Milanda keçirilmiş Nazirlər Görüşü çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin nümayəndə heyətlərinin rəhbərləri, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin birgə bəyanatı qəbul olunub. Bəyanatda münaqişənin sülh yolu ilə ədalətli və davamlı həlli üzrə danışıqların davam etdirilməsinin razılaşdırıldığı qeyd olunur. Burada həmçinin iki ölkənin rəhbərləri səviyyəsində Düşənbədə əldə edilən razılaşmaya riayət olunması və hər iki ölkə əhalisinin sülhə hazırlanması üçün konkret addımların atılması çağırışı əksini tapır. Vacib məqamlardan digəri isə birgə bəyanatda münaqişənin ədalətli və davamlı həllinin təşviq edilməsi üçün yaxın gələcəkdə Azərbaycan və Ermənistan rəhbərliyi səviyyəsində intensiv nəticəyə yönəlik danışıqların keçirilməsi fikrinin əks olunmasıdır. Bu yanaşma ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən tam dəstəklənir.

Bu il ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bir sıra beynəlxalq təşkilatlar tərəfindən maraqlarımıza cavab verən aşağıdakı önəmli sənədlərin qəbul edilməsinə nail olunub.

2018-ci il aprelin 3-6-da 117 ölkə və 16 beynəlxalq təşkilatın yüksəksəviyyəli rəsmilərinin iştirakı ilə Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Aralıq Nazirlər Konfransının yekun sənədinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipi əsasında həll edilməsinin vacibliyini vurğulayan bənd daxil edilib.

2018-ci il aprelin 16-17-də Düşənbə şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirlər Şurası iclasının yekun sənədinə Ermənistan-Azərbaycan münaqişəsinin regional iqtisadi əməkdaşlığa maneə törətdiyi və münaqişənin tezliklə dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət prinsipləri əsasında həllinin vacibliyinə dair bənd daxil edilib.

2018-ci il mayın 5-6-da Banqladeş Xalq Respublikasının Dəkkə şəhərində keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 45-ci sessiyasında Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğal olunmuş ərazilərimizdə dini-mədəni irsin dağıdılmasına dair qətnamələr qəbul edilib.

İƏT Xarici İşlər Nazirləri Şurasının iclasında “1992-ci il Xocalı qırğınının qurbanları ilə həmrəylik” adlı qətnamə də qəbul olunub. Qətnamədə Azərbaycanın Xocalı şəhərində və digər işğal edilmiş ərazilərində Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən azərbaycanlı mülki əhaliyə və hərbi şəxslərə qarşı törədilmiş kütləvi vəhşiliklər qəti şəkildə pislənilir və üzv dövlətlər münaqişə dövründə Azərbaycanın Xocalı şəhəri və işğal edilmiş digər ərazilərində törədilmiş cinayətlərin müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və soyqırımı kimi yerli və beynəlxalq səviyyədə tanınması istiqamətində lazımi səy göstərməyə səslənib.

2018-ci ilin iyul ayında Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş “Tərəfdaşlıq prioritetləri” sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı Avropa İttifaqından Azərbaycana önəmli dəstək ifadə olunub. Bununla yanaşı, 2018-ci il dekabrın 12-də Avropa Parlamentinin qəbul etdiyi “Vahid Xarici və Təhlükəsizlik Siyasətinin həyata keçirilməsi üzrə illik plan” adlı qətnamədə Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələri, o cümlədən Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləməsi bir daha təsdiqlənib.

Eyni zamanda, 2018-ci il iyulun 11-12-də Brüsseldə keçirilmiş NATO Zirvə görüşünün yekun bəyannaməsində alyans üzvləri Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə davamlı dəstək ifadə edib və regiondakı mövcud münaqişələrin məhz bu prinsiplər əsasında həll olunması haqda çıxış ediblər.

2018-ci il oktyabrın 5-də keçirilmiş Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM dövlətlərinin hökumət başçılarının iclasında qəbul edilmiş birgə bəyanatda Ermənistan-Azərbaycan münaqişəsi və GUAM üzv ölkələri ərazisində həllini tapmamış digər münaqişələrin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllinin vacibliyi vurğulanıb və bu münaqişələrin beynəlxalq sülhə, təhlükəsizliyə və sabitliyə təhlükə təşkil etdiyi nəzərə alınaraq, onların yuxarıda göstərilən prinsiplər əsasında tezliklə həlli məqsədilə beynəlxalq ictimaiyyətə səylərin artırılması üçün çağırış edilib.

2018-ci ildə dövlətimizin dayanıqlı inkişafını təmin etmək məqsədilə beynəlxalq, regional və ikitərəfli formatda məqsədyönlü xarici siyasət fəaliyyəti davam etdirilib. Ölkə iqtisadiyyatının potensialının xaricdə təbliğ olunması, ixracının təşviqi və genişləndirilməsi, ölkəmizdə istehsal olunan məhsul və xidmətlərin rəqabət qabiliyyətinin artırılması, həmçinin xarici ölkələrdə tətbiq olunan müasir texnologiyaların ölkəmizə cəlb edilməsi aparılan xarici iqtisadi əməkdaşlığın əsas istiqamətlərini təşkil edib.

Həyata keçirilmiş kompleks tədbirlər nəticəsində əldə edilən iqtisadi uğurlarımız mötəbər beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilib. Belə ki, dünyanın ən nüfuzlu iqtisadi forumu olan Davos İqtisadi Forumunun qiymətləndirməsinə əsasən ölkəmiz rəqabətqabiliyyətliliyə görə dünya miqyasında 35-ci yerdə qərarlaşıb.

İkitərəfli ticari-iqtisadi əlaqələrin inkişafı məqsədilə Misir, İordaniya, İran, Avstriya, Mərakeş, İsrail, Vyetnam, Hindistan, Qazaxıstan, Bolqarıstan, Belarus, Serbiya, Rumıniya, Rusiya və Sankt-Peterburq hökumətləri daxil olmaqla, 15 hökumətlərarası komissiyaların iclasları, həmçinin Azərbaycan ilə Pakistan arasında ticarət sahəsində əməkdaşlıq üzrə birgə İşçi Qrupunun ilk görüşü, eyni zamanda Çin, İran, Avstriya, Pakistan, İsveçrə, İtaliya, Estoniya, Çexiya, Serbiya ilə biznes forumları keçirilib. Çin, Polşa, Ukrayna və Latviyada Azərbaycanın Ticarət evləri fəaliyyətə başlayıb.

2018-ci il ərzində Azərbaycan Respublikası insan hüquqları, demokratiya, qanunun aliliyi və yaxşı idarəçiliyin təşviqi sahəsində beynəlxalq və regional təşkilatlarla səmərəli fəaliyyətini davam etdirib. 2018-ci il martın 22-də BMT İnsan Hüquqları Şurasının 37-ci sessiyası çərçivəsində ölkəmiz tərəfindən irəli sürülmüş “Dövlət xidmətlərinin səmərəli, şəffaf və məsuliyyətli çatdırılması vasitəsilə insan hüquqları və Dayanıqlı İnkişaf Məqsədlərinin təşviqi” adlı qətnamə layihəsi yekdilliklə qəbul edilib. 2018-ci il aprelin 25-də Avropa Şurası Parlament Assambleyasında qəbul olunmuş “Avropada məcburi köçkünlərin humanitar ehtiyacları və hüquqları” adlı qətnamədə işğal edilmiş ərazilərin əhalisinin başqa yerə köçürülməsi və işğalçı qüvvə tərəfindən bu ərazilərə digər əhalinin yerləşdirilməsi müharibə cinayəti kimi qeyd olunub. 2018-ci il dekabrın 17-də BMT Baş Assambleyasında Azərbaycan tərəfindən irəli sürülmüş və əsas məqsədi silahlı münaqişələr şəraitində itkin düşmüş şəxslərin probleminə diqqətin daha da artırılmasından ibarət “İtkin düşmüş şəxslər” adlı qətnamə yekdilliklə qəbul edilib.

Demokratiya, insan hüquqları və qanunun aliliyi sahələrində beynəlxalq təsisatlarla aparılan səmərəli əməkdaşlıqla yanaşı, cari ildə mədəniyyətlərarası dialoqun təşviq edilməsinə də böyük önəm verilib.

2018-ci il 26 noyabr-1 dekabr tarixlərində keçirilmiş UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin iclasında Azərbaycan tərəfinin təqdim etdiyi “Çövkən - ənənəvi Qarabağ atüstü oyunu” ilə bağlı milli hesabat qəbul olunub, həmçinin “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” adlı nominasiya Qorunmaya Ehtiyacı olan UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

İl ərzində beynəlxalq təsisatların seçkili vəzifələrinə ölkəmizdən irəli sürülən namizədliklərin müvəffəqiyyətlə irəliləməsi Azərbaycanın ikitərəfli və çoxtərəfli beynəlxalq münasibətlər müstəvisində apardığı uğurlu siyasətin bariz nümunəsini təşkil edib.

2018-ci il iyunun 4-6-da UNESCO-nun baş qərargahında keçirilmiş təşkilatın Qeyri-maddi mədəni irsin qorunması üzrə Konvensiyasına üzv ölkələrin 7-ci Baş Assambleyasında Azərbaycan adıçəkilən komitəyə üzv seçilib.

2018-ci il iyunun 7-də Nyu York şəhərində keçirilmiş BMT-nin qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Konvensiyasına tərəf dövlətlərin iclasında Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəsmisi BMT-nin qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinin üzvlüyünə seçilib.

2018-ci il sentyabrın 17-21-də Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş Konfransının 62-ci sessiyasında ölkəmiz AEBA-nın Müdirlər Şurasının 2018-2020-ci illər üzrə üzvü seçilib.

2018-ci ilin 26 oktyabr-17 noyabr tarixlərində keçirilmiş Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) konfransında Azərbaycan 2019-2022-ci illər müddətinə BTİ Şurasına yenidən üzv seçilib, həmçinin ölkəmizin təmsilçisi həmin müddət üzrə təşkilatın Radio Tənzimləmə Komitəsinə üzv seçilib.

2018-ci ildə VI Bakı Beynəlxalq Humanitar Forumu, VI Qlobal Bakı Forumu, Qoşulmama Hərəkatının Xarici İşlər Nazirləri Konfransı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclası, “Cənub qaz dəhlizi” Məşvərət Şurasının Nazirlər toplantısı, “Cənub qaz dəhlizi”nin rəsmi açılış mərasimi, “Formula-1” Azərbaycan Qran-Pri yarışları, XXV Beynəlxalq Xəzər Neft və Qaz-2018 sərgisi, ADEX-2018 III Beynəlxalq Müdafiə Sərgisi və digər mötəbər beynəlxalq tədbirlərin Azərbaycanda yüksək səviyyədə keçirilməsi ölkəmizin artan beynəlxalq nüfuzunun, ona bəslənilən yüksək etimadın, həmçinin zəngin təcrübə və bacarıqlarının göstəricisini təşkil edib.

Cari ildə qonşu və region ölkələri ilə qarşılıqlı hörmət və etimad əsasında siyasi, iqtisadi və humanitar sahələrdə tərəfdaşlıq münasibətləri inkişaf etdirilib. Müxtəlif regional əməkdaşlıq formatları çərçivəsində öz təşəbbüskarlığı ilə seçilən Azərbaycan Respublikası ilk dəfə olaraq dövlət başçıları səviyyəsində keçirilmiş Azərbaycan-Rusiya Regionlararası Forum və Azərbaycan-İran Biznes Forumu, həmçinin Azərbaycan, Gürcüstan, İran və Türkiyənin xarici işlər nazirlərinin birinci dördtərəfli görüşünə evsahibliyi edib, eyni zamanda, “Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası” və xarici işlər nazirləri səviyyəsində baş tutmuş Azərbaycan-Türkiyə-Gürcüstan və Azərbaycan-Türkiyə-İran üçtərəfli toplantılarında fəal iştirak edib.

2018-ci il avqustun 12-də Xəzər dənizinin hüquqi statusuna dair aparılan uzunmüddətli danışıqların nəticəsi olaraq Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının V Zirvə Toplantısında “Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya” və Xəzər dənizində əməkdaşlığı təşviq edən digər saziş və protokollar imzalanıb.

Cari il fevralın 21-22-də keçirilmiş Azərbaycan-Rusiya Birgə demarkasiya komissiyasının iclası çərçivəsində ilk dəfə olaraq Azərbaycanın demarkasiya sərhəd nişanı Azərbaycan-Rusiya dövlət sərhədinin 49 nömrəli delimitasiya nöqtəsi sahəsində Samur çayının sahilində Qusar rayonu ərazisində quraşdırılıb.

Dövlətimizin xarici siyasət kursunun vacib istiqamətlərindən biri kimi xarici ölkələrdə yaşayan Azərbaycan Respublikasının vətəndaşı olan soydaşlarımızın hüquqlarının müdafiəsi sahəsində konsulluq-hüquqi yardım əməliyyatları uğurla davam etdirilib. İraqın Bağdad şəhərində uşaq evində saxlanılan, xüsusi qayğıya ehtiyacı olan və Azərbaycan vətəndaşı olan kimsəsiz uşaqlara hüquqi yardım göstərilərək, həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində onların Azərbaycana repatriasiyası uğurla baş tutub.

Ölkəmizdə turizmin təşviqi və inkişafı məqsədilə Azərbaycan Respublikasına səfər etmək istəyən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi baxımından həyata keçirilmiş tədbirlər nəticəsində bir sıra xarici ölkə “ASAN Viza” sistemi vasitəsilə elektron viza verilən ölkələr siyahısına əlavə edilib. Eyni zamanda, 2018-ci ildə Serbiya Respublikası və Makedoniya Respublikası tərəfindən bu ölkələrə səfər etmək istəyən Azərbaycan Respublikası vətəndaşlarına münasibətdə viza tələbi birtərəfli qaydada ləğv edilib.

Cari il ərzində ikitərəfli və çoxtərəfli əsasda qarşılıqlı bir çox rəsmi və işgüzar səfərlər baş tutub. Azərbaycan Respublikasının Baş naziri Fransa və Qazaxıstanda işgüzar səfərdə olub. Öz növbəsində, Türkiyə, Bolqarıstan, Gürcüstan və Slovakiya hökumət başçıları, həmçinin Avstriya Respublikasının vitse-kansleri və Türkmənistanın nazirlər kabinetinin sədr müavini ölkəmizə rəsmi və işgüzar səfərlər həyata keçiriblər.

2018-ci ildə Azərbaycan Respublikasının xarici işlər naziri Türkiyə, ABŞ, Çin, Bolqarıstan, Banqladeş, Belarus, Fransa, Meksika, Türkmənistan və İtaliyaya rəsmi və işgüzar səfərlər edib. Eyni zamanda, Türkiyə, İran, Yaponiya, Finlandiya, Macarıstan, Fransa, Serbiya, Bosniya və Herseqovina, Gürcüstan, Türkmənistan, Kosta Rika, Monqolustan, Venesuela, Ekvador, Əfqanıstan, Hindistan, Banqladeş, Nepal, Şri-Lanka, Koreya Xalq Demokratik Respublikası, Sent Vinsent və Qrenadin, Müqəddəs Taxt-Tac və San Marinonun xarici işlər nazirləri, Kubanın xarici işlər nazirinin müavini, həmçinin ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi və Böyük Britaniya Baş nazirinin ticarət elçisi ölkəmizə rəsmi və işgüzar səfərlər həyata keçiriblər.

Bununla yanaşı, il ərzində Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Federasiyasının baş katibi, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru, Beynəlxalq Əmək Təşkilatının baş direktoru, Ümumdünya Meteorologiya Təşkilatının baş katibi, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının baş katibi, BMT-nin Avropa İqtisadi Komissiyasının icraçı katibi, NATO baş katibinin müavini, UNESCO baş direktorunun müavini, Beynəlxalq Miqrasiya Təşkilatının baş direktorunun müavini, Beynəlxalq İslam Xeyriyyə Təşkilatının sədri - humanitar məsələlər üzrə BMT Baş katibinin nümayəndəsi, Fəlakət Risklərinin Azaldılması üzrə BMT Ofisinin (UNISDR) Avropa regional ofisinin rəhbəri Azərbaycana səfər ediblər.

Cari ildə Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyi (Azerbaijan International Development Agency /AIDA) tərəfindən aparılmış birgə fəaliyyət nəticəsində “Azərbaycanın Əcnəbi Məzunlarının Beynəlxalq Assosiasiyası” İctimai Birliyi təsis edilib. Assosiasiyanın yaradılmasında əsas məqsəd Azərbaycanda təhsil almış əcnəbi vətəndaşların bir araya gətirilməsi, qarşılıqlı əlaqələrin yaradılması və ictimai faydalı məqsədlərə nail olunmasıdır. 2018-ci il oktyabrın 26-da Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyinin dəstəyi ilə ADA Universitetində “Azərbaycanın Əcnəbi Məzunlarının Beynəlxalq Assosiyasiyası”nın nümayəndələrinin iştirakı ilə “Gələcəyimizə sərmayə: dayanıqlı və inklüziv inkişafa doğru” mövzusunda təşkil olunmuş dəyirmi masada vaxtilə Azərbaycanda təhsil almış 25 ölkədən 65 yüksəkvəzifəli əcnəbi məzun iştirak edib.

2018-ci ildə Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən ADA Universiteti təhsil proqramlarını 8 bakalavr və 4 magistr proqramı vasitəsilə 43 ölkədən olan 2200 əcnəbi tələbə üçün davam etdirib. Xarici İşlər Nazirliyi və ADA Universiteti tərəfindən maliyyələşdirilən Xəzər Hövzəsinin Araşdırılması Proqramı çərçivəsində 38 ölkədən olan əcnəbi diplomatlara təlim keçirilib. Cari ildə ADA Universiteti yeni əməkdaşlıq əlaqələri quraraq, Massaçusets Texnologiya İnstitutu, Vaterloo Universiteti, Venesiyanın Kofoskari Universiteti, Macarıstanın Diplomatik Akademiyası, Latviya Universiteti, Hindistanın Diplomatik Akademiyası, Qazax - Britaniya Texniki Universiteti, Türkmənistanın Diplomatik Akademiyası, Tacikistanın Diplomatik Akademiyası və Rusiyanın Skolkovo İdarəçilik Məktəbi ilə anlaşma memorandumları imzalayıb. Mayın 25-də ADA Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunmuş beynəlxalq konfrans təşkil edilib.

Hesabat ili ərzində Azərbaycan Respublikası ilə Samoa Dövləti, Palau Respublikası, San-Tome və Prinsipi Demokratik Respublikası arasında diplomatik münasibətlər qurulub.

2018-ci ildə Venesuela Bolivar Respublikası və Çili Respublikasının ölkəmizdə diplomatik nümayəndəlikləri, həmçinin San Marino Respublikasının fəxri konsulluğu fəaliyyətə başlayıb.

Eyni zamanda, Avstriyanın Sankt Pölten və Klaqenfurt am Vörterse şəhərlərində Azərbaycanın fəxri konsulluqlarının açılışı baş tutub, Ukraynanın Poltava şəhərində isə yeni fəxri konsulluğumuz işə başlayıb.

2018-ci ildə xarici siyasətdə əldə olunmuş nailiyyətlərimiz milli təcrübə və ənənələr, ölkənin artan maddi-iqtisadi potensialı, eləcə də ölkədaxili sabitliyə əsaslanıb. Öz növbəsində, daxili potensial, milli imkan və qabiliyyətlərin xarici siyasət fəaliyyətinə təkan verməsi münbit qarşılıqlı əlaqəni təmin edib ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışında qeyd edib: “Bizim uğurlu xarici siyasətimiz bu gün daxili inkişafımıza da müsbət təsir göstərir”.

Növbəti ildə Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının milli maraqlarının beynəlxalq müstəvidə layiqincə qorunması və təmin olunması, həmçinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müəyyən etdiyi xarici siyasət hədəflərinə nail olunması məqsədilə müstəqil, çevik, praqmatik və çoxşaxəli xarici siyasət fəaliyyətini davam etdirəcəkdir. Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulması, torpaqlarımızın işğaldan azad edilməsi və məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıtması diplomatiyamızın ən başlıca vəzifəsi olaraq qalacaqdır.

# Mədəniyyət Nazirliyi ilə yekun vurdu

2018-ci il başa çatmaqdadır. Yola salmaqda olduğumuz ilə yekun vurulur, görülən işlərdən danışılır. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında dekabrın 26-da Mədəniyyət Nazirliyi Aparatı işçilərinin və nazirliyin strukturuna daxil olan qurumların rəhbər şəxslərinin iştirakı ilə 2018-ci ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirildi. Mədəniyyət naziri Əbülfəs Qarayev iclası açaraq gündəlikdə duran məsələlərlə bağlı məlumat verdi. Nazir bildirdi ki, gündəliyə “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”in yekunları, Mədəniyyət Nazirliyinin 2018-ci il ərzində gördüyü işlər haqqında hesabat və nazirliyin 2019-cu ilin birinci yarısı üçün iş planının təsdiq olunması daxildir.

Əbülfəs Qarayev Prezident İlham Əliyevin bu il aprelin 20-də imzaladığı “Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” sərəncamla Mədəniyyət Nazirliyinin və Dövlət Turizm Agentliyinin yaradıldığını qeyd etdi. Bununla bağlı nazirliyin strukturunda bir sıra islahatlar həyata keçirilib. Nazir islahatların əhəmiyyətini yüksək qiymətləndirdi. Bildirdi ki, struktur islahatlarının reallaşdırılmasında əsas məqsəd ölkəmizdə mədəniyyət siyasətinin daha məqsədyönlü və uğurlu şəkildə aparılmasıdır.

## Mədəniyyətimizin inkişafı və təbliği sahəsində ardıcıl tədbirlər

Bu il nazirliyin kollegiyasının yeni tərkibinin təsdiqləndiyi, eləcə də nazirliyin kollektivinin üzvlərindən bir neçə nəfərin müxtəlif dövlət orqanlarında məsul vəzifələrə təyinat aldığı vurğulandı. Belə ki, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi Vüqar Zeynalov Səbail Rayon İcra Hakimiyyətinin başçısı, nazirliyin şöbə müdiri Vüqar Şıxəmmədov Səbail Rayon İcra Hakimiyyətinin başçısının müavini, Yaşar Əliyev Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının humanitar məsələlər üzrə şöbəsinin müdiri təyin olunub.

İclasda gündəlikdəki birinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018” ilinin yekunları barədə məruzə etdi. O, Prezident İlham Əliyevin 2016-cı il 2 iyun tarixli sərəncamına əsasən yaradılan müvafiq təşkilat komitəsi tərəfindən “İslam Mədəniyyətinin Paytaxtı” ili çərçivəsində tədbirlərin yüksək səviyyədə həyata keçirildiyini nəzərə çatdırdı.

“Naxçıvan islam mədəniyyətinin paytaxtı-2018”in internet səhifəsi yaradıldı, poçt markası, buklet, suvenirlər hazırlandı. Ötən il iyulun 7-də “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” beynəlxalq konfrans, dekabrın 6-da “Ümummilli lider Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır” mövzusunda konfrans keçirilib. “İslamda müdrik kəlamlar”, “Naxçıvan: türk-islam mədəniyyəti abidələri”, “Naxçıvan buxxanaları”, “Naxçıvan hamamları”, “Naxçıvan türbələri” kitabları, eləcə də mütəfəkkir Nemətullah Naxçıvaninin “Qurani-Kərim”in təfsirinə həsr olunmuş çoxcildliyinin birinci cildi tərcümə olunaraq nəşr edilib, “Naxçıvan: türk-islam mədəniyyəti abidələri”, “İslam mədəniyyətinin paytaxtı Naxçıvan” televiziya filmləri çəkilib. Bu il Şərur rayonunun Yengicə kəndindəki Şərq hamamında, Nehrəm imamzadəsində, Naxçıvan şəhər imamzadəsində və Kəngərli rayonundakı Qarabağlar türbəsində əsaslı bərpa işləri görülüb.

İyunun 20-də “Naxçıvan İslam mədəniyyətinin paytaxtı” ilinin rəsmi açılışından sonra bir sıra tədbirlər, eləcə də dünya şöhrətli türkiyəli ebru sənətçisi Hikmət Barutcugilin əsərlərindən ibarət “Allahın gözəl adları” mövzusunda sərgi, İran rəssamı və miniatür ustası Mahmud Farçciyanın sənət sərgisi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun “Dədə Qorqud” Kamera orkestrinin konserti, “İslam filmləri həftəsi”, “Naxçıvan İslam mədəniyyətinin paytaxtı” mövzusunda beynəlxalq konfrans təşkil edilib. Bildirildi ki, “İslam mədəniyyətinin paytaxtı” ilinin yüksək səviyyədə keçirilməsi islam ölkələrinin nümayəndə heyətləri, o cümlədən ISESCO rəhbərliyi tərəfindən təqdir edilib.

“Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018” Təşkilat Komitəsinin sədr müavini Əbülfəs Qarayev bu il dekabrın 15-də Naxçıvan şəhərində “mədəniyyət paytaxtı” ilinin bağlanış mərasiminin də yüksək səviyyədə keçirildiyini söylədi. Nazir həmin tədbirdən sonra ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri ilə telefonla danışdığını, ISESCO rəhbərinin Naxçıvanın 2018-ci ildə “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı” adını layiqincə doğrultduğunu bir daha xüsusi vurğuladığını diqqətə çatdırdı.

Sonra Əbülfəs Qarayev Mədəniyyət Nazirliyinin 2018-ci il ərzində gördüyü işlər haqqında hesabatla çıxış etdi. O, il ərzində Mədəniyyət Nazirliyinin fəaliyyətinin ölkə başçısının tapşırıq və sərəncamlarına uyğun olaraq, həmçinin müvafiq dövlət proqramlarının icrası istiqamətində həyata keçirildiyini qeyd etdi. 2018-ci ildə ölkəmizdə təşkil edilən beynəlxalq tədbirlər, mədəniyyətin ayrı-ayrı sahələrinin inkişafı, ölkəmizin mədəniyyətinin təbliği istiqamətində görülən işlər, həyata keçirilən layihələr və əldə olunan nailiyyətlərdən ətraflı danışdı.

Dövlət başçısının müvafiq sərəncamınadək, yəni 2018-ci ilin aprel ayınadək nazirliyin fəaliyyət dairəsinə daxil olmuş turizmin inkişafı istiqamətində reallaşdırılan işləri diqqətə çatdıran nazir ilin birinci rübündə ölkəmizə gələn turistlərin sayında ötən ilin müvafiq dövrünə nisbətən 13 faiz artım qeydə alındığını dedi. Nazir mədəniyyət sahəsində fəaliyyət göstərən qurumları ölkə turizminin inkişafı üçün bundan sonra da səy və əzmlə çalışmağa çağırdı.

Respublikamızda mədəniyyətin inkişafı və dünyada təbliğindən danışan nazir bu il də Azərbaycanın nüfuzlu beynəlxalq tədbirlərə, mədəniyyətlə bağlı mötəbər forum və konfranslara evsahibliyi etdiyini nəzərə çatdırdı. Prezident İlham Əliyev tərəfindən irəli sürülən “Bakı prosesi”inin bu il on illiyi qeyd olundu. VI Bakı Beynəlxalq Humanitar Forumunun yüksək səviyyədə keçirilməsində nazirlik yaxından iştirak etdi. Bu tədbirlər Azərbaycanın beynəlxalq tədbirlərə evsahibliyi edən ölkə kimi nüfuzunu daha da artırdı.

Mədəni irsimizin təbliği ilə bağlı görülən işlər çərçivəsində Heydər Əliyev Fondunun xətti ilə keçirilən tədbirləri xüsusi vurğulayan nazir fondun təşkilatçılığı və nazirliyin iştirakı ilə bir sıra beynəlxalq festivalların, layihələrin həyata keçirildiyini nəzərə çatdırdı. Bu sırada sentyabr ayında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimiyə həsr olunmuş Nəsimi - şeir, sənət və mənəviyyat Festivalını xüsusi qeyd etdi.

Həmçinin Heydər Əliyev Fondunun dəstəyi ilə Bakıda ənənəvi “Muğam aləmi” V Beynəlxalq Muğam Festivalı, Üzeyir Hacıbəyliyə həsr olunmuş X Beynəlxalq Musiqi Festivalı, eləcə də Vokalçıların Bülbül adına VII Beynəlxalq müsabiqəsi, Mədəniyyət Nazirliyi və Azərbaycan Mədəniyyət Fondu tərəfindən ənənəvi Bakı Beynəlxalq Caz Festivalı keçirildi.

## Ölkəmizin mədəni həyatında mühüm hadisələrlə yadda qalan il

2018-ci ilin uğurlarından danışan Əbülfəs Qarayev bildirdi: “Bu il ölkəmizin mədəni həyatında da mühüm hadisələrlə yadda qalıb, o cümlədən xalqımızın yaratdığı mədəniyyət abidələrinin, milli irs nümunələrinin UNESCO-nun müvafiq siyahılarında yer alması prosesi davam edib. UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin Mavriki Respublikasında keçirilən 13-cü sessiyasında Azərbaycanın təqdim etdiyi “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına, Azərbaycanın Türkiyə və Qazaxıstanla birgə təqdim etdiyi “Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi” nominasiya faylı isə çoxmillətli mədəniyyət nümunəsi kimi təşkilatın Qeyri-maddi mədəni irs siyahısına daxil edilib”. Nazir bu nailiyyətlərin əldə olunmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın UNESCO-dakı nüfuzunun xüsusi rolunu vurğuladı. Bildirdi ki, bu istiqamətdə görülən işlər mədəni dəyərlərimizin dünya miqyasında tanınması baxımından böyük əhəmiyyət daşıyır.

Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə əlamətdar oldu. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” və 2018-ci ilin “Cümhuriyyət ili” elan olunması haqqında müvafiq sərəncamlarına uyğun il ərzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə silsilə tədbirlər, nazirliyin dəstəyi ilə Azərbaycanda və xarici ölkələrdə konsert proqramları keçirildi. Mayın 28-də “Crystal Hall”da möhtəşəm konsert proqramı təqdim edildi. Nazirliyin təşəbbüsü ilə keçirilən “Bölgələrdən-bölgələrə” yaradıcılıq festivalı da cümhuriyyətin 100 illiyinə həsr olundu.

Bu il də dövlət başçısının bir sıra mədəniyyət, incəsənət xadimlərinin, yazıçı və şairlərin, həmçinin mədəniyyət ocaqlarının yubileyləri haqqında müvafiq sərəncamlar imzaladığı vurğulandı. Ölkə başçısının müvafiq sərəncamlarına uyğun olaraq Sumqayıt və Mingəçevir Dram teatrlarının 50, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının 90 illiyi, Qara Qarayev, Gülxar Həsənova, Mehdi Məmmədov, İmran Qasımov, Həsən Məmmədov, Həsən Turabov, Elza İbrahimova, İsa Muğanna, Mikayıl Müşfiq, Aşıq Şəmşirin yubileyləri qeyd edildi. Fransanın nüfuzlu “Metso” televiziyasında dahi bəstəkar Qara Qarayevin 100 illiyi ilə bağlı silsilə verilişlər, konsertlər nümayiş olundu.

Yaxın günlərdə Bakı Ekspo Mərkəzində SSRİ xalq rəssamı Tahir Salahovun 90 illiyinə həsr olunmuş böyük sərgini də nazir ilin mühüm mədəniyyət hadisəsi kimi diqqətə çatdırdı.

Milli kinonun inkişafı istiqamətində görülən işlərdən də danışan nazir bu il dövlət başçısının sərəncamı ilə Azərbaycan kinosunun 120 illik yubileyi çərçivəsində silsilə tədbirlərin keçirildiyi qeyd etdi. Nazirliyin dəstəyi ilə olan 9-cu START Beynəlxalq Qısa Filmlər Festivalının müsabiqə proqramında 30 ölkədən 100 film nümayiş olundu. 7 filmimiz bu il dünyanın 13 ölkəsində keçirilən 17 beynəlxalq festivalda 20 dəfə iştirak edərək 12 mükafat qazandı. Bundan başqa, Azərbaycanda bir sıra ölkələrin kino günləri təşkil olundu. Bu sahədə beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulması işləri davam etdirildi.

## Yeni ilin hədəfləri müəyyənləşdi

Əbülfəs Qarayev nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin həyata keçirdiyi işlərdən də danışdı. Qeyd etdi ki, bu yaxınlarda Azərbaycan Milli İncəsənət Muzeyinin 3-cü korpusunun təmir-bərpadan sonra açılışı oldu. Gəncədə Şah Abbas Karvansarasının, Sabunçu rayonunda Hacı Şəhla məscidində və bir sıra digər mədəniyyət obyektlərində təmir işləri başa çatdı, Şəkidə Gileyli məscidində bərpa işləri isə davam etdirilir.

Bildirdi ki, hər il olduğu kimi, bu il də kitaba marağın artırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirildi. Azərbaycan kitabının dünyada tanıdılması layihəsi üzrə işlər davam etdirilir.

Nazir dedi ki, ölkə başçısının teatr sahəsi ilə bağlı imzaladığı sərəncamlar, müvafiq dövlət proqramı öz bəhrəsini verir. Teatr binalarında əsaslı təmir və yenidənqurma işləri paytaxtla yanaşı, regionlarda da davam etdirilir. Bir neçə gün öncə Şuşa Dövlət Musiqili Dram Teatrının binası əsaslı təmir olunaraq istifadəyə verildi. Növbəti ildə isə İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasında təmir işlərinə başlanılması nəzərdə tutulub.

Əbülfəs Qarayev Avropa İttifaqının Tvinninq layihəsinin ölkəmizdə tətbiqi işinin diqqətdə saxlanıldığını, bu istiqamətdə işlərin davam etdirildiyini vurğuladı.

Nazir ölkəmizdə mədəniyyətlə bağlı keçirilən tədbirlərin, layihələrin müxtəlif media orqanlarında geniş işıqlandırıldığını, xarici ölkələrin televiziya kanallarında verilişlər yayımlandığını diqqətə çatdırdı.

Sonra nazir bir daha qeyd etdi ki, 2019-cu ildə əsas hədəf bütün sahələrdə müasir texnologiyalardan istifadə imkanlarının genişləndirilməsi və göstərilən xidmətlərin günün tələbləri səviyyəsinə çatdırmaqdan ibarətdir.

Kollegiya iclasında 2018-ci ilin yekunlarına dair hesabat qəbul edildi və Mədəniyyət Nazirliyinin 2019-cu ilin birinci yarımilinin iş planı təsdiq olundu.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

# Azərbaycan Respublikası Mərkəzi Bankının 2019-cu il və ortamüddətli dövr üçün pul siyasətinin əsas istiqamətləri barədə

# B Ə Y A N A T I

*Azərbaycan Respublikası Mərkəzi Bankının 2018-ci ildə həyata keçirdiyi pul-kredit siyasəti milli iqtisadiyyatda qiymətlər sabitliyinə, aşağı və stabil inflyasiyanın təmin edilməsi vasitəsilə əhalinin yaşayışı və işgüzar fəaliyyət üçün əlverişli sosial-iqtisadi mühitin formalaşmasına yönəlmişdir.*

*Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında 2018-ci ildə ölkədə makroiqtisadi sabitliyin dayanıqlığının artırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdür. İnflyasiya aşağı birrəqəmli səviyyədə sabitləşmiş, iqtisadi artım davam etmiş, milli valyutanın məzənnəsi dayanıqlı olmuş, ölkənin strateji valyuta ehtiyatları artmaqda davam etmişdir.*

*Formalaşdırılmış makroiqtisadi proqnozlar əsasında 2019-cu ildə və ortamüddətli dövrdə də pul-kredit siyasəti aşağı və sabit inflyasiya əsaslı dayanıqlı sosial-iqtisadi mühitin formalaşmasına, bu əsasda iqtisadi artımın daha da sürətləndirilməsinə yönəldiləcəkdir. Eyni zamanda pul siyasəti rejiminin optimallaşdırılması, onun strateji və əməliyyat çərçivəsinin təkmilləşdirilməsi, inflyasiya gözləntilərinin azaldılması, həyata keçirilən pul-kredit siyasətinə etibarın artırılması, informasiya açıqlığının yüksəldilməsi həyata keçiriləcək pul-kredit siyasətinin əsas məqsədlərindən olacaqdır.*

## I. 2018-ci ildə pul siyasəti

### 1.1. Pul siyasətinin həyata keçirilməsi mühiti

*2018-ci ildə xarici şərtlərin milli iqtisadiyyatın inkişafına təsiri birmənalı olmamışdır.*

Dünya bazarlarında **neftin qiyməti**nin 2017-ci ilə nisbətən yüksək olması (35%) iqtisadi artıma dəstək vermiş və tədiyə balansının tarazlığını təmin etmişdir.

Qlobal iqtisadi artımın yüksək olaraq qalmasına baxmayaraq Beynəlxalq Valyuta Fondu cari və növbəti il üçün **dünya iqtisadi artım** proqnozunu azalmağa doğru (0.2%) təshih etmişdir.

Artmaqda olan geosiyasi gərginlik, xarici ticarət siyasətlərində qeyri-müəyyənliklər, neftin qiymətində son aylar müşahidə olunan dəyişkənlik və bu proseslərin regionda əsas **ticarət tərəfdaşları** olan qonşu ölkələrin iqtisadiyyatlarına təsiri makroiqtisadi sabitlik üçün əhəmiyyətli risklər yaratmışdır. 2018-ci ildə bu ölkələrin bir sırasında milli valyutaların (rus rublu, Türk lirəsi, İran rialı) ABŞ dollarına qarşı əhəmiyyətli ucuzlaşması psixoloji gözlənti effekti yaratmış, lakin görülmüş tədbirlər nəticəsində bu effektlər neytrallaşdırılmışdır. Proqnozlara və gözləntilərə rəğmən bu ölkələrdən Azərbaycana idxalın artımı dinamikası idxalın ümumi artım dinamikasından aşağı olmuşdur.

9 ayda cari əməliyyatlar balansında (CƏB) 5.1 mlrd. ABŞ dolları və ya ÜDM-in 15%-i səviyyəsində profisit yaranmışdır ki, bu da kapitalın və maliyyənin hərəkəti hesabındakı kəsiri tam örtmüşdür. CƏB-dəki profisit əsasən ticarət balansındakı profisit (67% artım) hesabına formalaşmışdır. Bununla belə xidmətlər balansındakı kəsirin 2 dəfə azalması və təkrar gəlirlər balansında profisitin 9% artması CƏB-dəki profisitə artırıcı təsir göstərmişdir.

Xarici sektorda müsbət meyillər 2018-ci ilin son rübündə də davam etməkdədir. Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, 2018-ci ilin 11 ayında **xarici ticarət balansı**nda 7.6 mlrd. ABŞ dolları məbləğində müsbət saldo yaranmışdır. 11 ayda əmtəə ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 43.3%, o cümlədən qeyri-neft ixracı 10.2% artmışdır. Bu dövrdə əmtəə idxalı 32.2%, o cümlədən qeyri-neft idxalı 32.7% artmışdır. Milli valyutaların kəskin ucuzlaşdığı Türkiyə və Rusiyadan qeyri-neft idxalının ümumi qeyri-neft idxalında payı ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 1.3 və 3.8 faiz bəndi azalmışdır.

Tədiyə balansının profisiti ölkənin **strateji valyuta ehtiyatları**nın artmasına şərait yaratmışdır. Strateji ehtiyatlar ilin əvvəlinə nəzərən 7% (2.9 mlrd. ABŞ dolları) artmış və 44.8 mlrd. ABŞ dolları təşkil edir. Strateji ehtiyatlar 31 aylıq mal və xidmət idxalına kifayət edir və xarici dövlət borcunu 3 dəfə üstələyir.

2018-ci ildə **iqtisadi artım** pozitiv zonada qalmaqda davam etmişdir. 11 ayda Ümumi Daxili Məhsul (ÜDM) real olaraq 1%, o cümlədən qeyri-neft sektorunda 1.3% artmışdır. Qeyri-neft sektorunda artım əsasən ticari sektordan qaynaqlanmışdır. Qeyri-neft sənayesində 8.7%, kənd təsərrüfatında 4.6% artım olmuşdur.

Mərkəzi Bankın **real sektorun monitorinqinin nəticələri** də ölkədə iqtisadi aktivliyin davam etdiyini təsdiqləyir. Monitorinqə əsasən, 2018-ci ildə qeyri-neft sənayesinin əksər sahələri üzrə, o cümlədən qida sənayesi, tikinti materiallarının istehsalı, metallurgiya sənayelərində iqtisadi aktivlik göstəricilərində artım müşahidə olunmuşdur. Bu sahələr üzrə biznes inam indeksi (BİI) hesabat dövrü ərzində pozitiv zonada olmuşdur. Sorğuda əhatə olunan əksər xidmət (rabitə, poçt, nəqliyyat, hotel, turizm) və ticarət (elektrik məişət avadanlıqları, avtomobil) sektorları üzrə də iqtisadi aktivlik göstəriciləri yaxşılaşmışdır.

İqtisadi artım xarici tələb və daxili **tələb**in istehlak və dövlət tələbi komponentləri ilə dəstəklənmişdir.

**İstehlak**ın səviyyəsi əhalinin pul gəlirləri və kredit qoyuluşlarının dinamikasının təsiri altında formalaşmışdır. 11 ayda əhalinin real gəlirləri 6.7%, ev təsərrüfatlarına kreditlərin həcmi isə 15% artmışdır. Bu şəraitdə istehlakçı inamı göstəricilərinin yaxşılaşması qeydə alınmışdır.

Daxili tələbin digər komponenti olan **investisiyalar**ın həcmi cari ilin 11 ayında 12.9 mlrd. manat olmuşdur ki, bunun da 48.2%-i özəl sektorun payına düşmüşdür.

**Büdcə xərcləri** 2018-ci ildə də daxili və xarici tələbə təsir edən mühüm amillərdən biri olmuşdur. 11 ayda dövlət büdcəsi xərcləri ötən ilin eyni dövrü ilə müqayisədə 27.2%, o cümlədən cari xərclər 5.9%, əsaslı xərclər 65.6%, dövlət borcuna xidmət xərcləri isə 44.3% artmışdır.

Daim artan büdcə və xüsusilə də əsaslı xərclərin dinamikası fonunda iqtisadi artımın potensialdan aşağı olması və əksinə, idxalın yüksək dinamikası büdcə xərclərinin effektivliyinin artırılması, iqtisadiyyatda struktur məhdudiyyətlərinin aradan qaldırılması zərurətini irəli sürür.

### 1.2. Pul siyasəti və onun nəticələri

*2018-ci ildə pul siyasəti "Azərbaycan Respublikası Mərkəzi Bankının 2018-ci il və ortamüddətli dövr üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatı"na uyğun olaraq həyata keçirilmişdir. Pul siyasətinin son hədəfini inflyasiyanı 6-8% dəhlizində saxlamaq təşkil etmişdir. İnflyasiyanın və inflyasiya gözləntilərinin əhəmiyyətli azalması nəzərə alınmaqla pul siyasətinin yumşaldılması istiqamətində qərarlar qəbul edilmişdir.*

2018-ci ildə **inflyasiya** gözləniləndən daha yüksək templə azalmış və təkrəqəmli səviyyədə sabitləşmişdir. 2018-ci ilin 11 ayında orta illik inflyasiya 2.3% təşkil etmişdir. Orta illik inflyasiya ilin ikinci yarısında 3%-dən aşağı olmuşdur. 11 ayda qiymət dəyişimi orta hesabla ərzaq məhsulları üzrə 1.9%, qeyri-ərzaq məhsulları üzrə 2.7%, xidmətlər üzrə 2.6% təşkil etmişdir. Son 12 ayda istehlak səbətinə daxil olan məhsulların 23%-nin qiyməti azalmış, 7%-nin qiyməti dəyişməmiş, 62%-nin qiymət artımı 5%-dən aşağı olmuşdur. Yalnız 8% məhsulun qiymət artımı 5%-i üstələmişdir. Əvvəlki illərdə olduğu kimi, cari ildə də kənd təsərrüfatı məhsullarının, xüsusən meyvə-tərəvəzin qiymətləri daha dəyişkən olmuşdur ki, bu da mövsümi və təbii şərait amillərindən təsirlənmişdir. Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsullarının qiymət dəyişimi nəzərə alınmadan hesablanan orta illik **baza inflyasiya** isə 2018-ci ilin 11 ayında 1.8% təşkil etmişdir.

İstehsalçı qiymətləri sənayedə başlıca olaraq enerji daşıyıcılarının qiymət dəyişimindən təsirlənmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksi 11 ayda cəmi 2.2% yüksəlmişdir. Nəqliyyat xidmətlərinin qiymət indeksində 1%-lik azalma yükdaşıma nəqliyyatı xidmətinin ucuzlaşması ilə bağlı olmuşdur.

Dövr ərzində inflyasiyaya azaldıcı təsir edən başlıca **amillər** manatın məzənnəsinin dayanıqlığı, pul təklifinin optimal səviyyədə idarə olunması və inflyasiya gözləntilərinin azalması olmuşdur. Həyata keçirilən effektiv pul-məzənnə siyasəti ticarət tərəfdaşı olan ölkələrdə inflyasiya proseslərinin, habelə bəzi inzibati qiymətlərin yüksəldilməsinin qiymətlərə artırıcı təsirini neytrallaşdırmışdır.

Son proqnozlara görə, 2018-ci **ilin sonuna inflyasiya**nın 2.3% ətrafında qərarlaşacağı gözlənilir.

Manatın xarici valyutalara nəzərən **məzənnə**si tədiyə balansı üzrə meyillərə və bundan asılı olan valyuta bazarındakı tələb-təklif nisbətinə uyğun olaraq formalaşmışdır. Xarici sektor göstəricilərinin yaxşılaşması şəraitində və qəbul edilmiş makroiqtisadi siyasət çərçivəsində manatın ABŞ dollarına nəzərən ikitərəfli məzənnəsinin sabitliyi davam etmişdir. Ümumilikdə manat 2018-ci ildə möhkəmlənmə təzyiqi altında olmuş, valyuta bazarında təklif tələbi üstələmişdir. Yalnız aprel və avqust aylarında xarici valyutaya tələbin artması bəzi tərəfdaş ölkələrdə milli valyutanın kəskin ucuzlaşmasının məzənnə gözləntilərinə təsiri ilə əlaqədar olmuşdur. Bu aylarda valyutaya tələbin artması fundamental makroiqtisadi amillərdən irəli gəlmədiyindən onun məzənnəyə təsiri neytrallaşdırılmışdır. Sonrakı aylarda bu ölkələrdə mərkəzi banklar tərəfindən qəbul edilmiş pul siyasəti qərarları maliyyə bazarlarını stabilləşdirmişdir.

2018-ci ildə də manatın **rəsmi məzənnə**si banklararası bazarda əqdlər üzrə orta məzənnə (hərraclar və hərracdan kənar əməliyyatlar nəzərə alınmaqla) əsasında müəyyən edilmişdir. İl ərzində banklar tərəfindən müəyyən edilən xarici valyutanın alış-satış məzənnələri rəsmi məzənnəyə yaxın səviyyədə formalaşmışdır.

2018-ci ildə inflyasiyanın faktiki dinamikası və valyuta bazarındakı tarazlıq **inflyasiya gözləntiləri**ni stabilləşdirmişdir. Biznes sektorunun inflyasiya gözləntiləri bütün sektorlarda, xüsusən də ticarət və xidmət sektorunda azalmışdır. Ev təsərrüfatları üzrə inflyasiya gözləntiləri 2015-ci ildən bəri minimum səviyyəyə düşmüşdür.

Dövr ərzində Mərkəzi Bank son makroiqtisadi prosesləri və yenilənmiş proqnozları nəzərə almaqla özünün likvidlik əməliyyatları üzrə **faiz dəhlizinin parametrləri**nə zəruri korreksiyalar etmişdir. Mərkəzi Bankda ilin əvvəlindən faiz dəhlizinin parametrləri bir neçə dəfə müzakirə edilmiş, uçot dərəcəsi mərhələlərlə 15%-dən 9.75%-ə endirilmişdir. Faiz dəhlizinin aşağı həddi 10%-dən 7.75%-ə, yuxarı həddi isə 18%-dən 11.75%-ə endirilmişdir.

2018-ci ildə **pul təklifi**nin dəyişimi makroiqtisadi sabitlik hədəflərinin reallaşdırılması ilə iqtisadiyyatın likvidliyə olan tələbinin ödənilməsi arasında optimal balansı təmin etmişdir. 11 ayda manatla pul bazası 5.2%, manatla geniş pul kütləsi (M2) isə 13.3% artmışdır. Pul təklifinin **de-dollarlaşma**sı prosesi davam etmişdir. Xarici valyutada əmanət və depozitlərin M3 pul aqreqatında xüsusi çəkisi 5 faiz bəndi, fiziki şəxslərin əmanətləri üzrə dollarlaşma isə 3.9 faiz bəndi azalmışdır.

2018-ci ildə iqtisadiyyatın pula olan tələbinin təmin edilməsi və likvidliyin effektiv idarə olunması məqsədilə Mərkəzi Bank müxtəlif müddətli **açıq bazar əməliyyatları**nı aktivləşdirmişdir. Mərkəzi Bank milli valyutada sərbəst vəsaitlərin cəlb olunması üzrə 55 depozit hərracı, notların yerləşdirilməsi üzrə 51 hərrac keçirmişdir. Depozit əməliyyatları vasitəsilə vəsaitlər 14 gün müddətinə cəlb edilmiş, notlar isə 28 gün müddətinə yerləşdirilmişdir. 11 ayda Mərkəzi Bankın depozit hərracları və notların yerləşdirilməsi vasitəsilə cəlb etdiyi vəsaitin həcmi 9.7% azalmış və dövrün sonuna 1.75 mlrd. manat təşkil etmişdir. İl ərzində faiz dəhlizinin aşağı həddinin azaldılması ilə sterilizasiya əməliyyatları üzrə gəlirliyin enməsinə baxmayaraq, keçirilən hərraclarda tələbin təklifi əhəmiyyətli üstələməsi bank sisteminin likvidlik mövqeyində iri həcmli **struktur profisiti**nin qaldığını göstərir.

2018-ci ildə inflyasiya təzyiqinin azalması və iqtisadi artımın pozitiv dinamikası **kredit aktivliyi**nin tədricən bərpasına şərait yaratmışdır. 2018-ci ilin 11 ayında kredit qoyuluşları 6.9% artmışdır. Lakin bankların iqtisadiyyata kredit vermək imkanları daha da yüksəkdir.

Cari ildə monetar idarəetmənin təkmilləşdirilməsi və həyata keçirilən pul siyasətinin effektiv **kommunikasiya**sı xüsusi diqqətdə saxlanılmışdır. 2018-ci ildə Mərkəzi Bankın İdarə Heyətinin 6 iclası pul siyasətinə həsr olunmuşdur. Mərkəzi Bankın hər bir siyasət qərarı ilə bağlı press-relizlər müvafiq analitik şərhlərlə dərc edilmiş, müntəzəm mətbuat konfransları keçirilmişdir. Rüblük əsasda Pul Siyasəti İcmalı hazırlanaraq ictimaiyyətə açıqlanmışdır. Mərkəzi Bank rəsmilərinin çıxışları və müsahibələri də pul siyasətinin kommunikasiyasında mühüm rol oynamışdır. Eyni zamanda Mərkəzi Bankın fəaliyyəti internet səhifəsi vasitəsilə ətraflı işıqlandırılmışdır.

## II. 2019-cu il və ortamüddətli dövr üçün pul siyasətinin əsas istiqamətləri

*2019-cu il və ortamüddətli dövr üçün başlıca strateji vəzifə makroiqtisadi sabitliyin dayanıqlığının artırılması və onun iqtisadi artımın sürətləndirilməsində rolunun yüksəldilməsidir.*

*Bu məqsədlə Mərkəzi Bank öz mandatına - qiymət sabitliyinin təmin olunmasına yönəldilmiş pul siyasətini davam etdirəcəkdir. Aşağı inflyasiyalı makroiqtisadi mühitin formalaşdırılması üçün pul siyasətinin strateji və əməliyyat çərçivəsi daha da təkmilləşdiriləcəkdir.*

### 2.1. 2019-cu il və ortamüddətli dövrə makroiqtisadi proqnozlar və risklər

*2019-cu il və ortamüddətli dövr üçün pul-kredit siyasətinin əsas istiqamətləri həmin dövrü əhatə edən rəsmi sosial-iqtisadi inkişaf və büdcə proqnozları əsasında formalaşdırılmışdır.*

Proqnozlaşdırılan dövrə xarici şəraitin həyata keçirilən pul-kredit siyasətinə təsiri bir neçə istiqamətdə baş verir.

2019-cu ildə **qlobal iqtisadi artım**ın hələ də yüksək qalacağı şəraitdə qeyri-neft ixracatının artımı üçün əlverişli şərait yaranır və bu rəsmi proqnozlarda əks olunub.

Əsas ticarət tərəfdaşlarımızda məzənnə volatilliyinin yüksəlməsi və onlarda inflyasiyanın yüksələrək idxal vasitəsilə milli iqtisadiyyatda qiymət sabitliyinə təsiri riski növbəti ildə də əhəmiyyətli olaraq qalmaqdadır.

Dünyanın **aparıcı iqtisadiyyatlarında pul-kredit siyasətlərinin normallaşdırılması** istiqamətində proqnozlaşdırılan proseslərin ölkədə qiymətlər sabitliyinə, ilk növbədə valyuta bazarına və milli valyutanın məzənnəsinə təsiri minimaldır və mövcud makroiqtisadi alətlər vasitəsilə neytrallaşdırılacaqdır.

Xarici mühitin makroiqtisadi sabitliyə ən mühüm təsir kanalı **dünya enerji bazarlarının konyunkturası** qalmaqdadır. Proqnoz dövründə neftin dünya bazarlarında qiyməti bir tərəfdən qlobal iqtisadi artım və bu əsasda neftə olan tələbatın formalaşması, digər tərəfdən qlobal təklifin idarə olunması ilə tələb-təklif nisbəti, habelə geosiyasi amillərin təsiri altında formalaşacaqdır. Bu amillərin məcmu və əksər hallarda müxtəlif istiqamətli təsiri qlobal neft bazarında qeyri-müəyyənliyi və müşahidə olunan qiymət dəyişkənliyini şərtləndirir.

Bütün bunları nəzərə alaraq Mərkəzi Bank növbəti il və ortamüddətli dövrə pul-kredit siyasətinin əsas istiqamətlərinin formalaşmasında həm rəsmi baza proqnozunu, həm də bu proqnozlara təsir edə biləcək neqativ amillərin neytrallaşdırılmasını nəzərdə tutur.

Ölkədə effektli pul-kredit siyasətinin həyata keçirilməsinin bir sıra mühüm **daxili struktur şərtləri** vardır.

Bura ilk növbədə milli iqtisadiyyatın formalaşmış strukturu, işgüzar tsiklin mövcud mərhələsi, şaxələnmə səviyyəsi, monetar və fiskal nəzarətin səviyyəsi, mövcud resursların dinamikası aiddir.

**Struktur amilləri** effektiv makrofiskal çərçivənin formalaşmasına və mövcud resurslardan tam istifadə etmək əsasında dayanıqlı iqtisadi artım trayektoriyasına qayıtmağa əhəmiyyətli təsir göstərir.

Belə şəraitdə effektiv pul-kredit siyasətinin formalaşması, makroiqtisadi stabilliyin dayanıqlığının təmin olunması başlıca olaraq pul-kredit siyasəti ilə fiskal siyasətin optimal **makroiqtisadi çərçivə**də sintezindən, hər iki istiqamətdə planlaşdırılan və artıq start verilmiş islahat tədbirlərinin əlaqələndirilməsindən asılı olacaqdır.

### 2.2. 2019-cu il üçün pul siyasəti çərçivəsi

*Növbəti ilə və ortamüddətli dövrə pul-kredit siyasətinin əsas məqsədi stabil aşağı inflyasiya səviyyəsinin təmin edilməsidir. Bunu nəzərə alaraq Mərkəzi Bank özünün stabilləşmə xarakterli monetar və məzənnə siyasətini davam etdirməklə dolayı yolla ictimai rifaha, iqtisadi artıma və məşğulluğa dəstək verəcəkdir.*

Növbəti ildə **pul siyasətinin son hədəfi** inflyasiyanı 4% (±2%) səviyyəsində saxlamaqla qiymət sabitliyinin Mərkəzi Bankın səlahiyyətləri çərçivəsində qorunması olacaqdır.

**Manatın ikitərəfli məzənnəsinin dinamikası** növbəti ildə də aşağı inflyasiyanın vacib şərtlərindən biri olacaqdır. Hesablamalar göstərir ki, manatın möhkəmlənməsinin qiymətlərə azaldıcı təsiri ilə müqayisədə onun ucuzlaşmasının inflyasiyaya artırıcı təsiri daha yüksəkdir. Bu baxımdan milli valyutanın məzənnəsinin dayanıqlığı qiymətlər sabitliyinin "lövbərləşməsi"nin təmin edilməsinin başlıca şərtidir. Valyuta bazarının tarazlığını təmin edən başlıca amil dövlətin valyuta təklifi ilə iqtisadiyyatın valyutaya olan tələbinin əsas komponentləri arasındakı tarazlıq olacaqdır. Valyuta tələbi dövlət xərclərindən təsirlənən idxal dinamikası, xarici borc axınları və kapital hesabının saldosu, habelə beynəlxalq konyunkturun dolayı effektlərindən təsirlənəcəkdir. Manatın məzənnəsinin uzunmüddətli meylini məhz bu makroiqtisadi fundamentallar müəyyən edir.

**Pul təklifi** iqtisadi artım və inflyasiya proqnozları, habelə maliyyə bazarlarında proseslər və bank sisteminin likvidlik mövqeyi nəzərə alınmaqla tənzimlənəcək. Ödənişlərin fasiləsizliyi, iqtisadiyyatın zəruri həcmdə likvidliyə olan tələbatını ödəmək də diqqətdə saxlanacaq.

İnflyasiya hədəfinə nail olmaq üçün Mərkəzi Bank sərəncamındakı **pul siyasəti alətləri**ndən makroiqtisadi vəziyyətə adekvat istifadə edəcək, bu alətlər üzrə kəmiyyət parametrləri proqnozlaşdırılan və faktiki inflyasiya arasındakı fərqdən asılı olaraq çevik dəyişdiriləcəkdir.

Mərkəzi Bank banklar tərəfindən likvidliyin effektiv idarə edilməsinə şərait yaratmaq üçün özünün müxtəlif müddətli **çərçivə və açıq bazar əməliyyatlarının yeni konfiqurasiyası**nı formalaşdıracaqdır. Çərçivə alətlərinə çıxış və məcburi ehtiyatların aylıq ortalama rejimində saxlanılması növbəti ildə də likvidliyin banklar tərəfindən optimal idarə edilməsinə şərait yaradacaqdır. Mərkəzi Bankın açıq bazar əməliyyatlarının bir hissəsi qısamüddətli, digər hissəsi isə uzunmüddətli likvidliyin tənzimlənməsinə xidmət edəcəkdir. Mərkəzi Bank tərəfindən buraxılan qiymətli kağızların müddət çeşidinin genişləndirilməsi məsələlərinə baxılacaqdır. Alət konfiqurasiyasında dəyişikliklər pul siyasətinin transmissiyasında faiz kanalının rolunun güclənməsinə, pul bazarının aktivləşməsinə və gəlirlik əyrisinin formalaşmasına dəstək verəcəkdir. Likvidliyin monitorinqi və proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsi istiqamətində işlər növbəti ildə də davam etdiriləcəkdir.

Faiz siyasəti inflyasiya üzrə hədəfə nail olmaqdan asılı olaraq həyata keçiriləcəkdir. **Faiz dəhlizinin parametrləri** haqda qərar ölkədə gedən makroiqtisadi proseslər, tsikl göstəricilərinin dinamikası, son proqnozlar və risklər balansında baş verən dəyişikliklər nəzərə alınmaqla qəbul ediləcəkdir. İnflyasiyanın effektiv idarə olunmasından asılı olaraq monetar şəraitin normallaşdırılmasının davam etdirilməsi mümkündür. Bununla belə faiz dəhlizinin parametrləri tənzimlənərkən milli valyutada yığımların cəlbediciliyinin qorunması və kredit qoyuluşlarının inflyasion artımına yol verilməməsi kimi amillər də nəzərə alınacaqdır. İnflyasiya risklərinin aktivləşməsi halında pul siyasətinin sərtləşmə istiqamətində də dəyişməsi mümkündür.

Mərkəzi Bank iqtisadi subyektlərin inflyasiya gözləntilərinin stabilləşdirilməsinə yönəldilmiş tədbirlərini davam etdirəcəkdir. Bunun üçün **pul siyasətinin effektiv kommunikasiyası** və şəffalıq səviyyəsinin yüksəldilməsi diqqətdə saxlanılacaq, öncədən açıqlanmış qrafiklə (Əlavə 1) pul siyasəti qərarları ictimaiyyətə təqdim ediləcəkdir. Kommunikasiya effektinin gücləndirilməsindəki rolunu nəzərə alaraq iqtisadi və maliyyə maariflənməsinin yüksəldilməsi istiqamətində tədbirlər də davam etdiriləcəkdir.

### 2.3. Ortamüddətli dövrə pul siyasəti istiqamətləri

*"Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2018-ci il tarixli Fərmanına uyğun olaraq Mərkəzi Bank inflyasiyanın effektli idarə edilməsi məqsədilə pul siyasəti rejiminin təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər görəcəkdir.*

Ortamüddətli dövrdə **aşağı, stabil və proqnozlaşdırıla bilən inflyasiya** səviyyəsinin təmin edilməsi və dəstəklənməsi ölkə iqtisadiyyatının dayanıqlı artımı üçün əsas amillərdəndir. Qiymət sabitliyi iqtisadiyyatda resursların daha səmərəli bölgüsünü və iqtisadi artımın daha dayanıqlı templərlə baş verməsini dəstəkləyir.

Bir çox inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, **inflyasiyanın hədəflənməsi rejimi** qiymət sabitliyinin qorunması, inflyasiyanın aşağı və sabit səviyyədə saxlanılması üçün ən optimal rejimdir. Bunu nəzərə alaraq Mərkəzi Bank uzunmüddətli dövrə inflyasiyanın hədəflənməsi rejimini Azərbaycan üçün optimal pul siyasəti rejimi olaraq görür və rejimə keçid şərtlərinin reallaşdırılması istiqamətində işlər davam etdiriləcəkdir.

İnflyasiyanın hədəflənməsi rejimində inflyasiya və inflyasiya gözləntiləri əsasən **faiz dərəcələri vasitəsilə** idarə olunur. Bu rejimdə pul siyasətinin iqtisadiyyata transmissiyanın birinci halqasında mərkəzi bankın siyasət faiz dərəcəsi banklararası bazarda qısamüddətli faizlərə təsir edir. Transmissiyanın ikinci halqasında isə qısamüddətli faizlər pulun uzunmüddətli dəyərinə təsir göstərməklə məcmu tələbi və bu əsasda inflyasiyanı dəyişdirir.

İnflyasiyanın hədəflənməsi rejiminin effektiv tətbiqi üçün zəruri şərtlərin mövcud durumu Azərbaycanda inflyasiyanın hədəflənməsi rejiminə mərhələli keçidi labüd edir.

Yeni rejimə mərhələli keçid çərçivəsində **pul siyasətinin alternativ lövbərinin formalaşdırılması** istiqamətində səylər gücləndiriləcəkdir. Qabaqcıl təcrübəyə əsasən optimal alternativ lövbər rolunu banklararası bazarda qısamüddətli faizlər oynaya bilər. Bunun üçün pul bazarının aktivləşməsi, o cümlədən qiymətli kağızlar bazarının dərinləşdirilməsi və banklararası pul bazarının inkişafına xidmət edən infrastruktur elementlərinin inkişafı istiqamətində işlər aidiyyəti orqanlarla birlikdə davam etdiriləcəkdir. Mərkəzi Bankın pul siyasəti alətlərinin yeni konfiqurasiyası da pul bazarının aktivləşməsini dəstəkləyəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 26 sentyabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında **rəqəmsal ödənişlərin genişləndirilməsi** üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi yaxın 3 ildə ölkədə nağd pul dövriyyəsini əhəmiyyətli azaltmalıdır. Bu da monetar nəzarətin gücləndirilməsi, habelə iqtisadiyyatın monetizasiya səviyyəsinin yüksəldilməsi ilə inflyasiyanın effektiv idarə edilməsinə müsbət təsir göstərəcəkdir.

Ortamüddətli dövrdə makroiqtisadi siyasətin hər hansı istiqamətinin dominantlığına yol verilməməsi və fiskal qaydaların kont-tsiklik tətbiqi potensialının inkişafı, bank sektorunun sağlamlaşdırılması və maliyyə vasitəçiliyinin gücləndirilməsi tədbirləri, habelə həyata keçirilməkdə olan struktur-institusional **islahatlar** da yeni pul siyasəti rejiminə keçidi sürətləndirəcəkdir.

İqtisadi subyektlər tərəfindən adekvat gözləntilərin formalaşmasını təmin etmək məqsədilə pul siyasətinin **kommunikasiya**sının effektivliyinin daha da artırılması, Mərkəzi Bankın **təhlil və proqnozlaşdırma** sisteminin təkmilləşdirilməsi istqamətində tədbirlər də davam etdiriləcəkdir.

*Beləliklə, 2019-cu il və ortamüddətli dövrdə də makroiqtisadi sabitliyin qorunması, xüsusən də davamlı qiymət sabitliyinə nail olunması dayanıqlı iqtisadi artım üçün baza şərti olacaqdır. Mərkəzi Bank özünün pul siyasəti ilə əldə olunmuş makroiqtisadi və maliyyə sabitliyinin dayanıqlığının təmin edilməsinə bundan sonra da zəruri dəstək verəcəkdir. Həyata keçiriləcək pul siyasətinin uğuru əhəmiyyətli səviyyədə iqtisadi siyasətin bütün istiqamətlərinin effektiv koordinasiyasından asılı olacaqdır.*

***Əlavə 1***

**Pul siyasəti qərarlarının ictimaiyyətə açıqlanması qrafiki**

2019-cu ildə faiz dəhlizinin parametrlərinə dair qərarlar 8 dəfə olmaqla aşağıdakı qrafiklə ictimaiyyətə təqdim ediləcəkdir:

1 fevral
15 mart
26 aprel
7 iyun
26 iyul
13 sentyabr
25 oktyabr
13 dekabr

Qeyd olunan tarixlərdən 1 fevral, 26 aprel, 26 iyul və 25 oktyabr tarixlərində qərarın açıqlanması mətbuat konfransı ilə müşayiət olunacaqdır.

# Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası keçirilib

Dekabrın 27-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilib:

1. 2018-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları.
2. Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsinin təsdiq edilməsi.
3. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il büdcəsinin təsdiq edilməsi.
4. İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsinin təsdiq edilməsi.
5. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı.
6. "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi.
7. "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi.
8. "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2018-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları ilə əlaqədar məruzə edib. Məruzəçi deyib ki, ümummilli lider Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, muxtar respublikada 2018-ci ildə də inkişaf və sabitlik təmin olunmuşdur. Başa çatmaqda olan il muxtar respublikanın sosial-iqtisadi və ictimai-mədəni həyatında əlamətdar hadisələrlə yadda qalmış, bütün sahələrdə inkişaf təmin edilmiş, əhalinin həyat səviyyəsi daha da yaxşılaşmışdır.

2018-ci ilin ən mühüm hadisəsi ölkə Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya növbəti səfəri olmuşdur. Bu səfər muxtar respublikada bir çox sahələrdə müasir infrastrukturun yaradılması ilə əlamətdar olmuş, dövlət başçısı Naxçıvan Müəllimlər İnstitutunun və Qaraxanbəyli kəndində 6 nömrəli tam orta məktəb binasının, hərbi xəstəxananın, Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin, Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin birinci mərhələsinin açılışlarında iştirak etmiş, Dövlət Sərhəd Xidmətinin sərhəd dəstəsində və Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissəsində yaradılan şəraitlə tanış olmuşdur.

Dövlət başçısı 2018-ci il mayın 16-da Ordubad Su Elektrik Stansiyasının tikintisi, muxtar respublika ərazisində meliorativ tədbirlərin görülməsi, Culfa-Ordubad magistral yolunun tikintisi və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair 4 sərəncam imzalamış, ümumilikdə bu işlərin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikasına 55 milyon manat vəsait ayrılmışdır.

Müasir tarixə yazılan mühüm hadisələrdən biri də Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmasıdır. Həmçinin 2018-ci ildə Naxçıvan şəhəri ölkəmizin Gənclər Paytaxtı seçilmişdir. Sentyabrın 23-də isə muxtar respublika paytaxtında Avropa Günlərinin açılışı olmuşdur. Noyabrın 26-da Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk forumunun keçirilməsi də qədim diyarın tarixən formalaşmış mərkəz kimi əhəmiyyətini xeyli artırmışdır.

2018-ci ildə Naxçıvan Muxtar Respublikasının ən böyük yaşayış məntəqələrindən biri olan Babək rayonunun yaradılmasının 40 illiyi geniş qeyd olunmuş, 8 dövlət orqanı və 5 ictimai təşkilatın yerləşdiyi inzibati bina yenidən qurularaq istifadəyə verilmişdir.

İqtisadi sahənin inkişafı da diqqətdə saxlanılmış, daxili imkanlardan səmərəli istifadə olunmuş, enerji və ərzaq təhlükəsizliyi təmin edilmişdir. Nəticədə 2018-ci ildə qazanılan uğurlar bundan əvvəlki dövrlərin göstəriciləri ilə müqayisədə artmışdır. Yeni istehsal müəssisələrinin işə salınması iqtisadiyyatın çoxsahəli inkişafına, məşğulluq səviyyəsinin yüksəldilməsinə, sosial layihələrin uğurla həyata keçirilməsinə səbəb olmuşdur. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin ötən dövründə ümumi daxili məhsulun həcmi 1,2 faiz artaraq 2 milyard 422 milyon manata yaxın olmuşdur. Onun bir nəfərə düşən həcmi 5 min 330 manat təşkil etmişdir ki, bu da 2017-ci ilin müvafiq dövründəki göstəricidən 2 faiz çoxdur. Ümumi daxili məhsulun 57 faizdən çoxu istehsalın payına düşmüşdür ki, bu da davamlı və tarazlı inkişafın əsas göstəricisidir.

Kənd təsərrüfatının inkişafı iqtisadi sabitliyin və ərzaq təhlükəsizliyinin başlıca şərtidir. Bu, bir tərəfdən sənaye müəssisələri üçün xammal bazası yaradırsa, digər tərəfdən kənd əhalisinin məşğulluğunun yüksəldilməsi, gəlirlərinin artması, rifah halının yaxşılaşması üçün də yeni imkanlar açır.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2018-ci ilin məhsulu üçün muxtar respublikada 61 min 935 hektar sahədə əkin aparılmışdır. Strateji əhəmiyyəti nəzərə alınaraq əkilmiş sahələrin 52 faizindən çoxunda, yəni 32 min 483 hektarda taxıl səpini aparılmış, zəmilərdən 97 min 689 ton məhsul yığılmışdır.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasında mütərəqqi suvarma şəbəkələrinin mövcudluğu mühüm əhəmiyyətə malikdir. Bu sahədə həyata keçirilən tədbirlər 2018-ci ildə də davam etdirilmiş, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 616 hektar sahəni əhatə edən qapalı suvarma şəbəkəsi qurulmuşdur.

Ərzaq təminatında xüsusi çəkiyə malik olan heyvandarlığın inkişafına da diqqət artırılmış, cari ilin ötən dövründə fermerlərə 4 milyon 563 min manat həcmində kredit verilmiş, yeni heyvandarlıq təsərrüfatları yaradılmışdır.

İqtisadiyyatın, xüsusilə də aqrar sektorun inkişafında ailə təsərrüfatlarının mühüm rolu vardır. Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı diqqətdə saxlanılır, bu sahədə ardıcıl tədbirlər görülür. 2018-ci ildə də ailə təsərrüfatlarına dövlət qayğısı davam etdirilmiş, 14 ailə təsərrüfatına kreditlər verilmiş, "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilmişdir.

Şəhər və rayon mərkəzlərində, kəndlərdə istifadəyə verilən sosial obyektlər, tikilən inzibati binalar, yaradılan istehsal sahələri insanların məskunlaşmasını, rahatlığını təmin etmiş, 7 kənd və 7 xidmət mərkəzi, Babək rayonunda bir yaşayış binası tikilərək istifadəyə verilmişdir. Naxçıvan şəhərində, Kəngərli, Şahbuz və Sədərək rayonlarının hər birində bir yaşayış binasının tikintisi davam etdirilir. Əhalinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində də tədbirlər davam etdirilir. Cari ilin ötən dövründə Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin birinci mərhələsi, Babək rayonunun Şəkərabad kəndində içməli su təchizatı və kanalizasiya sistemi, Şahbuz rayonunda təmizləyici qurğular sistemi istifadəyə verilmişdir.

Muxtar respublikanın avtomobil yollarında idarəetməni daha da təkmilləşdirmək və həyata keçirilən işlərin səmərəliliyini artırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 14 fevral tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi yaradılmış, agentlik üçün yeni inzibati bina istifadəyə verilmişdir. Yaradılan şəraitin nəticəsidir ki, bu ilin ötən dövründə muxtar respublikada 48,6 kilometr uzunluğunda yeni asfalt yol salınmış, bir körpü tikilmiş, bir körpü isə bərpa olunmuşdur.

İnformasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi göstərilən xidmətlərin həcmini artırmaqla yanaşı, keyfiyyətini də yaxşılaşdırmış, ucqar dağ kəndlərinin fiber-optik bağlantılarla və genişzolaqlı internetlə təmin edilməsinə səbəb olmuşdur.

Görülən işlər əhalinin məşğulluq səviyyəsini artırmış, yeni iş yerləri açılmışdır. Cari ilin ötən dövründə muxtar respublika üzrə 2024 yeni iş yeri yaradılmışdır ki, bunun da 98 faizi daimi iş yerləridir. Səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsində, işaxtaranların sosial müdafiəsinin gücləndirilməsində 2016-cı il yanvarın 11-də qəbul olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası da mühüm rol oynamışdır.

Muxtar respublikanın ümumi iqtisadi inkişafında diqqəti cəlb edən amillərdən biri də xarici ticarət əlaqələrinin genişləndirilməsi, ixrac potensialının gücləndirilməsidir. Sahibkarlığa göstərilən sistemli dövlət dəstəyi, ixracın stimullaşdırılması ilə bağlı qəbul edilmiş qərarlar muxtar respublikada istehsal olunan məhsulların ixrac imkanlarının artmasına və xarici bazarlarda tanınmasına şərait yaratmışdır. 2018-ci ilin ötən dövründə muxtar respublikanın xarici ticarət dövriyyəsi 435 milyon 598 min ABŞ dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 88 faizi, yaxud 383 milyon 314 min ABŞ dolları ixracın payına düşmüşdür.

Ali və orta ixtisas təhsili müəssisələrinin də inkişafı diqqətdə saxlanmış, Naxçıvan Dövlət Universitetində Distant Təhsil Mərkəzi yaradılmış, Naxçıvan Tibb Kollecinin binası yenidən qurulmuşdur. Hazırda Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin binasının yenidən qurulması davam etdirilir.

Tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi və vətəndaşların sağlamlığının etibarlı təminatı bu gün qarşıda duran əsas vəzifələrdəndir. Səhiyyə xidmətlərinin səviyyəsini müasir tələblərə çatdırmaq, keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədilə cari ildən Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanmışdır.

Naxçıvan Əlillərin Bərpa Mərkəzinə və Uşaq Bərpa Mərkəzinə yeni tibbi avadanlıqlar alınmış, sağlamlıq imkanları məhdud uşaqlar üçün uyğunlaşdırılmış əyləncəli oyun sahəsi istifadəyə verilmişdir.

Milli dəyərlərimizin yaşadılması, tarixi-dini obyektlərin bərpası, qorunması və gələcək nəsillərə çatdırılması sahəsində də tədbirlər görülmüşdür. "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası xalçaçılıq ənənələrinin qorunmasına və inkişafına öz töhfəsini verəcəkdir. Turizmin kompleks şəkildə və davamlı inkişafını nəzərdə tutan tədbirlərin həyata keçirilməsi muxtar respublikaya gələn turistlərin sayını ildən-ilə artırmışdır. 2018-ci ilin ötən dövründə muxtar respublikaya ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən 380 minə yaxın turist gəlmişdir.

Bədən tərbiyəsi və idman gənclərin fiziki inkişafında və asudə vaxtının səmərəli təşkilində mühüm rol oynayır. Bu istiqamətdə cari ilin ötən dövründə tədbirlər görülmüş, Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyası fəaliyyətə başlamış, Kəngərli və Culfa rayonunda mərkəzi stadionlar yenidən qurulmuşdur.

Sağlamlıq imkanları məhdud 3 Azərbaycan Vətən müharibəsi və bir Çernobıl iştirakçısı mənzillə təmin olunmuş, bir nəfərə isə avtomobil verilmişdir.

2018-ci ildə Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlər davam etdirilmiş, muxtar respublikanın müdafiə potensialı daha da möhkəmləndirilmişdir. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu 1992-ci ildə işğal olunmuş Günnüt kəndini və ətraf əraziləri, ümumilikdə 11 min hektar torpaq sahəsinə nəzarəti qaytarmış, ön xətdə və dayaq məntəqələrində etibarlı müdafiə sistemi yaradılmışdır. Muxtar respublikadakı ordu, birləşmə və hissələrin müasir xidmət şəraiti ilə təmin olunması sahəsində tədbirlər də davam etdirilmiş, yeni xidmət və yaşayış kompleksləri istifadəyə verilmişdir.

Sosial-iqtisadi sahədə əldə edilmiş uğurlar, sabitlik və təhlükəsizliyin təmin edilməsi muxtar respublikada məşkunlaşmanın və əhalinin rifahının yaxşılaşmasına öz təsirini göstərmiş, 1 dekabr 2018-ci il tarixə muxtar respublika əhalisinin sayı artaraq 455 mindən çox olmuşdur.

2018-ci ildə muxtar respublikanın sosial-iqtisadi inkişafında və qazanılan nailiyyətlərdə xidməti olanların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Ölkə Prezidentinin sərəncamları ilə muxtar respublika sakinlərindən 143-ü müxtəlif orden, medal və fəxri adlarla təltif olunmuş, bir nəfər Prezident təqaüdünə, 10 nəfər isə Prezident mükafatına layiq görülmüş, 4 nəfərə ali hərbi və ali xüsusi rütbə verilmişdir. Həmçinin 31 nəfər Naxçıvan Muxtar Respublikasının fəxri adları, 27 nəfər Naxçıvan Muxtar Respublikasının nişanları ilə təltif edilmişdir.

Sonda Ali Məclisin Sədri Vasif Talıbov demişdir ki, muxtar respublikada sosial-iqtisadi inkişafın təmin olunması bütün sahələrdə nailiyyətlərin qazanılmasına səbəb olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club"un 2018-ci ildə ölkəmizin iqtisadi regionları üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ikinci dəfə ən yüksək bal toplayaraq lider olması bunu bir daha təsdiq edir.

Sonra Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov çıxış ediblər.

Gündəlikdə duran ikinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini - maliyyə naziri Səbuhi Məmmədov çıxış edib, "Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq qəbul olunub.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri Əli Quliyev Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il büdcəsi barədə çıxış edib, sessiyada "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul olunub.

Sessiyanın gündəliyində duran dördüncü məsələnin müzakirəsi zamanı qeyd edilib ki, Azərbaycan Respublikasının "İşsizlikdən sığorta haqqında" 2017-ci il 30 iyun tarixli Qanununa əsasən işsizliyin yaranması hallarının qarşısının alınması, iş yeri ixtisar olunmuş şəxslərin əməkhaqlarının kompensasiya olunmasının təmin edilməsi və məşğulluğun artırılması məqsədilə işsizlikdən sığorta fondunun vəsaitləri hər il üçün qanunla təsdiq olunur. Müzakirə olunan məsələ ilə əlaqədar qanun layihəsi oxunub və "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu təsdiq edilib.

Gündəlikdə duran beşinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramovanın hesabatı dinlənilib, məsələ ilə əlaqədar qərar qəbul edilib.

Sonra "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi haqqında" Qanun layihəsi oxunaraq qəbul olunub.

Sessiyada gündəlikdə duran yeddinci məsələnin müzakirəsi zamanı diqqətə çatdırılıb ki, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda edilmiş dəyişikliklərə əsasən müvəkkilin vəzifə maaşı artırılıb və pensiya təminatını tənzimləyən 16.7-ci maddəsi yeni redaksiyada verilib. Dəyişikliklərə əsasən Müvəkkilin və onun ailə üzvlərinin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Bu məsələ ilə əlaqədar qanun layihəsi oxunub və "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun qəbul olunub.

Ali Məclisin Sədri deyib ki, gündəlikdə duran səkkizinci məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi haqqındadır. Deputatın və onun ailə üzvlərinin pensiya təminatının "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilməsi ilə bağlı "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilib. Buna uyğun olaraq Naxçıvan Muxtar Respublikasının müvafiq qanununda dəyişikliklər edilməsi üçün layihə hazırlanıb.

Sessiyada "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq təsdiq olunub.

Ali Məclisin Sədri 2018-ci ildə muxtar respublikanın inkişafında, sabitliyin və sərhədlərin qorunmasında əməyi olanların hamısına təşəkkürünü bildirib, Ali Məclisin deputatlarını, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu, birləşmə və hissələrinin şəxsi heyətlərini və onların ailələrini, şəhid ailələrini və müharibə veteranlarını, sessiya iştirakçılarını, muxtar respublika əhalisini qarşıdan gələn əlamətdar bayramlar - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib.

Ali Məclisin Sədri deyib ki, 2019-cu il muxtar respublikada "Ailə təsərrüfatları" ili kimi qəbul olunur.

Bununla da beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası öz işini başa çatdırıb.

# Qara şəhərin ağ günü

Yeni il qabağı Azərbaycan Prezidenti İlham Əliyevin "Bakı Ağ şəhər"də görülən və görüləcək işlərlə tanış olmasını heç də adi tədbirlərdən biri kimi qiymətləndirmək düzgün olmazdı.




Ağ şəhər tarixi baxımdan müstəqilliyini qazanan ölkənin paytaxtının son 15 ildə simasının büsbütün gözəlləşməsini əyani nümayiş etdirən əvəzsiz nümunədir. Dövlət başçısı yolunu necə bura salırsa, bizim də baş verən dəyişikliklərin fonunda keçmişə qayıtmaq, 100 il əvvəlki qara şəhərin qara günlərini xatırlamaq kimi imkanımız var.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bakı Ağ şəhər"də iki elektrik yarımstansiyalarının, Birinci Fəvvarələr küçəsinin açılışında, "Ağ şəhər" piyada körpüsünün və Zaman meydanının təməlqoyma mərasimində iştirak etdilər, Fəvvarələr Meydanı Parkı ilə tanış oldular.

Dövlət başçısına məlumat verildi ki, yeni yollar salınarkən ərazidə mazutlu və texnogen mənşəli yararsız qrunt 2 metrə qədər dərinliyədək qazılaraq ərazidən daşınılıb və əvəzində 400 min kubmetr yararlı karxana materiallarından istifadə edilib. Layihəyə uyğun olaraq 22,4 kilometr uzunluğunda 16-47 metr enində iki, dörd və altı hərəkət zolağından ibarət olan 63 avtomobil yolunda işlər davam etdirilib.

Ümumi uzunluğu 1420 metr olan Birinci Fəvvarələr, Birinci Yaşıl ada, İkinci Yaşıl ada, Altıncı park və Mərkəzi Şərq küçələrində 550 min kubmetr torpaq işi görülüb, 36 min kvadratmetr sahəyə asfalt-beton döşənib, inşaat işlərində 400 min kubmetr karxana materiallarından istifadə edilib, 22 min kvadratmetr səki salınıb, 150 işıq dirəyi quraşdırılıb, yollar boyunca müxtəlif növdə 240 ağac əkilib.

Ağ şəhər yollarının təmir işləri çərçivəsində cari ildə Birinci Fəvvarələr küçəsinin Nobel prospektinə çıxışı təmin olunub. Uzunluğu 560, eni isə 32 metr olan bu küçə Yaşıl ada və Fəvvarələr meydanı kvartallarını kəsir və şimalda Mərkəzi bulvar küçəsinə, cənubda isə Nobel prospektinə çıxır. Dördzolaqlı Birinci Fəvvarələr küçəsində, digər küçələrdə olduğu kimi, avtodayanacaq və piyadaların təhlükəsizliyi də nəzərə alınıb. Səkilərdə yaşıllıqlar, arabalar üçün panduslar salınıb, həmçinin avtomobillər üçün xüsusi parkinq yerləri də nəzərdə tutulub.

Fəvvarələr Meydanı parkı isə piyada keçidi və 800 yerlik ictimai parkinq kompleksinin bir hissəsidir. Tikintisi əsasən başa çatmış Fəvvarələr meydanı kvartalının mərkəzində yerləşən parkda geniş istirahət zonaları, üç fəvvarə kompleksi, uşaqların təhlükəsiz əyləncəsi üçün geniş meydança qurulub, landşafta gözəl memarlıq dizaynı verilib. Buradakı memarlıq işlərində klassika, müasirlik və qarışıq üslub nəzərə alınıb, müxtəlif nou-haular, hay-teklər, tikinti materiallarının incə zövqlə seçimi, ritmiklik, zəriflik harmonik tətbiq edilib. Parkın bəzi hissələri Qara şəhərin keçmiş tikililərindən qalma köhnə "xatirə" daşlarla döşənib.

Qara şəhər haqqında məlumatlandırıcı lövhələr, küçə saatı, termometr, xatirə medalyonu quraşdırılıb, "Daşın nəğməsi" adlı heykəl qoyulub. Piyadalar şimalda yerləşən Babək prospektindən Mərkəzi park rayonu, Fəvvarələr meydanı və Nobel prospekti üzərindən körpü vasitəsilə birbaşa Ağ şəhər bulvarına qədər 2 kilometrlik maneəsiz gəzintiyə çıxa biləcəklər, körpüdə yerləşdiriləcək eskalator və liftlər vasitəsilə metronun Ağ şəhər stansiyasına rahat gediş-gəliş əldə edəcəklər.

Bu yerdə keçmişə nəzər salmaq, görkəmini dəyişən bu müasir bəyaz şəhərin qara günlərini xatırlamaq yerinə düşərdi. XIX əsrin ikinci yarısında Qara şəhərdə əsasən neft zavodları yerləşirdi. Hələ 1870-ci illərdə bir çox zavodların Bakıdan kənardakı boş ərazilərə çıxarılması qərara alınmışdı. Bu ərazilərdə 100-ə yaxın zavod, ticarət müəssisələri və yaşayış yerləri tikildi. Zavodlardan çıxan qədərsiz tüstü bu məkana Qara şəhər adının verilməsinə səbəb oldu. 1880-ci ildə isə Keşlədəki otlaq sahələrdə və yerli əhalinin bağ və bostan sahələrinin yerində salınan müəssisələrin sayı 118-dən artıq idi. 1905-ci ildə, demək olar ki, Bakının bütün iri neft sənayesi obyektləri burada yerləşdirilmişdi. Bu yer 100 ilə yaxın bir müddətdə Qara şəhər adı ilə damğalandı. Bakı əsrdən uzun dövr ərzində neft istehsalında dünyada birincilərin sırasında olsa da, Qara şəhərin nə adı, nə də ki siması uzun illər dəyişdi. O zamanlar buralarda erməni mauzerçiləri, Bakının yerli qoçuları "piştonçular" ağalıq edər, "razborka"lar aparar, adam oğurluğu ilə məşğul olardılar.

Burada neft şirkətlərinin ofisləri, emalatxanalar və əlaqədar işçilərin yaşayış əraziləri yerləşirdi. Mərkəz ilə müqayisədə yaşayış şəraiti pis idi. İmkanlı şəxslər neft çıxarılması və emalının qadağan edildiyi şəhər mərkəzində yaşayırdılar. Bakının neft fəhlələrinin çoxu isə Qara şəhərdə yerləşdirilmişdi. 1890-cı ildə Qara şəhərə gələn türk səyahətçi buranı belə təsvir edirdi: "Hər şey qaradır; divarlar, yer, hava və səma. Sən nefti hiss edirsən və tüstünü içinə çəkirsən və pis qoxu səni boğur. Sən səmanı bürüyən tüstü buludlarının arasında gəzirsən".

Köhnə Bakı ilə bağlı sovet proletar yazıçısı Maksim Qorkinin də maraqlı xatirələri var. Bakıya ilk dəfə fəhləliyə gələn gənc yazıçı yazırdı: "Bakının neft mədənləri mənim yaddaşımda zülmət cəhənnəmin dahiyanə mənzərəsi kimi qalıb. Bu mənzərə özünün çənlərdə qaynayan qırları, sönməz cəhənnəm alovu ilə dəhşətli şüurun bütün fantastik təxəyyüllərini, səbir və həlimlik carçılarının insanı qorxutmaq cəhdlərini kölgədə qoyurdu". 1892-ci ildə Bakını belə təsəvvür edən yazıçının mövqeyi ikinci gəlişində də dəyişmir. O, birinci gəlişində Bakını tüstüyə bürünən buruqların zirvəsindən aşağıdakı cəhənnəmə bənzədir və işləməyə gəlsə də, buraları tərk edir: "Bütün bunlar o qədər müdhiş, qeyri-real, yaxud ifrat real, adamın düşüncəsini başından alan idi..."

İkinci dəfə 1897-ci ildə Bakıya Şalyapinlə gələn yazıçını Həsən bəy Zərdabi də müşayiət edir. "Sovet İttifaqına səyahət" kitabında mədənləri çaşqın vəziyyətdə gəzdiyini, öskürəkdən boğulduğunu, ayağının altında qumun xışıldamaq əvəzinə marçıldadığını yazır. Fəhlələrin yaşadığı alçaq kazarmaları "ibtidai adamların məskəni"nə bənzədir, heç vaxt bu qədər çirkli, tullantılarla dolu insan məskəni görmədiyini qeyd edir, geri dönərkən isə Bakını hətta ölü Pompeyin xarabalıqlarına bənzətməkdən belə çəkinmir.

Bir də 1928-ci il iyulun 20-də Bakıya ayaq basan yazıçı gördüklərini təxminən 40 il əvvəl rastlaşdıqları ilə müqayisədə müsbət qiymətləndirir. Lakin onun gördükləri, təbii ki, bugünkü Ağ şəhərin yanında yenə heç nədir.

Hazırda bu məkanda "Bakı Ağ şəhər" layihəsi ərazisində Xəzər dənizindən 25 metr hündürlükdə yerləşən Park rayonunda inşaat işləri davam edir. Burada tikilən 20 mərtəbəli yaşayış binalarının hündür podiumları üzərində istirahət və yaşıllıq zonaları, uşaq meydançaları salınacaq. "Knightsbridge (Naytsbric) Residence" kompleksinin tikintisi davam edir. Burada yaşayış binaları, biznes mərkəzi və məktəbin tikintisi planlaşdırılıb.

Babək prospektindən başlayan yeni Mərkəzi Şərq küçəsində yeni Qarabağ Atları meydanının layihəsi hazırdır. Kvartalın mərkəzinə çevriləcək meydanda sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılacaq, burada mağazalar, kafelər və meydanın mərkəzində 7 atdan ibarət fəvvarələr kompleksi inşa olunacaq.

2018-ci ildə Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq sərəncamı çərçivəsində layihənin qərbində yerləşən 26,7 hektar xaotik tikintili və infrastrukturu olmayan yeni ərazinin texniki inventarlaşdırılması aparılıb, Şəhərsalma və Arxitektura Komitəsinin tövsiyələri əsasında inşa olunacaq tikililərin memarlıq göstəriciləri, şəhərsalma, nəqliyyat və digər infrastrukturu "Ağ şəhər" layihəsi ilə uzlaşdırılıb və müfəssəl planı hazırlanıb. Bununla yanaşı, inşa olunacaq çoxsaylı bina, yol, park, məktəb, servis obyektləri, digər əraziplanlaşdırma və infrastruktur işlərinin layihələndirilməsi də yerinə yetirilərək cari ildə nəzərdə tutulan bütün işlər yekunlaşdırılıb. Ərazisi 7800 kvadratmetr olan Zaman meydanı şimal tərəfdən gözəl landşaft və fəvvarələr kompleksi ilə əhatə olunacaq. Gələcək metronun "Ağ şəhər" stansiyasının çıxışlarından biri də burada yerləşəcək. Meydan xüsusi sifariş edilmiş çoxsaylı saatlarla bəzədiləcək.

Ağ şəhərin bugününə və keçmiş qara günlərinə səyahət bizə imkan verir ki, cəmi 15 ilin ərzində paytaxtın yüzilliklərə bərabər inkişaf yolunu keçməsinin şahidi olaq.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə RAGB Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Rusiyanın Azərbaycanlı Gənclər Birliyi (RAGB) Moskvada Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbir keçirib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan RAGB İdarə Heyətinin üzvü Emin Hacıyev təşkilatın sədri Leyla Əliyevanın adından iştirakçıları qarşıdan gələn bayramlar münasibətilə təbrik edib. O, təşkilatın 2018-ci ildə gördüyü işlər barədə məlumat verərək vurğulayıb ki, sıraları ildən-ilə genişlənən RAGB yola saldığımız ildə də bir sıra maraqlı layihələr həyata keçirib. E.Hacıyev təşkilatın işində fəal iştirak edən gənclərə təşəkkürünü bildirib.





Akademik Fazil Qurbanov Rusiyadakı Azərbaycan diasporu adından RAGB üzvlərini qarşıdan gələn bayramlar münasibətilə təbrik edib. O, son illər ölkəmizdə əldə olunan nailiyyətlərdən bəhs edib. Akademik Rusiya və Azərbaycan arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə böyük töhfə verən RAGB-nin fəaliyyətini yüksək qiymətləndirib. Vurğulayıb ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi təşkilatın fəaliyyəti Rusiyada yaşayan və təhsil alan azərbaycanlı gənclərin bir araya gəlməsi, elm, təhsil, yaradıcılıq üzrə layihələrin, həmçinin ictimai təşəbbüslərin reallığa çevrilməsi baxımından əvəzolunmazdır.

Rəsmi hissədən sonra milli mahnı və rəqslərimizdən ibarət konsert olub.

# Cəbhə bölgəsində daha 5 kəndin içməli su təchizatı yaxşılaşdı



Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Tovuz rayonunun Əlimərdanlı, Qaraxanlı, Xatınlı, Qədirli və Cilovdarlı kəndlərinə çəkilən içməli su xətti istifadəyə verilmişdir.

Bu münasibətlə Xatınlı kəndində keçirilən mərasimdə çıxış edən Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov son illər rayonda həyata keçirilən sosial infrastruktur layihələrindən, yeni su mənbələrinin yaradılması istiqamətində həyata keçirilən tədbirlərdən, sakinlərin içməli su ilə təminatı üçün görülən işlərdən danışmışdır.

"Azərsu" ASC-nin sədr müavini Seymur Seyidov Tovuzda bu layihənin Prezident İlham Əliyevin "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 2018-ci il 9 aprel tarixli sərəncamına uyğun olaraq həyata keçirildiyini bildirərək demişdir ki, keçən il 170, bu il 41 kənddə içməli su layihəsi icra olunmuşdur. Təkcə cari ildə icra edilən layihələr çərçivəsində kəndlərdə 300 kilometrdən artıq magistral və paylayıcı su xətləri çəkilmişdir. 14 subartezian quyusu qazılmış, əhalinin ümumi istifadəsi üçün 1000-dən çox bulaq quraşdırılmışdır.

Çəkilişinə bu ilin yayında başlanan kəmərə su vurmaq üçün 2 subartezian quyusu qazılmış, 2 su anbarı yenidən qurulmuş, hidrofor tipli nasos stansiyası quraşdırılmışdır. Kəndlərdə müxtəlif diametrli borularla 42 kilometr su xətləri çəkilmiş, əhalinin istifadəsi üçün 184 bulaq qoyulmuşdur. Yeni su xəttindən 5 kənddə yaşayan 12 min sakin istifadə edəcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Ucqar dağ kəndinə təbii qaz verilib

Lənkəran rayonunun ucqar dağlıq yaşayış məntəqələrindən olan Mollakənd kəndinə ilk dəfə təbii qaz verilib. Bu münasibətlə keçirilən mərasimdə Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH), "Azəriqaz" İstehsalat Birliyinin, aidiyyəti xidmət sahələrinin əməkdaşları, kənd sakinləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbirdə çıxış edən Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov son illər ölkəmizdə sosial-iqtisadi sahədə görülən işlərdən, əhalinin maddi güzəranının, həyat səviyyəsinin gündən-günə yaxşılaşmasından danışıb. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının Lənkəranda da uğurla icra olunduğunu qeyd edən T.Qaraşov Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il ərəfəsində kəndə ilk dəfə təbii qaz çəkilişinin əlamətdar bir hadisə olduğunu vurğulayaraq sakinləri təbrik edib.

Mərasimdə çıxış edən yerli sakinlər bu qış günlərində evlərinə mavi yanacağın verilməsinə bu işdə əməyi olan bütün insanlara minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, 250 abonenti olan Mollakənd kəndinin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 15,2 min metr müxtəlif diametrli polietilen, polad borularla daşıyıcı, həmçinin paylayıcı qaz xətləri çəkilib, evlərə sayğac və fərdi tənzimləyici quraşdırılıb.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Yerli əhəmiyyətli yollar yenidən qurulur

Son bir neçə ildir istər respublika, istərsə də yerli əhəmiyyətli yolların yenidən qurulması istiqamətində xeyli işlər görülür. Yol infrastrukturunun inkişafı istiqamətində görülən işlər həm əhalinin rahatlığını təmin edir, həm də regionların iqtisadiyyatını sürətləndirir.



Qazax rayonunda da bu istiqamətdə xeyli tədbirlər həyata keçirilir. Dövlət başçısının sərəncamları ilə ayrılmış vəsaitlər hesabına Qazaxbəyli-Orta Salahlı-Aşağı Salahlı, Yuxarı Salahlı-Kəmərli, Kosalar, Quşçu Ayrım, Canalı, Çaylı, Bala Çaylı, Hüseynbəyli və Cəfərli kəndlərinə yeni asfalt yollar çəkilmişdir. Hazırda daha 9 kilometr Qazax-Uzuntala-Cəfərli avtomobil yolunun tikintisi aparılır. Eyni zamanda gələn il çəkilməsi nəzərdə tutulan 16 kilometrlik Daş Salahlı-Ürkməzli-Dəmirçilər kənd yolunun yenidən qurulması üçün hazırlıq işləri görülür.

Rayon mərkəzində də küçələr təmir edilir. Artıq bir sıra küçələrdə, eləcə də N.Nərimanov yaşayış massivindəki ərazilərə çınqıl tökülərək cari təmir işləri aparılmışdır.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Tərtər yenilikləri

### Uşaq bağçası təzə binaya köçürülüb

Tərtər şəhər 4 nömrəli körpələr evi-uşaq bağçası üçün inşa olunan yeni bina istifadəyə verilmişdir. Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin sifarişi əsasında inşa olunan 100 yerlik uşaq bağçasında uşaqların təlim-tərbiyəsi, ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması üçün hər cür şərait yaradılıb.

İkimərtəbəli bina müşahidə sistemləri ilə təmin olunmuş, həyətində abadlıq işləri aparılmış, nasos stansiyası, qazanxana, oyun meydançası inşa edilmişdir.

### Ağkəndin kitabxanası yeni binada

Rayon mərkəzləşdirilmiş kitabxana sisteminin Ağkənd kənd kitabxana filialı üçün inşa edilən bina istifadəyə verilmişdir. Bina Tərtər Rayon İcra Hakimiyyətinin dəstəyi və Y.H.Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasovun vəsaiti ilə tikilmişdir.

Tədbirdə çıxış edən Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov və akademik Vaqif Abbasov bilik mənbəyi olan kitabın əhəmiyyətindən, insanların mənəvi aləminə müsbət təsirindən danışmış, sakinləri kitabxananın xidmətindən səmərəli istifadə etməyə çağırmışlar. 3742 nüsxə kitab fonduna malik kitabxana təzə kitab rəfləri və digər zəruri ləvazimatlarla təmin edilmişdir.

### 700-dən çox Eldar şamı əkilmişdir

Tərtər Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən ağacəkmə aksiyasında idarə, müəssisə və təşkilatların kollektivləri iştirak etmişlər. Aksiya zamanı 700-dən çox ağac əkilmiş, Tərtər-Şıxarx avtomobil yolunun kənarında təmizlik işləri aparılmışdır. Ağacəkmə aksiyası davam etdirilir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## El ağsaqqalları

# Yeddi nəvənin babası

Bərdə rayonunun Hacallı kəndində dünyaya göz açan Müzəffər Hacıyevin uşaqlıq illəri Böyük Vətən müharibəsinin məşəqqətlərlə dolu dövrünə təsadüf edib. O zamanlar kənd camaatı əsasən heyvandarlıqla məşğul olduğundan Müzəffər də dərsdən sonrakı vaxtlarını qoyun-quzu otarmaqla keçirərdi, bununla yanaşı, nənəsinin bezdən tikdiyi kitab dolu çanta hər zaman yanında olardı. Kitaba bağlılıq, oxumaq, öyrənmək həvəsi ilə əvvəlcə Şuşa Kənd Təsərrüfatı Texnikumunu, sonra Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirdi.



İntizamlı, bacarıqlı olduğunu görüb ona rəhbər vəzifələr etibar etdilər, etimad göstərdilər. Üst-üstə 21 il müxtəlif məsul vəzifələrdə çalışıb, Babək adına kolxoza sədrlik edib. Deyir ki, Babək kolxozu Bərdə rayonunun Xam torpaq adlanan ərazisində yeni yaradılırdı. Əsrlərdən bəri ilan mələyən, kotan dəyməyən Xam torpaqda yeni yaşayış məntəqəsi də salındı. Adını Təhlə qoydular. İndi Təhlə kəndi abad bir qəsəbəyə bənzəyir.

Ermənistan silahlı qüvvələri torpaqlarımızı işğal edib, soydaşlarımızı qaçqına, məcburi köçkünə çevirib isti yuvasından, doğma ev-eşiyindən perik salanda neçə-neçə ailə bu kənddə özünə sığınacaq tapdı. Müzəffər kişi kolxoz sədri kimi qayğı və diqqətini onlardan əsirgəmədi, rahatlıqları üçün zəruri tədbirlər gördü. Onun xeyir-duası və maddi dəstəyi ilə Təhlə kəndində neçə-neçə gənc qaçqın və məcburi köçkün soydaşımıza toy məclisi quruldu, yeni ailələrin təməli qoyuldu.

Müzəffər kişi Kərbəla, Məşhəd və Məkkə ziyarətlərində də olub. Müharibələrin əleyhinədir. Söhbətlərində deyir ki, yüzillər boyunca tikilib-qurulan şəhərlərin, əsrlərin yadigarı olan qiymətli tarixi abidələrin, dəyərli mədəniyyət nümunələrinin dağıdılması, odlara qalanıb viran qoyulması insanlıqla bir araya sığmır.

"İnsan dünyaya xoş əməllər üçün gəlib. Gərək bir ağac əkəsən ki, kölgəsində oturanlar sənə rəhmət oxusunlar. Yol çək, körpü sal ki, savab qazanasan. Kimsəsizə, çətinə-dara düşənə arxa dur, kömək ol ki, el-obanın sevimlisinə çevriləsən. Dünya gör-götür dünyasıdır, ibrətlərlə doludur. Ömür o zaman daha çox mənalı olur ki, təkcə özün üçün, ailən üçün yox, xalqın, vətənin üçün yaşamağı bacarasan. Kiminsə dərdinə dərman ola bilirsənsə, yıxılanın qolundan yapışıb qaldırırsansa, el-obanın sevinci ilə sevinib, kədəri ilə qəmlənirsənsə, bu, əsl xoşbəxtlikdir".

Deyir ki, hər bir xalqın taleyində həlledici rol oynayan şəxsiyyətlər var. Bizim qürur mənbəyimiz ulu öndər Heydər Əliyevdir. O, həyatı boyu bizə doğru yol göstərən lider olub. Dövlətçiliyimizin, xalqımızın xilaskarına çevrilib. Odur ki, Bərdə şəhərində adına park salınanda, abidəsi ucaldılanda qəlbimin hökmü ilə qurbanlar kəsməyi özümə mənəvi borc bildim.

Müzəffər kişi çox nikbin adamdır. Sabahımızın daha nurlu olacağına, işğal altındakı torpaqlarımızın tezliklə azad ediləcəyinə ürəkdən inanır. Deyir ki, ən böyük nisgilim Qarabağdır. Dədə-babalarımız yayı yaylaqda, qışı qışlaqda keçiriblər. Kəlbəcərdə, Taxta düzündə qəbiristanlığımız var. Dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yeritdiyi müdrik siyasət və ordumuzun gündən-günə artan qüdrəti sayəsində qarşısında ermənilər tab gətirə bilməyəcəklər.

Müzəffər kişi Qarabağla bağlı fikirlərini belə tamamladı, həsrətini bir bəndlik bayatı ilə ifadə etdi:

*Mən aşiqəm dağlara.*
*Duman gələ dağlara.*
*Yüz qoyun qurbanım var,*
*Elim köçsə dağlara.*

Ömrünün ixtiyar çağında da Aşıq Ələsgərin əksər şeirini əzbər söyləyə bilir. Nizamini, Füzulini, Səməd Vurğunu çox sevir. Aşıq Şəmşirlə yaxın dostluğu olub. Dədə Şəmşir ona şeir yazıb.

Müzəffər kişi həm də xoşbəxt atadır. Üç oğulun üçü də ali təhsillidir. Rəşxan Moskva Ali Aviasiya İnstitutunu bitirib. Rövşən ali təhsilli iqtisadçıdır. Orxan Gəncə Kənd Təsərrüfatı Akademiyasının məzunudur. Müzəffər kişi həm də yeddi nəvənin babasıdır.

Qazandığı böyük hörmət və nüfuzu sayəsində onu bu gün də məclislərin yuxarı başında oturdurlar.

***L.QULİYEV,***
***"Azərbaycan"***

## Yeni nəşrlər

# Mixaylonun qisası, yaxud Mehdi Hüseynzadə olduğu kimi

Onun haqqında az yazılmayıb. Qısa, lakin şərəfli ömrü örnəyə çevrilib. Əlimiz yetməyən uzaq sahillərdən xalqımızın bu qəhrəman övladı barədə indi də xoş soraqlar gəlir. Bilmədiyimiz, bələd olmadığımız ali insani keyfiyyətləri ilə yanaşı, istedadı, mədəniyyət və incəsənətə, həyata bağlılığı, sevgiyə əbədi ehtiramı olan qəhrəmanımızı nəinki biz, faşistlərdən xilas etdiyi digər xalqların nümayəndələri də yaxşı tanıyır və sevir.

Belə olmasaydı, Sloveniya yazıçısı, şair, musiqiçi və bəstəkar Peter Amalietti Azərbaycanın cəsur, mərd oğlu, "Uzaq sahillərdə"n tanıdığımız Mixaylo - Mehdi Hüseynzadənin uşaqlıq, gənclik illərini, Böyük Vətən müharibəsində onunla bağlı və indiyədək qaranlıq qalan qəhrəmanlıq səhifələrindən ibarət "Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası" adlı publisistik romanı qələmə almaz və o, müxtəlif dillərdə özünə milyonlarla oxucu qazanmazdı.

Söhbət keçmiş sovetlər dövründə hamının sevimlisi "bizim Mixaylo"dan gedir. Azərbaycan Tərcümə Mərkəzinin yeni nəşrlərindən biri, Fərhad Abdullayevin tərcüməsi və Mahir Qarayevin redaktorluğu ilə işıq üzü görən, sloven yazıçısı Peter Amaliettinin "Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası" romanı xalqımızın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin (partizan Mixaylo) 100 illik yubileyinə layiqli töhfədir. 352 səhifədən ibarət kitabda Mehdi Hüseynzadə haqqında bugünədək xalqımıza məlum olmayan bir-birindən dəyərli məlumatlar, xatirələr özünə yer alıb: "...Tiflis hərbi məktəbini əla qiymətlərlə bitirdim. Dünən silah və hərbi forma verdilər. Bilmirəm, bu silahla adam öldürməyə əlim gələcək, ya yox... Ömrümdə toyuq başı da kəsməmişəm. Neyləyim, belə tərbiyə almışam. Allah qoysa, tezliklə görüşərik! Sabah yola düşürük, çatan kimi yazaram".




Mehdinin mahnısından bir parça olan bu Vətən sevgisi sanki Milli qəhrəmanlarımızın - Mübarizlərimizin, Fəridlərimizin... dilindən eşidilən, erməni vəhşilərini vahiməyə salan bir hayqırtıdır! Ana Vətən uğrunda canı-qanı ilə savaşmaq və qələbə əzmi ilə düşmənə zərbələr endirməyin sözlə ifadəsinin o ağır döyüşlərdə Mehdi Hüseynzadənin dilindən səslənməsi təsadüfi deyildi. Kitabın ön sözündə publisistik dillə qələmə alınmış romanın məziyyətləri, Mixaylonun cəbhədə indiyə kimi açılmayan bir çox qəhrəmanlıqlarına, vətənpərvərliyinə, eləcə də sevgi dolu ömür yoluna aydınlıq gətirən müəllif sanki doğma sloveniyalı igidi tərənnüm edir.

Mehdi Hüseynzadənin məktublarının birindən götürülmüş bu sətirlər sonralar Sovet İttifaqı Qəhrəmanı kimi faşistlərin qəniminə çevriləcək partizan Mixaylonun cəbhəyə yola düşdüyü saatlarda doğmalarına yazılıb.

*"Ey Vətən!*
*Bu çətin, ağır zamanda*
*Qoynunda böyüdüb bəslədin məni!*
*Vəfalı oğlunam, ana torpağım,*
*Düşmən tapdağında qoymaram səni!*

Əlbəttə, doğma xalqı da öz qəhrəman oğlunun xatirəsini daim əziz tutub. Dövlət tərəfindən öz layiqli qiymətini alan Mehdi Hüseynzadənin adını daşıyan qəsəbə də var, küçə də, məktəb də, gəmi də. 1973-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakıda qəhrəmanın heykəli ucaldılıb. Bu münasibətlə keçirilən açılış mərasimində ozamankı Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev qəhrəmanın şücaətini yüksək qiymətləndirərək deyib: "...Azərbaycan Pedaqoji İnstitutunun tələbəsi Mehdi Hüseynzadə hərarətli qəlbinin çağırışı ilə ölkəmizin müdafiəsinin sıralarına qoşuldu. Stalinqrad ətrafındakı vuruşmada ağır yaralanan Mehdi əsir düşdü. Lakin nə tikanlı məftil, nə Hitler həbs düşərgəsinin azğın keşikçiləri cəsur döyüşçünün iradəsini qıra bilmədi. O, faşist zindanından qaçdı və Yuqoslaviya partizanları sırasında düşmənlə mübarizəni davam etdirdi..."

Əsərdə uzun illər ərzində toplanmış nadir faktlar əsasında əfsanəvi partizanın keçdiyi döyüş yolu geniş işıqlandırılır, onun silah və əqidə dostlarının fəaliyyətindən söz açılır.

Burada qəhrəman Mixaylo barədə bilmədiyimiz bir çox məqamlar öz əksini tapıb. Yazıçı qəhrəmanının obrazında Azərbaycanla Sloveniya arasında tarixi paralellik aparır, hər iki xalqın təcavüzə, soyqırımına məruz qaldığına, azadlıq və müstəqillik uğrunda mücadiləsinə dair konkret faktlar təqdim edir.

Əfsanəvi qəhrəmanın dəfn mərasimində komandir Dulenin vida nitqi həm olduqca təsirli, həm də qürurvericidir. Müəllif ondan da bəhrələnib yazır: "...Özünü ölüm mələyi - Əzrayıl adlandırırdı. Amma bizim üçün bu şən və istiqanlı oğlan dostluq, yoldaşlıq, qardaşlıq və sevgi mələyi idi..."

Roman Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə 2013-cü ildə rus dilində işıq üzü görsə də, Azərbaycan Tərcümə Mərkəzinin təşəbbüsü nəticəsində bu günlərdə ana dilimizə çevrilərək yenidən nəşr edilib. Onu da qeyd edək ki, kitabın ərsəyə gəlməsində Azərbaycan Respublikasının Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Azər Xudiyevin böyük rolu olub.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# "AzerGold" QSC-də əlvan metalların hasilatı ilə bağlı təqdimat keçirilib

26 dekabr tarixində "AzerGold" QSC-nin inzibati binasında Cəmiyyətin rəhbər və işçi heyətinin iştirakı ilə hasilatla bağlı geniş təqdimat keçirilib. Təqdimat çərçivəsində Dağ-mədən və hasilat sahələrinin koordinasiyası şöbəsi, həmçinin Geologiya və dağ - mədən işləri və Əməliyyat bölmələrinin əməkdaşları aparılan hasilat işləri, emal prosesi, Çovdar yatağının ehtiyatları, qızıl çıxarılması haqqında iştirakçılara ətraflı məlumat veriblər. Bildirilib ki, 2018-ci ildə 45 490 unsiya qızıl və 77 340 unsiya gümüş hasil edilib. Bundan əlavə, aparılan optimallaşdırma işlərinin nəticəsi olaraq qırma-ələmə sahəsinin filiz emaletmə gücü saatda 100-150 tondan 200-250 tona çatdırılıb. Eyni zamanda, müasir texnologiyaların tətbiqi və optimallaşdırma işlərinin nəticəsi olaraq kimyəvi reagentlərin istifadəsi 20-30 faiz azaldılaraq hasilatda keçən ilə nisbətən 33 faiz artıma nail olunub. Laboratoriyada aparılan analizlərin dünya standartlarına uyğunlaşdırılması üçün müasir texnologiya olan PAL 1000 sisteminin istifadəsinə başlanılıb.




Daha sonra tədbir hasilat işlərinin daha da optimallaşdırılması, Çovdar yatağının istismar müddətinin uzadılması, Tülallar və Ağyoxuş qızıl təzahürləri sahələrində aparılan işlər, 2019 və 2020-ci illər üzrə istehsalat proqnozları ətrafında geniş müzakirələrlə davam edib.

***"Azərbaycan"***

# Sumqayıtda Yeni il şənliklərinə start verilib



Sumqayıt şəhərində Yeni il şənliklərinin keçirilməsinə start verilib. Belə mərasimlərdən biri Sumqayıt Dövlət Dram Teatrının binasının qarşısındakı meydanda təşkil olunub. Mərasimə şəhər sakinləri ilə bərabər qonaqlar da qatılıb. Şaxta baba, Qar qız və rəqs qrupu kiçik yaşlı uşaqları meydana dəvət edərək onları şənləndiriblər.

Aktyorların ifası, bayram əhvali-ruhiyyəli musiqi nömrələri də meydana toplaşanlara xoş təsir bağışlayıb.

*Akif ƏLİYEV, "Azərbaycan"*

# "Azercell Telekom" MMC şəbəkəsinin imkanlarını genişləndirir və gücləndirir

"Azercell" abunəçilərini yüksək keyfiyyətli rabitə xidmətləri ilə təmin etmək və rəqəmsal dünyanın ən son yeniliklərinin ölkədə tətbiqinə hazır olmaq üçün şəbəkənin gücləndirilməsi, əhatə dairəsinin genişləndirilməsi və təqdim olunan internet xidmətinin sürətinin daha da artırılması istiqamətində bir sıra mühüm addımlar atıb. 14-15 dekabr tarixlərində Abunəçi Məlumatlarının Mərkəzləşdirilməsi layihəsi (UDC) uğurla tamamlanıb. Bir neçə mürəkkəb mərhələni özündə birləşdirən UDC layihəsi "Azercell" şirkətinin texnoloji cəhətdən davamlı inkişafının göstəricilərindən biridir. Qeyd edilən tarixlərdə, həmçinin məlumat strukturumuzun gücləndirilməsi zəminində HLR Miqrasiyası prosesi müvəffəqiyyətlə yerinə yetirilib. Paralel şəkildə internet ötürücülüyünün artırılması məqsədilə Paket-kommutasiya şəbəkəsinin genişləndirilməsi işləri də uğurla icra olunub.

"Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyev sözügedən proseslərlə bağlı bildirdi ki, şirkət abunəçiləri təqdim edə biləcəyi ən güclü və dayanıqlı şəbəkə ilə təmin etmək üçün böyük layihələr həyata keçirir və mövcud resurslardan maksimal şəkildə istifadə edir. "Ümumiyyətlə, bu tip nəhəng layihələrin yerinə yetirilməsi çox ciddi riskləri özündə birləşdirir. Bir çox ölkələrdə bu layihələr zamanı ümumi şəbəkə kəsintisi kimi ciddi fəsadlar yaşanıb. Lakin "Azercell" UDC layihə qrupu Ericsson mütəxəssisləri ilə birlikdə qarşıya çıxa biləcək bütün risk və problemləri öncədən nəzərə alaraq, texniki nasazlıqları minimum həddə endirə bilmişlər", - deyə Vahid Mürsəliyev bildirib. O, bütün diqqətin "Azercell" şəbəkəsinin 5G və digər yeni nəsil texnologiyaların tətbiqinə hazırlanmasına, müştəri təcrübəsinin mükəmməlləşdirilməsinə yönəldiyini vurğulayıb. Vahid Mürsəliyev onu da qeyd edib ki, şirkət bundan sonra da təqdim etdiyi keyfiyyətli və rahat xidməti ilə abunəçilərin gündəlik, eləcə də işgüzar həyatını asanlaşdırmaq üçün çalışmağa davam edəcəkdir.

Qeyd etmək lazımdır ki, UDC (User Data Consolidation) - abunə istiqamətli telekommunikasiya şəbəkələrinin verilənlər bazasının daha çevik, daha sürətli və daha keyfiyyətli istifadəsinə imkan yaradır. UDC - çoxməqsədli sistemdir və telekommunikasiya sahəsində fəaliyyət göstərən digər bütün növ sistemlərlə uyğunlaşa bilir.

Telekommunikasiya şəbəkəsində hər bir aktiv mobil cihazın məlumatlarını özündə cəmləyən HLR-yerləşmə qeydiyyatı bazası mövcuddur. HLR-in məqsədi bu məlumatların toplanmasında funskionallığı təmin etmək və istifadəçinin müəyyən edilməsi (təsdiqlənməsi) kimi istəkləri emal etməkdir. Qeyd edək ki, məlumat bazası hər zaman yenilənir. Tutum qabiliyyəti tükənmək üzrə olarkən və ya şəbəkədə təkmilləşmə işləri görülərkən, hər bir istifadəçi üçün məlumat strukturu gücləndirilməli olur. Bu halda, istifadəçi məlumatlarının itirilməsinin qarşısının alınması üçün data köhnə HLR-dən (mənbə HLR) yeni HLR-ə (hədəf HLR) köçürülür. Bu proses HLR miqrasiyası adlanır ki, şirkətimiz tərəfindən uğurla tamamlanmışdır.

Paket-kommutasiya şəbəkəsinin genişləndirilməsi layihəsi müştəri təcrübəsinin inkişafına yönəlmiş mühüm proseslərdən biridir. "Azercell" onun köməyilə internetdə məlumat ötürücülüyünü artırmağa nail olacaq. Beləliklə də, internet istifadəsinin pik saatlarında mobil operatorun abunəçiləri sürətin nisbətən zəifləməsinin şahidi olmayacaqlar.

Ümumiyyətlə, bütün sadalanan proseslər təkmilləşməyə yönəldiyindən müştərilərin rahatlığını təmin etməkdə yardımçı olur.

Azərbaycana bir sıra texnoloji yeniliklər gətirən "Azercell" bundan sonra da öz missiyasına sadiq qalaraq innovativ həllər, müasir xidmətlər vasitəsilə abunəçilərin həyatını asanlaşdırmaq və rəqəmsallaşdırmaq üçün şəbəkəsinin gücləndirilməsini davam etdirəcək, bu istiqamətdə zəruri olan tədbirləri həyata keçirəcəkdir.

***"Azərbaycan"***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### İsrail parlamenti özünü buraxdı



İsrail parlamenti özünü buraxmaq və növbədənkənar seçkilər keçirmək haqqında qanun qəbul etmişdir. Bu barədə Knessetin mətbuat xidməti məlumat vermişdir.

Qərarın lehinə 102 parlamentar, əleyhinə 2 deputat çıxmışdır. Knessetə növbədənkənar seçkilər gələn il aprelin 9-na təyin olunmuşdur.

Hökumət seçkilərədək işini davam edəcək. Deputatlar isə aprel ayınadək tətilə çıxacaq.

Növbədənkənar seçkilərin nəticələrinə görə yeni hökumət və parlament formalaşdırılacaq, həmçinin Baş nazir təyin ediləcək.

### Paris Yeni il təntənələrini ləğv etməyəcək



Dekabrın 31-də Fransa paytaxtında "sarı jiletlər"in yeni etiraz aksiyaları keçirmək çağırışları səslənsə də, Paris meriyası Şanzelize prospektində bayram tədbirlərinin təşkili planını təsdiqləmişdir. Bu barədə Paris şəhər administrasiyası məlumat vermişdir.

"Sarı jiletlər"in Facebookdakı müxtəlif qruplarında yeni aksiyalara çağırış səsləndirilir. Bu sosial şəbəkədə paralel olaraq yaradılmış bir neçə çağırış çərçivəsində 9 mindən çox istifadəçi öz iştirakını təsdiqləmiş, 70 min nəfərə yaxın istifadəçi isə bu hadisəyə marağını ifadə etmişdir. Hərəkatın ideya ilhamvericilərindən biri olan Erik Druenin qrupunda söhbət dekabrın 29-dan gedirsə, bununla bərabər, dekabrın 31-dən yanvarın 1-nə keçən gecə Şanzelize prospektində toplaşmaq təklifləri də var.

Bundan əlavə, yanvarın 1-nə keçən gecə polis ekspert-kriminalistlərinin tətili gözlənilir. Lakin hüquq-mühafizə orqanlarının elmi bölmələrinin əməkdaşlarının hansısa etiraz aksiyası keçirib-keçirməyəcəyi məlum deyil.

*Təkrar*

## "Bakı Metropoliteni" QSC müxtəlif növ sürtkü yağlarının satın alınması üzrə *açıq tender elan edir*

**Tender 1 (bir ) LOT üzrə keçirilir:**

**LOT - 1:** "Bakı Metropoliteni" QSC-yə müxtəlif növ sürtkü yağlarının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən müvafiq hesaba köçürdükdən sonra tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili, 16 (əlaqələndirici şəxs: İlqar Qasımov. Telefon: (012) 490-00-91) ünvanından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**İştirak haqqı 1 LOT üzrə - 300 manat.**

**Hesab: AZ98AZRT38050019440010268002**
**VÖEN: 1402871431**
**Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kodu: 501361**
**VÖEN: 9900006111**
**M/H: AZ02NABZ01350100000000022944**
**S.W.I.F.T: AZRTAZ22**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 2 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 70 bank günü müddətində qüvvədə olmalıdır);*
- *iddiaçının son bir il ərzindəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir il ərzindəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanı tərəfindən arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 21 yanvar 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 29 yanvar 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 30 yanvar 2019-cu il saat 15:00-da "Bakı Metropoliteni" QSC-nin akt zalında, Tender komissiyasının iclasında, Bakı şəhəri, M.Rəfili küç., 16 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri Tender komissiyasının iclasında iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin 2017-ci il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən tərtib olunmuş maliyyə hesabatlarının Beynəlxalq Audit Standartlarına uyğun olaraq müstəqil auditinin həyata keçirilməsi üçün xidmətlərin satın alınmasına dair keçirilmiş açıq tender proseduru "Dövlət satınalmaları haqqında" 27 dekabr 2001-ci il tarixli 245-IIQ№-li Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən baş tutmamış elan edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 28.11.2018-ci il tarixdə keçirilmiş 4 LOT üzrə "Bakı Metropoliteni" QSC istismar və tikinti sahələrinin normal işinin təşkili üçün zəruri olan malların və ehtiyat hissələrinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə LOT-3 İzolyasiya mallarının alınması üzrə "Caspian Energy Group" MMC, "GST Company" MMC və "Hidroizolservis" MMC, LOT-4 Bərkidicilərin alınması üzrə "PLT Business" MMC qalib elan olunmuşdurlar. Qalib gəlmiş təşkilatlar ilə LOT-3 üzrə "Caspian Energy Group" MMCilə ƏDV daxil 669824,64 (altı yüz altmış doqquz min səkkiz yüz iyirmi dörd manat 64 qəpik) manat məbləğində 20.12.2018-ci il tarixdə, "GST Company" MMC ilə ƏDV daxil 35400,00 (otuz beş min dörd yüz manat 00 qəpik) manat məbləğində 21.12.2018-ci il tarixdə, "Hidroizolservis" MMC ilə ƏDV daxil 261181,20 manat (iki yüz altmış bir min yüz səksən bir manat 20 qəpik) manat məbləğində 21.12.2018-ci il tarixdə, LOT-4 üzrə "PLT Business" MMC ilə ƏDV daxil 598823,06 (beş yüz doxsan səkkiz min səkkiz yüz iyirmi üç manat 06 qəpik) manat məbləğində 19.12.2018-ci il tarixdə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 11.12.2018-ci il tarixdə keçirilmiş 2 LOT üzrə "Bakı Metropoliteni" QSC üçün müxtəlif növ elektrik mallarının və stansiyalarda təmizlik işləri xidmətinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə LOT-1 Müxtəlif növ elektrik mallarının alınması üzrə "ERG Baku" MMC, "Santral Elektrik LTD" MMC və "VEF" MMC qalib elan olunmuşdurlar. Qalib gəlmiş təşkilatlar ilə LOT-1 üzrə "ERG Baku" MMC ilə ƏDV daxil 705301,33 (yeddi yüz beş min üç yüz bir manat 33 qəpik) manat məbləğində 19.12.2018-ci il tarixdə, "Santral Elektrik LTD" MMC ilə ƏDV daxil 329140,20 (üç yüz iyirmi doqquz min yüz qırx manat 20 qəpik) manat məbləğində 21.12.2018-ci il tarixdə, "VEF" MMC ilə ƏDV daxil 17029,76 (on yeddi min iyirmi doqquz manat 76 qəpik) manat məbləğində 21.12.2018-ci il tarixdə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün 1 (bir) ədəd rəngli printerin satın alınması ilə bağlı kotirovka sorğusu üzrə Satınalmalar Komissiyasının 21 dekabr 2018-ci il tarixli qərarına əsasən "HALAL P" MMC qalib elan edilmişdir. Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 14 dekabr 2018-ci il tarixdə keçirilmiş Əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara diqqət və qayğının artırılması məqsədilə təbliğat kampaniyasının təşkili adlı müsabiqənin qalibi "İnkişafa Doğru" Regionların Sosial İqtisadi İnkişafına Dəstək İB olmuşdur.

***Müsabiqə komissiyası***

### Əfqanıstanda İŞİD-in üzvü məhv edildi

İŞİD terrorçu qruplaşmasının üzvlərindən biri Sultan Əziz Əzəm Əfqanıstanda ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiyanın aviasiya zərbəsi nəticəsində öldürülmüşdür. Bu barədə Əfqanıstan Daxili İşlər Nazirliyinə istinadən "Pajhwok" agentliyi xəbər verir.

Əzəm ölkənin şərqində yerləşən Nənqərhar əyalətində məhv edilmişdir. O, ekstremistlərin sıralarına yeni üzvlər cəlb etməyə görə məsuliyyət daşıyırdı.

Son vaxtlar ölkənin şərq və cənub əyalətlərində, eləcə də şərqində terrorçuların mövqelərinin xeyli möhkəmlənməsi müşahidə olunur. Eyni zamanda radikal qruplaşmaların səhra komandirləri və sıravi üzvləri tez-tez İŞİD-ə sədaqət andı içirlər.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Neft Maşınqayırma Zavodunun direktoru Eldar Vəliyev Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8412
Sifariş 3898
Qiyməti 40 qəpik